**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ŞƏHRİYAR AĞAMİRZƏ OĞLU MƏMMƏDOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ ABŞ-la MÜNASİBƏTLƏRİ: SİYASİ TƏHLİL

**İxtisas: 5901.01- "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi**

**almaq üçün təqdim olunmuş**

**DİSSERTASİYA**

**Elmi rəhbər: Ə.M.TAĞIYEV**

**Fəlsəfə elməri doktoru, professor**

**BAKI-2018**

# MÜNDƏRİCAT

**GİRİŞ**……………………………………….....….........................................3

**I FƏSİL: Azərbaycan - ABŞ münasibətlərinin konseptual əsasları.................14**

1.1. ABŞ-ın Cənubi Qafqaza və Azərbaycana istiqamətlənmiş xarici siyasət doktrinaları və konsepsiyaları: mahiyyəti və əsas cəhətləri..................................14

1.2. Azərbaycanın xarici siyasət kursunda ABŞ-ın yeri və rolu............................36

**II FƏSİL: Azərbaycan-ABŞ münasibətləri: siyasi əlaqələrin yaranması və əsas istiqamətləri.........................................................................................................51**

2.1. Müstəqilliyin əldə edilməsi dövründə Azərbaycan Respublikasına münasibətdə ABŞ-ın xarici siyasəti ................................................................. 51

2.2.1995-2001-ci illər dönəmində Azərbaycan-ABŞ münasibətlərinin siyasi-diplomatik aspektləri.........................................................................................64

2.3. Azərbaycan-ABŞ münasibətlərinin yeni dövrü: əsas amillər və müasir çağırışlar.........................................................................................................73

**III FƏSİL: Azərbaycan-ABŞ münasibətləri: çoxtərəfli əməkdaşlıq və inkişafın mühüm aspektləri...............................................................................................85**

3.1 Azərbaycan Respublikası ilə ABŞ arasında iqtisadi əlaqələrin əsas istiqamətləri.........................................................................................................85

3.2 Azərbaycan Respublikası və ABŞ arasında hərbi – strateji əməkdaşlıq........................................................................................................94

3.3 Azərbaycan-ABŞ münasibətlərində humanitar yardım siyasəti və onun əsas xüsusiyyətləri...................................................................................................110

3.4 Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ABŞ amili.......................................................................................................120

**Nəticə**…...........………………..............……………………………….................130

**İstifadə edilmiş ədəbiyyat siyahısı**....................………..........………...............138

# GİRİŞ

**Tədqiqat mövzusunun aktuallığı:** XX əsrin 90-cı illərində SSRİ-nin süqutu ilə dünyanın siyasi xəritəsində formalaşmış konfiqurasiyalar yeni beynəlxalq münasibətlər sistemini yaratdı. Bu isə bütün dünyada, eləcə də müxtəlif regionlarda baş verən siyasi proseslərə həlledici təsir edərək, yeni faktorlar və güc mərkəzləri formalaşdırdı. Təbii ki, bu proses Cənubi Qafqaz məkanından da yan ötməyib, regionun geosiyasi vəziyyətinə təsir etdi. Cənubi Qafqaz regionu Rusiya, ABŞ kimi dünya siyasətinin nəhəng dövlətlərinin, eləcə də İran, Türkiyə kimi regional dövlətlərin maraq dairəsinə daxil olaraq mühüm siyasi proseslərin cərəyan etdiyi məkana çevrildi. Burada müstəqil dövlətlərin formalaşması ilə yeni regional maraqlar sisteminin təşəkkülü Cənubi Qafqazda yeni münasibətlər sistemini formalaşmasını səciyyələndirən ən mühüm amilə çevrildi. Həmin kontekstdə Cənubi Qafqaza, həmçinin də Azərbaycan Respublikasına münasibətdə ABŞ-ın strateji əhəmiyyəti və rolu artdı və bu regionda həlledici dövlətə çevrilməyə başladı. 1997-ci ildə Xəzər regionunun ABŞ-ın milli maraqları sisteminə daxil edilməsi Azərbaycanın, və bütövlükdə Qafqazın Amerika üçün əhəmiyyətini xeyli artırdı. ABŞ-ın dünya siyasətinin aparıcı dövləti olması və beynəlxalq təhlükəsizliyin təmin edilməsindəki rolu, həmçinin, də iqtisadi, hərbi və başqa göstəricilərinə görə fövqəldövlət olması baxımından Azərbaycan üçün onunla qarşılıqlı münasibətlərin qurulması və etibarlı tərəfdaşına çevrilməsi məsələsi həmin dövr üçün çeviklik tələb edən siyasət idi. Eyni zamanda ABŞ Azərbaycan üçün iqtisadi, siyasi, hərbi təhlükəsizliyin qarantlarından biri olmaqla, onun beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmasında həlledici rol oynayırdı.

Azərbaycan Respublikası siyasi sabitliyə, iqtisadi inkişafa nail olmaq üçün Qarabağ münaqişəsinin ədalətli həllində ABŞ kimi qüdrətli dövlətin simasında etibarlı tərəfdaşa ehtiyac duyurdu.Ümummilli lider Heydər Əliyevin dediyi kimi: “Bunların hamısı Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsi və əlaqələrimizin inkişaf etməsi üçündür. Bunların içərisində ən əsas məsələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll

edilməsində Minsk qrupunun həmsədri kimi Amerika Birləşmiş Ştatlarının iştirakı barəsində olacaqdır. Bu məsələ bizim danışıqlarımızda mərkəzi yer tutur və tutacaqdır"[68,54].

Dövlət katibi C.Beykerin "Xəzərin iqtisadi, geoloji deyil, daha çox geosiyasi problem olduğunu" vurğulaması bu regionun ABŞ üçün əhəmiyyətinin göstəricisi idi [159,371]. Cənubi Qafqaz regionunun geosiyasi cəhətdən əlverişli məkanda yerləşməsi, onu dünyanın aparıcı dövlətlərindən biri olan ABŞ-ın milli maraqları kontekstində özünəməxsus amillərdən birinə çevirir. Bu mənada özünün enerji, təbii, iqtisadi digər potensialı ilə regionun əsas dövləti olan Azərbaycan Respublikası, sözsüz ki ABŞ-ın xarici siyasət xəttində əsas yerlərdən birini tutur. Hətta ABŞ-ın siyasi dairələri tərəfindən Azərbaycan belə qiymətləndirilirdi: "Məhdud ərazisinə və əhalisinin sayının az olmasına baxmayaraq Azərbaycan zəngin enerji ehtiyatları ilə geosiyasi planda vacib rol oynayır. O, Xəzər dənizi hövzəsi və Orta Asiyanın böyük enerji ehtiyatlarının saxlandığı qabın ağzındakı tıxacdır" [123,62]. Müstəqil, demokratik inkişaf yolu tutmuş Azərbaycan Xəzər dənizinin və Orta Asiyanın zəngin ehtiyatlarına çıxış yolunda Qərb üçün dəhliz rolunu oynaya bilərdi" [160,146]. Təbii ehtiyatlarından əlavə Azərbaycanın geosiyasi məkanı da ABŞ-ın diqqətini çəkir. Bu baxımdan Azərbaycanın ABŞ üçün əlverişli geosiyasi dövlət kimi də əhəmiyyəti artır. Bu cəhət də tədqiqat işinin aktuallığını şərtləndirən amillərdəndir.

Beləliklə, dissertasiyanın aktuallığını şərtləndirən ən əsas amil ondan ibarətdirki ki, XX əsrin 90-cı illərində dünyada yaranmış güclərin siyasəti kontekstində Azərbayan və ABŞ arasındakı mühüm siyasi və geostrateji münasibətlərin ilkin formatı elmi təhlilə cəlb edilsin, bunların fonunda baş vermiş hadisələrin mahiyyətinin milli maraqlarımıza təsir imkanlarını araşdırmaq mümkün olsun.

Digər tərəfdən XXI əsrin əvvəllərindən başlayaraq Azərbaycan-ABŞ əlaqələrinin möhkəmləndirilməsi xüsusi aktuallıq kəsb edərək Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətini təşkil edirdi. Bu mərhələdə iki dövlət arasındakı əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqla hərbi-

iqtisadi tərəfdaşlıq xüsusiyyətini də özündə birləşdirmişdir.

Məlum olduğu kimi, hazirda Azərbaycan antiterror fəaliyyətində yaxından iştirak edir və iqtisadi tərəf- müqabil kimi yeni enerji layihələrinin formalaşması və reallaşdırılmasında böyük önəm daşıyir. Prezident İlham Əliyevin dediyi kimi, "ABŞ-Azərbaycan münasibətlərinin artıq 25 illik tarixi var. Bu münasibətlər həmişə sıx, səmimi olmuşdur, indi isə starteji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatmışdır. Aramızda fəal siyasi dialoq mövcuddur" [197]. Qeyd olunanlara əsaslanaraq mövzunun aktuallığını aşağıdakı müddəalarla ifadə etmək olar:

- ABŞ dünyada güclü dövlət olaraq beynəlxalq münasibətlərdə mühüm rol oynayır və onunla münasibətlərin qurulması vacib məsələdir;

- Azərbaycanın iqtisadi, siyasi, hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından bu dövlətlə əlaqələrin qurulması və münasibətlərin inkişaf etdirilməsi mexanizmlərinin öyrənilməsi böyük önəm kəsb edir;

- Enerji layihələrinin reallaşdırılması və həyata keçirilməsində ABŞ-ın rolunun öyrənilməsi vacibdir;

- Qərbin enerji təhlükəsizliyinin təmin edilməsində öz layiqli yerini tutması baxımından Amerikanın siyasi dəstəyini tədqiq etmək;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin ədalətli həllində ABŞ və onun təsir imkanlarını öyrənmək və ümumiləşdirilmiş nəticələrə gəlmək;

- Ölkədə demokratik islahatların daha da dərinləşdirilməsi və güclü demokratik dövlətin formalaşdırılmasında ABŞ-ın demokratik təcrübəsinin əsas məqamını nəzərdən keçirmək;

- Beynəlxalq münasibətlər sistemində ABŞ-Azərbayan münasibətlərinin ümumi təhlilini vermək, mövcud nəticələrin əhəmiyyətini qeyd etmək.

**Problemin işlənmə dərəcəsi.** Tədqiqat mövzusunun müxtəlif aspektlərinə həsr olunmuş elmi əsərləri bir neçə qrupda təqdim etmək olar. İkitərəfli münasibətlərin dinamikasının öyrənilməsində Azərbaycan Respublikası Xarici işlər nazirliyinin nəşr etdirdiyi "Azərbaycanın Xarici Siyasəti. Sənədlər məcmuəsi" böyük əhəmiyyət daşıyır [56]. Burada Azərbaycan diplomatik nümayəndəliyinin

fəaliyyəti əks olunur ki, onlar vasitəsilə də Azərbaycanın xarici siyasi fəaliyyəti dərindən araşdırılmışdır.

Bir qrup mənbələrə Amerika və başqa Qərb ekspertlərinin tədqiqatlarını aid etmək olar ki, onların sırasına ABŞ-ın "ağıl mərkəzləri"nin əməkdaşlarının, görkəmli politoloqlarının əsərləri aid edilir. Bu mərkəzlərdən Con Hopkins Universitetində Mərkəzi Asiya və Qafqaz İnstitutu, Vaşinqtonda Xarici Siyasi Araşdırmalar İnstitutu, Kolumbiya Universitetində Harriman İnstitutu və onların apardığı araşdırmaları göstərmək olar [126]. Bu araşdırmalar və materiallar ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə apardığı siyasətin motivlərinin, məqsəd və mahiyyətinin üzə çıxarılmasında mühüm əhəmiyyətə malikdir. Həmçinin Mərkəzi Asiya və Qafqaz tədqiqatları İnstitutunun, Qafqaz Strateji Tədqiqi İnstitutunun apardığı tədqiqatlar dərindən araşdırılmış və onların nəşr etdirdiyi "Mərkəzi Asiya və Qafqaz", "Mərkəzi Avrasiya" jurnallarının materialları öyrənilmişdir [134,106].

İkinci  qrupa rus tədqiqatçılarının əsərləri aid edilir. Bu tədqiqatlar bir neçə istiqamətlərdə öyrənilmiş və sistemləşdirilmişdir:

- ABŞ-ın xarici siyasətinin ümumi təhlili;
- ABŞ-ın Qafqaz siyasətinin tədqiqi;
- ABŞ-ın Azərbaycan siyasəti.

ABŞ-ın xarici siyasətini ümumi təhlil edən K.Hacıyev, P.Çıqankov, A.B.Kopilov, A.Utkin və başqa tədqiqatçıların adlarını çəkmək olar [127,132, 147,148]. ABŞ-ın Qafqaz siyasətinə isə M.A.Suçkov, S.Markedonov, V.N.Panin, N.A.Dyakov, B.B.Deqoyev, və başqa tədqiqatçılar öz əsərlərini həsr etmişlər [129,130,131,137,139,140,142,143,144,145,208]. Bu tədqiqatların ümumi cəhəti ondan ibarətdir ki, onlar ABŞ-ın Qafqaz siyasətinə, Qafqaz regionu dövlətlərinin ABŞ-la yaxınlaşması fəaliyyətinə bir qədər tənqidi yanaşır və Rusiyanın Qafqaz regionundakı rolunun artırılması istiqamətindəki fəaliyyətinin aktivləşdirilməsini irəli sürürlər.

Nəzərə almaq lazımdır ki, ABŞ-ın Azərbaycan siyasəti həm rus, həm də baçqa xarici ədəbiyyatlarda ABŞ-ın Qafqaz siyasəti fonunda öyrənilir və onu ayrıca araşdırmırlar. Bu baxımdan ABŞ və Avropa müəlliflərinin əsərləri ABŞ-ın ümumi

Qafqaz siyasətinə aid edilə bilər. Amerika xarici siyasəti kontekstində Qafqaz siyasətinin araşdırılmasında C.Kornell, A.Kuley, B.Şaffer, C.Nikol, D.Filips kimi tədqiqatçıların adlarını çəkmək olar [155,176,178, 180, 181]. Bu tədqiqatçılar ABŞ-ın ümumi xarici siyasətini araşdıraraq burada Qafqaz siyasətinin də rolunu tədqiq etmişlər.

Azərbaycan, ümumilikdə Qafqaz siyasətinin tədqiqində Z.Bzejinskinin rolu mühümdür [123,124,125,202]. O, özünün "Böyük şahmat taxtası" əsərində, eləcə də nəşr etdirdiyi məqalələrində Azərbaycana böyük önəm vermişdir [123]. O, dünyada beş əsas geosiyasi əhəmiyyətli dövlətə Fransa, Rusiya, Çin, Almaniya və Hindistanı, bir neçə geosiyasi mərkəzə Ukrayna, Cənubi Koreya, Azərbaycan, Türkiyə və İranı aid edirdi [202]. Z.Bzejinski əsərlərində Azərbaycanı geosiyasi mərkəz hesab etməklə bərabər, onun zəngin enerji resurslarının Avropanın enerji təhlükəsizliyindəki rolunu əsaslandırmışdır. Ümumilikdə Azərbaycanı Z.Bzejinski həm geosiyasi, həm də geoiqtisadi dövlət hesab edərək onun müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsini vacib sayır, Xəzər dənizi və Orta Asiyaya Amerika kapitalının cəlb edilməsinin zəruriliyini qeyd edirdi [123]. Bu əsərlərin təhlili imkan vermişdir ki, hər iki ölkənin strateji əməkdaşlığından irəli gələn nəticələrə dair əsaslı elmi qənaətə gələk.

Azərbaycan neftinin nəqlinə, Qafqazın geosiyasi həyatında Azərbaycanın roluna dair yazan müəlliflərin əksəriyyəti Qarabağ münaqişəsinin həlli istiqamətində işlərin aparılmasını da vacib hesab etmişlər. Bu müəlliflərdən A.Kobeni və C.Klarussonu misal göstərmək olar [154, 162].

Baxılan problemin üçüncü qrup tədqiqatçıları sırasına Azərbaycan alimləri aid edilə bilər. Azərbaycan müəllifləri tərəfindən Azərbaycan-ABŞ münasibətləri tarixi, siyası, iqtisadi aspektlərdən araşdırılmışdır. Azərbaycan-ABŞ münasibətlərinin tarixi aspektlərinin araşdırılmasında Y.Mahmudov, N.Nəsibzadə, M.Qasımlı, İ.Musayev və dügərlərinin adlarını çəkmək olar. Azərbaycan-ABŞ münasibətlərinin siyasi aspektlərinin öyrənilməsi və onun politoloji qiymətləndirilməsi R. Mehdiyev, N. Məmmədov, H. Paşayev, Ə. Həsənov, Aynur Ə. Bəşirli, A. Bayramova və başqa görkəmli tədqiqatçılar tərəfindən aparılmışdır.

Akademik R.Mehdiyev özünün "Demokratiya yolunda: irs haqqında düşünərkən", "XXI əsrdə milli dövlətçilik" adlı bu və digər fundamental əsərlərində Azərbaycanın demokratiya yolunda tutduğu qətiyyətli mövqeyi, demokratik islahatları məzmunlu təhlil etmiş, dünya dövlətləri ilə, o cümlədən ABŞ-la münasibətləri hərtərəfli izah etmişdir [97; 98].

Akademik Y.Mahmudovun "Azərbaycan diplomatiyası tarixi" kitabı Azərbaycan dövlətçiliyi tarixində xarici siyasət təcrübəsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edərək, Avropa dövlətləri ilə münasibətdə tarixi reallıqları nəzərə almaq baxımından diqqəti cəlb edir [95].

Azərbaycan tədqiqatçısı prof. Ə. Həsənovun əsərlərində ABŞ-Azərbaycan münasibətlərinin siyasi dinamikasını izləmək mümkündür. Müəllifin ABŞ-Azərbaycan siyasi münasibətlərinin tədqiqinə həsr olunmuş monoqrafiyasında ABŞ-la münasibətlərin tarixi, iki dövlət arasındakı münasibətlərin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu, Azərbaycan xarici siyasətində ABŞ-ın yeri, müstəqilliyin ilk illərində iqtidarın buraxdığı səhvlər, erməni lobbisinin Azərbaycana qarşı pozucu fəaliyyəti öz əksini tapmışdır [82]. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində ABŞ-ın fəaliyyətinin qiymətləndirilməsi müəllifin "Azərbaycan-ABŞ anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997) " əsərində əks olunur [80]. Müəllifin "Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)" əsərində Azərbaycan-ABŞ münasibətlərinin mahiyyəti, eləcə də siyasi inkişaf xüsusiyyətləri öz əksini tapır [84]. Bu əsərin ən əlamətdar cəhəti isə budur ki, burada Avrova dövlətləri, eləcə də ABŞ-la münasibətlərə dair hüquqi-normativ sənədlər toplusu bir kompleks halında araşdırılır.

Azərbaycan alimi, müxbir üzv M.Qasımlının apardığı tədqiqat işləri tarixi və siyasi aspektləri əhatə edərək fundamental xarakter daşıyır. Onun əsərlərində Azərbaycanın beynəlxalq münasibətlər sistemində oynadığı rol, onun ABŞ-la, Avropayla, postsovet ölkələri və Şərq ölkələri ilə münasibətləri araşdırılır [89,90,91].

Tədqiqatçı-alim prof.Hafiz Paşayevin araşdırmaları isə daha çox diplomatik

nümayəndəliklərin ABŞ-dakı fəaliyyətinə, xarici siyasətdə əldə olunan nəticələrin təhlilinə yönəlmiş və Heydər Əliyevin xarici siyasi fəaliyyətində ABŞ-la olan əlaqələrin möhkəmləndirilməsinin üzə çıxarılması istiqamətindədir [109;110].

Digər tədqiqatçı-alim prof. Novruz Məmmədovun "Xarici siyasət: Reallıq və gələcəyə baxış" əsərində Azərbaycan-ABŞ münasibətlərinin dialektikası verilir. Burada Azərbaycanın xarici siyasətində ABŞ-ın rolu və önəmi qeyd olunur, həmçinin iki ölkə arasındakı qarşılıqlı münasibətlərin gələcək perspektivləri göstərilir [101].

Azərbaycan alimi prof. E.Nəsirov "Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)" əsərində ölkəmızın ABŞ-ın strateji maraqları dairəsinə daxil olduğunu sübüt edir, ticarət- iqtisadi və humanitar sahələrdə ikitərəfli əlaqələrin yaranması tarixini ətraflı araşdırır, qarşılıqlı münasibətlərin inkişaf perspektivlərini tədqiq edir [107]. Müəllifin digər əsərində isə antiterror əməliyyatlarında Azərbaycanın rolu araşdırılır[106]. Digər tədqiqatçı-alim Fizuli İsmayılovun "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ABŞ-ın qlobal siyasəti kontekstində" adlı monoqrafiyasında [86] ABŞ-ın Qafqaza və Azərbaycana olan münasibətinin ilkin və sonrakı mərhələlərindəki mövqeyinin və bu mövqedəki dəyişikliklərin mahiyyətinin real təhlilini vermişdir.

Azərbaycan tədqiqatçısı Aynur Ə.Bəşirli isə mətbuat səhifələrində, əsasən də ABŞ mediası müstəvisində Azərbaycan-ABŞ münasibətlərini araşdırmışdır. Əsərin ən mühüm və diqqəti cəlb edən xüsusiyyəti budur ki, burada ABŞ-la əlaqələrdə Azərbaycan Respublikasının təkcə iqtisadi deyil, geosiyasi tərəfdaş kimi rolu da araşdırılmışdır [59].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetini Azərbaycan Respublikasına yönəlmiş ABŞ xarici siyasətinin əsas istiqamətləri, prioritetləri və başlıca milli maraqları, obyektini isə Azərbaycan-ABŞ münasibətləri və onların siyasi aspektləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə yürütdüyü siyasəti, bu siyasətin əsas mexanizmlərini və Azərbaycanın regional və dünya siyasətindəki rolunu, xarici

siyasət kursunda ABŞ-ın yerini və rolunu araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- ABŞ-ın Cənubi Qafqaza, eləcə də Azərbaycan Respublikasına yönəlmiş xarici siyasət konsepsiyaları və doktrinalarını öyrənmək;
- ABŞ-ın Qafqaz regionunda geosiyasi maraqlarını müəyyənləşdirmək;
- XX ərin sonu XXI əsrin əvvəlində Azərbaycan Respublikasına münasibətdə Amerika siyasətinin formalaşması xüsusiyyətlərini üzə çıxartmaq;
- Müasir dövrdə Azərbaycan-ABŞ münasibətlərinin siyasi-diplomatik istiqamətlərini müəyyənləşdirmək;
- ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə iqtisadi və hərbi texniki siyasətini öyrənmək;
- ABŞ xarici siyasətində Azərbaycan Respublikasının yerini və rolunu tədqiq etmək;
- Azərbaycan Respublikası ilə ABŞ arasında münasibətlərin perspektivlərini müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri bazasını problemlə bağlı mövcud fundamental tədqiqat işlərində öz əksini tapmış nəzəri müddəalar, Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərində irəli sürülmüş konseptual ideya və fikirlər təşkil edir. Dissertasiyada məntiqi tarixilik, müqayisəli təhlil metodlarından istifadə edilmiş, eyni zamanda mövzu araşdırılarkən həm nəzəri, həm də emiprik idrak metodlarına istinad olunmuşdur. Siyasi proseslərin məzmununun tədqiqi komparativizm metodu, məntiqi-dialektik təhlil, sistemli yanaşma prinsipləri əsasında aparılmışdır.

**Tədqiqatın mənbəşünaslıq bazasını** Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq, məruzə və çıxışlarına dair müxtəlif dövrlərdə çap olunmuş çoxcildli nəşrlər, rəsmi materiallar, eləcə də bu problemlə bağlı araşdırmalar aparan tədqiqatçıların əsərləri təşkil edir. Həmin materiallar Azərbaycan-ABŞ münasibətlərinin təşəkkülü, formalaşması və inkişafını dərindən öyrənməyə imkan yaratmış və həmçinin iki dövlət arasındakı

münasibətləri obyektiv qiymətləndirməyi şərtləndirmişdir.

Tədqiqatda Ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycan-ABŞ münasibətlərinin dinamik inkişafına istiqamətlənən , ABŞ-a rəsmi və işgüzar səfərlərini araşdırmaq sayəsində Azərbaycan və ABŞ- ın xarici siyasət sahəsində münasibətlərinin xarakteristikası, başlıca mahiyyəti üzə çıxarılmışdır.

Eləcədə Prezident İlham Əliyevin Azərbaycan-ABŞ münasibətlərinə dair səmərəli fəaliyyəti, xüsusi ilə onun 2003-cü ildən başlayaraq apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan-ABŞ münasibətlərindəki yaxınlaşma və əməkdaşlıq münasibətləri, onun ABŞ-a 2006-cı ildəki rəsmi səfəri və digər işgüzar görüşləri, həmçinin onun Davos səfəri və verdiyi bəyanat, etdiyi çıxışlar əhatəli təhlil olunub, araşdırılmışdır.

Dissertasiyada qarşıya qoyulan məqsədin əhatəli öyrənilməsi üçün zəngin mənbələrdən istifadə edilmişdir. Bunlara Azərbaycan, rus və ingilis mənbələrinə aid çoxsaylı tədqiqat işləri  daxildir. Onlar ətraflı araşdırılmış, geniş təhlil edilmiş, ümumiləşdirilmiş və  sistemləşdirilərək müqayisəli və tənqidi yanaşma metodu ilə elmi dövriyyəyə daxil edilmişdir.

Tədqiqat zamanı istifadə olunan materiallara  doktrinal xarakter daşıyan ABŞ-ın rəsmi sənədləri, ABŞ-ın Milli Təhlükəsizlik strategiyaları, regional strategiyalar, insan hüquq və azadlıqları haqqında ABŞ dövlət departamentinin hesabatları, Milli Kəşfiyyat strategiyaları və kəşfiyyat qiymətləndirmələri aiddir. Bura həmçinin xüsusi əhəmiyyətə malik olduğu üçün ABŞ-ın yüksək vəzifəli şəxslərinin - prezidentin, dövlət katibinin, hərbi dairələrinin Azərbaycana və ümumilikdə Cənubi Qafqaza dair çıxışlarının araşdırılması da daxildir.

Bununla yanaşı, dissertasiya işində rəsmi veb-saytlardakı materiallardan, dövlətimizin ABŞ-la əməkdaşlığını əks etdirən rəsmi sənədlərdən, dövlət və hökumət başçılarının KİV-də verdiyi müsahibələr, çıxışlar və bəyanatlardan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə onun predmetindən, məqsəd və vəzifələrindən irəli gəlir. Dissertasiya işində sistemli şəkildə Azərbaycan Respublikasının ABŞ-la münasibətlərinin siyasi aspektdə təhlilinə cəhd edilir,

həmin münasibətlərin siyasi təhlilinin spesifikliyi politoloji müstəvidə tədqiq olunur və bu əsasda Azərbaycan-ABŞ münasibətlərinin inkişafının və əlaqələrinin genişləndirilməsinin başlica məqam və istiqamətləri araşdırılır və bunlarla bağlı konkret təklif və tövsiyələr irəli sürülür. Problemin hərtərəfli və məqsədyönlü tədqiqi ilə müəyyən olunan elmi yenilik aşağıdakı müddəalarda öz əksini tapır:

- Azərbaycan Respublikası ilə ABŞ arasındakı münasibətlərin siyasi aspekti kompleks və sistemli şəkildə təhlil edilmiş, mühüm cəhətlər göstərilmişdir;
- ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində Azərbaycan Respublikasının yeri və əhəmiyyəti müəyyənləşdirilmiş, əsas strateji hədəflər və istiqamətlər ümumiləşdirilərək işıqlandırılmışdır;
- Azərbaycan-ABŞ münasibətlərinin müasir siyasi dinamikası qeyd olunmuş, həmin dövlətlərin strategiyasının əsas istiqamətləri elmi cəhətdən şərh edilmiş və işin nəticə və tövsiyələrində bu münasibətlərin təcrübəsi ümumiləşdirilmişdir;
- Azərbaycan Rspublikasının milli maraqları çərçivəsində ABŞ-la münasibətlərin doktrinal və konseptual əsasları vurğulanmış və mühüm məsələlər qeyd olunmuşdur;
- XXI əsrdə Azərbaycan Respublikası ilə ABŞ arasında münasibətlərin əsas gedişatı şərh edilmiş, mühüm daxili və xarici siyasi amillər xarakterizə olunmuş, inkişafın əsas perespektiv istiqamətləri göstərilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti:** Dissertasiyanın materialları və nəticələrindən siyasi elmin müvafiq fənlərinin tədrisində, yeni dərsliklərin, dərs vəsaitlərinin, metodik vəsaitlərin yazılmasında, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində, beynəlxalq münasibətlər fakültələrində və mütəxəssislərin elmi-praktik fəaliyyətlərində, habelə xarici siyasət, geosiyasət, dünya siyasəti problemlərinin öyrənilməsi və bu sahədə araşdırmalar aparan tədqiqatçılar tərəfindən mənbə kimi istifadə oluna bilər. Dissertasiyanın əsas müddəaları və nəticələrindən ABŞ-ın Cənubi Qafqaz, eləcə də Azərbaycan Respublikasına münasibətdə yürütdüyü xarici siyasətinin proqnozlaşdırılmasında istifadə oluna bilər ki, bu da Azərbaycan Respublikasının xarici siyasətinin

tədqiqində praktik əhəmiyyət kəsb edir.

**İşin aprobasiyası.** Dissertasiya Xəzər Universitetinin "Siyasi elm və beynəlxalq münasibətlər" departamentində hazırlanmış, müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqatın əsas məzmunu dissertantın ölkədə və xaricdə cap etdirdiyi məqalə və tezislərdə, beynəlxalq və respublika əhəmiyyətli konfranslarda, dəyirmi masa və elmi seminarlarda etdiyi çıxış və məruzələrdə öz əksini tapmışdır. Dissertasiya bu istiqamətdə yazılan tədqiqat işləri üçün perspektivli zəmin sayıla bilər.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL
# AZƏRBAYCAN - ABŞ MÜNASİBƏTLƏRİNİN KONSEPTUAL ƏSASLARI

## 1.1. ABŞ-ın Cənubi Qafqaza və Azərbaycana istiqamətlənmiş xarici siyasət doktrinaları və konsepsiyaları: mahiyyəti və əsas cəhətləri

ABŞ- ın xarici siyasət kursunu əvvəlcədən müəyyən olunmuş konsepsiya və doktrinalar müəyyən edir. Bu konsepsiyaların əsası "Monro doktrinası" ilə qoyulmuş və müasir dövrümüzə qədər davam edir. Belə konsepsiyalar uzun müddətli zaman kəsiyi üçün nəzərdə tutularaq ABŞ-ın xarici siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirir və qarşıya qoyulan konkret məqsədlərin reallaşdırılması yollarını əks elətdirir. Bu konsepsiyalar ABŞ-ın xarici siyasətinin fundamental əsaslarını təşkil edir və növbə ilə hakimiyyətə gələn hakim partiyaların fəaliyyətində həyata keçirilir. XX əsrin sonlarında Sovetlər Birliyinin dağılması ilə əlaqədar dünyada yeni güclər nisbəti formalaşdı və yeni tipli beynəlxalq münasibətlər sistemi yarandı. ABŞ-da da bu proseslərə uyğun olaraq yeni konsepsiyalar təzahür etdi. ABŞ fövqəldövlət olaraq, bütün dünyanın maraqlarının müdafiəçisi qismində beynəlxalq münasibətlərdə iştirak edir və onun milli təhlükəsizlik strategiyasının əsas məqsədi isə milli maraqların qorunmasından ibarətdir. Buna görə də, ABŞ-ın milli maraqları üç kateqoriyaya bölünür:

1. Həyati əhəmiyyət kəsb edən maraqlar. Buraya öz ərazilərinin və müttəfiqlərinin ərazilərinin fiziki qorunması, iqtisadi inkişafa nail olmaq və s. daxildir;
2. Əhəmiyyətli maraqlar. Bu maraqlar ətraf mühitin qorunmasını, qaçqın problemlərinin həllini, digər ölkələrdə antidemokratik hərəkatların qarşısının alınmasını, iqtisadi öhdəliklərin yerinə yetirilməsini və s. özündə əks etdirir;
3. İkinci dərəcəli maraqlar. Buraya demokratik ideyaların yayılması, insan hüquqlarının müdafiəsi probleminin ön plana çəkilməsi və digər problemlər aiddir.

ABŞ-ın milli maraqları qlobal xarakterə malik olması ilə fərqlənir. Bu maraqlar bir daha sübut edir ki, ABŞ-ın xarici siyasətinin miqyası çox genişdir və bir sıra istiqamətləri özündə ehtiva edir. SSRİ-nin süqutu isə bu maraqların reallaşdırılmasını daha da asanlaşdırdı və bütün sahələrdə ABŞ-ın təsirinin artmasına şərait yaratdı. XX əsrin 90-cı illərində ABŞ-ın xarici siyasət

nəzəriyyəçilərindən F.C.Terner "hərəkətli sərhədlər" nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyənin də əsas mahiyyətini mövcud sərhədlərin aradan qaldırıması, ABŞ qarşısında bütün dünyanın taleyüklü məsələlərinin həll edilməsi məsuliyyəti təşkil edirdi [131,59]. Həmin fikir sonralar ABŞ prezidentləri C.Buş Herbert Uoker (1989-1993), C.Buş Uoker (1993-2001), B.Klinton (2001-2009) administrasiyası tərəfindən hazırlanan xarici siyasət konsepsiyalarında əsas yerləri tutdu. Belə ki, SSRİ-nin dağılması Corc Buş hökumətinin dövrünə təsadüf etdi. Bu mühüm beynəlxalq hadisə "soyuq müharibə"də ideoloji qələbə kimi qəbul edilərək, ABŞ demokratik dəyərlərinin üstünlüyünün təsdiqi kimi ifadə olundu. Beləliklə, "demokratiyanın yayılması" konsepsiyası ABŞ xarici siyasətinin ideoloji əsasını təşkil etməklə, XX əsrin 90-cı illərindən geniş yayılmağa başlamışdır. Bu dövrdə yeni terminlər - "liberal milli təhlükəsizlik", "liberal böyük strategiya", "milli təhlükəsizliyin Amerika mədəniyyəti" terminləri meydana gəldi. Beynəlxalq münasibətlər üzrə ABŞ tədqiqatçılarının əksəriyyəti etiraf edirlər ki, "demokratiyanın yayılması" ABŞ-ın xarici siyasətinin yeganə məqsədi idi. Vaşinqton müstəsna olaraq liberal modelləri deyil, universal etnosentrist dəyərləri ixrac etməyə cəhd etdi. Aydındır ki, ABŞ xarici siyasətinin əsas motivi əxlaqi-mənəvi cəhətlər deyil, daha çox iqtisadi imperativlərdir. Neoliberal iqtisadi qloballaşmanı təhlükəyə məruz qoymadan amerikalılar inkişaf etmiş ölkələrdə "aşağı intensivli demokratiya" təbliğ edir, yeni ictimai təsisatlar formalaşdırmağa səy göstərirlər. ABŞ demokratik dəyişikliklər mexanizmindən istifadə etməklə yeni güc amili yaratdı. ABŞ-ın rəsmi mövqeyinə görə, dünyanı üç ideya - sülh, demokratiya və sərbəst bazar ideyaları idarə edir. Corc Buşun konqresmenlərə müraciətində ABŞ tərəfindən yeni dünya düzümünün yaranması fikri irəli sürülmüşdü. Bu müraciətdə elə bir dünya düzümü nəzərdə tutulurdu ki, terror təhlükəsi olmadan dünyada həqiqət və sülhün bərqərar olmasına nail olunmalı idi. C.Buş Herbert Uoker tərəfindən irəli sürülən doktrinada keçmiş SSRİ məkanındakı dövlətlərdə ABŞ-ın rolunun artırılması məsələsi ən mühüm istiqamət kimi göstərilirdi. "Demokratiyanın yayılması" strategiyası bu məkanda ABŞ-ın təsirinin genişlənməsi və mövqeyinin möhkəmlənməsinə xidmət edirdi. Onun aydın

nümunəsi kimi dövlət katibi C.Beyker tərəfindən ABŞ xarici siyasət xəttinin digər prioritet istiqaməti olan regional münaqişələrdə ABŞ-ın rolunun artırılması fikri bu regiona təsiri daha da genişləndirdi. C.Beykerin yanaşmasına görə ABŞ regional münaqişələrdə bazar iqtisadiyyatı və demokratiyanın inkişafı naminə iştirak etməli və təhlükəsiz hərbi-siyasi şərait formalaşmasına cavabdeh olmalıdır[153,39]. C.Buş hökuməti bu tipli münaqişələrin həllində azad və düzgün çoxpartiyalı seçkiləri sülhə nail olmağın başlıca vasitəsi hesab edirdi.

Klinton administrasiyası "yeni dünya düzümü" konsepsiyasına bir sıra dəyişikliklər etsə də, keçmiş SSRİ məkanına yönəlmiş istiqaməti yenə də qüvvədə saxladı. Məhz B.Klinton administrasiyasının hakimiyyəti dövründə ABŞ-ın Qafqaz siyasəti çox fəallaşdı və bu yönümdə konkret addımlar atıldı. Prezident Klinton tərəfindən irəli sürülmüş "strateji genişlənmə" siyasətinin nəticəsi olaraq Qafqaz regionunu ABŞ-ın qlobal siyasətinin tərkib hissələrindən birinə çevirdi. Həmin siyasət özündə NATO-nun genişləndirilməsi çərçivəsində Şərqi Avropa və keçmiş SSRİ məkanının Amerikanın təsir dairəsinə salınması ilə Rusiya və Çinin bu regiondakı təsir gücünü azaltmağı ehtiva edirdi [172,34]. Bu, mahiyyət etibarı ilə ABŞ-ın NATO vasitəsilə genişlənməsi prinsipinin irəli sürülməsi sayılır. Həmin prinsiplə yanaşı regionda iqtisadi təsirin artırılması əsas strateji məqsədlərdən biri idi. Bu addımlar nəticədə Rusiya və İranın regiondakı təsirini azaltmağa və yeni iqtisadi sistemin formalaşmasına təkan verməli idi. İqtisadi əlaqələrin və əməkdaşlığın yaranması ilə yanaşı regionda təhlükəsizliyin qorunması, sabitlik və demokratikləşmə məsələləri ABŞ-ın xarici siyasətinin başlıca prinsiplərinə çevrilirdi. Məhz Klinton administrasiyası dövründə Azərbaycan-ABŞ əlaqələri daha da genişlənmiş və yeni istiqamətlərdə inkişaf etmişdir.

1990-cı illərin doktrinalarında sülhsevər əməliyyatlarla yanaşı, digər dövlətlərin genişlənməsini ləngitmək və saxlamaq, lazım gələrsə müharibələrə yol vermək amilləri, eləcə də taktiki vasitələrin dəyişdirilməsi şərtilə öz keçmiş strateji maraqlarını qorumaq məsələləri də ifadə olunmuşdur. ABŞ politoloqu A.Koenin fikrincə, "ABŞ-ın Cənubi Qafqazda mühüm maraqları vardır. Bu maraqlar İranı,

enerji sahəsini, Əfqanıstana tranziti, bazar və demokratiyanın inkişafını əhatə edir. Bu maraqları müdafiə etmək lazımdır" [210].

Bir sıra tədqiqatçıların - Suçkovun, Malaxovanın və başqalarının nəzərincə ABŞ-ın Qafqaz siyasəti 1990-cı illərin əvvəllərində yalnız hazırlıq mərhələsi kimi, Azərbaycan alimlərindən Musa Qasımlı, Aynur Bəşirlinin fikrincə isə tanışlıq dövrü kimi səciyyələnir. ABŞ-ın Qafqaz siyasətinin fəal mərhələsi isə 2001-ci il 11 sentyabr hadisələrindən sonrakı dönəm sayılır. B. Klintonun hakimiyyətə gəlməsi ABŞ-ın Qafqaz siyasətində yeni bir mərhələ oldu. Klinton administrasiyasının bu istiqamətdə apardığı siyasətin əsas məqsədlərindən biri regionda Rusiyanın mövqeyinin zəiflədilməsi amilindən ibarət olmuşdur. Bu amil qabarıq şəkildə özünü göstərirdi. Əgər bu xarici siyasət kursunun bir qütbünü genişlənmə təşkil edirdisə, digərini "cəlbetmə" (engagament) siyasəti təşkil edirdi. 1993-cü ildə Qafqaz və Mərkəzi Asiya regionundakı münaqişələrin həlli prosesinə fəal təsir etmək üçün dövlət departamentində xüsusi idarənin yaradılması həmin siyasətin mühüm əhəmiyyət daşıdığını sübut edirdi. Bu isə faktiki olaraq MDB ölkələrindəki münaqişələrin beynəlxalq müstəvidə həlli məsələsini aktuallaşdırdı. Həmin proseslərə bariz nümunə ATƏT-in Minsk qrupunda ABŞ-ın həmsədrlərindən biri olmasını göstərmək olar. XX əsrin 90-cı illərində ABŞ-ın Qafqaz siyasətinində neft amili digər istiqamət kimi özünü göstərməyə başladı. Burada 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsinin" imzalanması, neft kəmərlərinin çəkilməsi və istiqamətlərinin müəyyənləşməsi ilə ABŞ-ın iqtisadi və siyasi maraqlarının qorunması istiqamətində müəyyən addımlar atıldı. Bu proseslərdən Rusiyanın kənarda qalması, ABŞ-ın regionda rolunun artmasını qabarıq şəkildə göstərir və onun xarici siyasətinin mühüm komponenti kimi özünü bürüzə verirdi. Azərbaycanin neft siyasətində ABŞ-ın rolunun artması, regionda sabitliyin reallaşmasını da aktuallaşdırırdı. Belə ki, öz iqtisadi və geosiyasi maraqları baxımından regionda sərmayəsi olan ABŞ Qarabağ məsələsinin həllinə daha ciddi yanaşır, eyni zamanda Cənubi Qafqazda Rusiyanın təsirini azaltmaq üçün Gürcüstanın sabit dövlət kimi qorunub saxlanmasına nail olmaq istəyirdi. 1990-cı illərin ortalarında GÜAM-ın yaradılması ilə Gürcüstan, Azərbaycan, Ukrayna və

Moldava ABŞ-la daha da yaxınlaşmağa başladılar. Bu, özlüyündə Rusiyanın regionda rolunun azaldılması üçün atılmış addım kimi qiymətləndirilməlidir ki, nəticə etibarilə bu da ABŞ-ın maraqlarına uyğun idi. GÜAM ilk dövrlərdə neft kəmərlərinin infrastrukturu və daşınması məqsədilə yaradılmışdısa, sonralar bu qürumda hərbi əməkdaşlıq məsələləri də ön plana keçdi. Hərbi əməkdaşlıq çərçivəsində sülhməramlı kontingentin yaradılması, separatizmə qarşı mübarizə sahəsində əməkdaşlıq məsələlərinin başlıca yer tutması ABŞ-ın nəticə etibarilə Qafqaz regionundakı maraqlarını əks etdirməklə yanaşı, İran və Rusiya təsirinin azaldılmasına da xidmət etməli idi.

1997-ci ildə ABŞ hökumətinin rəsmi olaraq Rusiyanın cənubunu və eləcə də Xəzər dənizini öz milli maraqlar zonasına daxil etməsi onun regiondakı rolunun daha da artmasını reallaşdırmalı idi. 1999-cu ildə isə MDB-nin cənub hissəsinin ABŞ-ın silahlı qüvvələrinin mərkəzi qruplaşmasının "məsuliyyət zonası" elan etməsi [CENTCOM] ABŞ-ın hərbi qüvvələri qarşısında hər hansı sərhədin olmamasının göstəricisi idi [301]. 2000-ci ildə Rusiyada V.V.Putinin hakimiyyətə gəlməsi regionda bu dövlətin də maraqlarının artmasına səbəb oldu. V.V.Putin administrasiyasının MDB ölkələrini Rusiyanın xarici siyasətinin əsas prioritet istiqaməti elan etməsi və Qafqaz regionunda bu yöndə məqsədyönlü siyasətin aparılması Qafqaz dövlətlərinin də xarici siyasətində müəyyən dəyişikliklərə səbəb oldu. Nəticədə antirus və Amerikapərəst siyasət region dövlətlərinin siyasətində daha az nəzərə çarpmağa başladı. Bu zaman Azərbaycan Respublikası daha çox Rusiya və ABŞ arasında balanslaşmış siyasətin aparılması istiqamətinə, Ermənistan ruspərəst, Gürcüstan isə ABŞ yönümlü siyasətə üstünlük verdi. Gürcüstanın belə mövqeyi ABŞ hökuməti tərəfindən birbaşa dəstəkləndi. Amerika senatoru S.Braunbek və politoloq A.Koen elan etdilər ki, "Gürcüstan NATO və İpək yolu arasında sərhəddir" [134,201-202]. Bir sıra müəlliflərin fikrincə ABŞ prezidenti C.Buş Klintondan fərqli olaraq region ölkələrinin tələb və potensialını nəzərə alaraq,onlara uyğun siyasət yürütməkdə maraqlı olmuşdur. Bunu Gürcüstan siyasəti nümunəsində aydın görmək mümkündür. 2002-ci ildə Gürcüstan NATO-ya daxil olmasını bəyan etməklə 2003-cü il "Qızılgül inqilabı"nda ABŞ-dan böyük dəstək

aldı. Beləliklə, ABŞ Gürcüstanı daha çox amerikameyilli dövlət kimi qəbul etdi. ABŞ-ın güclü dəstəyi 2009-cu ilin yanvar ayında imzalanan ABŞ-Gürcüstan Strateji Tərəfdaşlıq Xartiyasında aydın nəzərə çarpır. Burada, hər iki ölkə güclü, müstəqil və demokratik Gürcüstanın qorunub saxlanılmasında maraqlı olduqlarını bəyan etdilər. ABŞ tərəfindən 1998-ci ildə Estoniya, Latviya və Litva, 2008-ci ildə isə Ukrayna ilə də bu cür xartiya imzalanmışdı.

ABŞ və Gürcüstan arasında imzalanmış xartiya üç əsas məqamı ifadə edirdi. Bunlardan birincisi təhlükəsizlik məsələləri ilə əlaqəli idi. Bu bölmədə tərəflər bildirirdilər ki, "ABŞ və Gürcüstan sülh və sabitliyi müdafiə etmək və inkişaf etdirmək üçün (qlobal sülh və sabitliyə qarşı təhlükələri aradan qaldırmaq) müdafiə və təhlükəsizliyə dair cari əməkdaşlıq proqramlarının əhatə dairəsini genişləndirmək niyyətindədirlər" [248]. Tərəflər bu addımın Gürcüstanın NATO-ya müraciətinə kömək edəcəyinə inanırdılar.

İqtisadiyyat haqqında ikinci bölmədə isə Gürcüstan və ABŞ "Genişləndirilmiş ikitərəfli investisiya" sazişini davam etdirmək, "Gürcüstanın Ümumi İmtiyazlar Sisteminə daxil olmasını təmin etmək və Azad Ticarət Razılaşmasının mümkünlüyünü araşdırmaq niyyətində" [248] olduqlarını bildirdilər. Burada daha çox enerji istehsalı, enerjinin effektivliyinin yüksəldilməsi və Gürcüstandan Avropaya enerji tranzitinin fiziki mühafizəsini özündə birləşdirən müəyyən enerji təhlükəsizliyi hədəfləri də vardı.

Demokratikləşmə məqamı ilə əlaqədar isə tərəflər "müstəqil media, fikir, ifadə azadlığı və obyektiv xəbərlər və məlumatları əldə etmək imkanlarını möhkəmləndirmək sahəsində əməkdaşlığı öhdələrinə götürdülər" [248]. Bundan başqa, onlar hüquq normalarının daha da gücləndirilməsini istədiklərinə, deyilənləri əldə etmək üçün, ABŞ Gürcüstan hakimlərinin, hüquqşünaslarının və qanunvericilik sektorunun digər işçilərinin təlimini, həyata keçirməyə dair vəd verirdi.

Lakin, xartiya imzalandıqdan sonra təhlükəsizlik sahəsində kifayət qədər zəmanət almaması ilə bağlı Gürcüstan tərəfindən narahatlıqlar mövcud idi. Bəzi müşahidəçilər qeyd edirdilər ki, ABŞ-ın məqsədi onun Rusiyanın regionda

dominantlığının artmasına razılıq verdiyini göstərən ehtimallara qarşı mübarizə aparmaq idi [182,19].

Məhz bu dövrdən etibarən Azərbaycan-ABŞ münasibətlərində yaxınlaşma daha çox nəzərə çarpmağa başladı. Bill Klinton administrasiyası Azərbaycana daha böyük önəm verərək ikitərəfli münasibətlərin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atdı. "Əsrin müqaviləsi" nin imzalanması, Azərbaycan Respublikasının Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri, Qarabağ münaqişəsinin həllində ABŞ-ın rolunun artması, NATO-nun "Sülh naminə tərəfdaşlıq" kursuna Azərbaycanın qoşulması və s. digər bu kimi xarici siyasət fəaliyyəti məhz Bill Klintonun hakimiyyəti dövründə baş vermişdir.

Prezident B.Klinton 1993-cü il fevralın 26-da Amerika universitetlərinin birində çıxış edərək bildirdi ki, onun xarici siyasətində qloballaşdırma və kiberməkandan ibarət olacaq iki məsələ başlıca yer tutacaq. Xarici siyasətdə prioritet məsələ kimi ticarətin rolunun artırılması, "açıq bazarların" təşkili və bununla bağlı ABŞ biznesinin dünya ticarətində rolunun artırılması nəzərdə tutulurdu. ABŞ qlobal iqtisadiyyatda öz üstünlüyünü saxlamaq şərtilə həm də üçüncü dünya ölkələrinin iqtisadiyyatına kömək etməyi, Rusiya və digər ölkələrdə demokratiyanın dərinləşməsinə yardım göstərməyi planlaşdırırdı [179,41]. Bu fikirlər, həm də Qafqaz regionuna da şamil edilməlidir. Çünki bu regionun enerji resursları və strateji mövqeyi ABŞ-ın milli maraqları çərçivəsində idi. MDB-nin Xəzər regionu ilə məşğul olmaq üçün Dövlət departamenti, Milli Təlhükəsizlik Şurası, Energetika Nazirliyi, Ticarət Nazirliyinin nümayəndələrinin iştirakı ilə 1994-cü ildə yaradılan hökumətdaxili işçi qrupu bu regiona olan marağın bariz nümunəsi idi.

ABŞ-ın Cənubi Qafqaz siyasətinin baçlıca istiqamətlərindən biri məhz bu regionda Rusiyanın və İranın rolunu azaltmaq, Xəzər siyasəti kontekstində Mərkəzi Asiya regionuna da nəzarət etməklə Çinin bu bölgəyə təsirini minimuma endirmək idi. Təsadüfü deyil ki, ABŞ-ın Xəzərdə möhkəmlənməsini bəzi strateqlər bu ölkənin xarici siyasət kursunun ən mühüm istiqamətlərindən olduğunu düşünürdülər. Məsələn, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı Ş.Xeslin hesab edirdi ki, ABŞ Rusiya və ya İranın Xəzərin enerji resursları üzərində hökmranlıq etsinə yol verə

bilməz. Onun fikrincə, Xəzər regionu nəinki Qərbin enerji təhlükəsizliyinin vacib komponentinə çevrilir, həm də Avrasiyada dəyişən qüvvələr nisbətinin dayağına çevrilir [153,36].

ABŞ-ın Qafqaza münasibətdə xarici siyasətinin fəal mərhələsini 2001-ci ildən sonra daha aydın müşahidə etmək olur. Bu, ilk növbədə 2001-ci ilin 11 sentyabrında baş verən hadisələr və 2002-ci ildə ABŞ-ın yeni Milli Təhlükəsizlik strategiyasının qəbul olunmacı ilə əlaqədar idi. Məhz, bu strategiya ilə ABŞ-ın xarici siyasətində başlıca amillər müəyyənləşdi. Burada əsas məsələ öz mövqelərini qorumaqla onları əsaslı müdafiə taktikası nəzərdə tutulurdu. Bu sənəddə ən vacib məsələlərdən biri kimi ABŞ silahlı qüvvələrinə üstünlük verilərməsi, onların yeni rolu, demokratiyanın yayılmasında və inkişaf etdirilməsində onlardan istifadə edilməsi məsələsi irəli sürüldü. Burada yazılırdı: "...hərbi funksional imkanlardan istifadə edərək rəqib dövlətlərin fəaliyyətini minimallaşdırmaqla dünyada yeganə superdövlətin mövqeyini saxlamaq və qorumaq vacib məsələlərdəndir" [244]. Dost və müttəfiq dövlətlərin təhlükəsizliyinin təmin edilməsi, onların maraqlarının qorunması, zərurət yaranarsa onlara hərbi yardımın göstərilməsi də bu strategiyanın əsas komponentlərindən biri idi [244]. Bu strategiyanın davamını 41-ci prezident C.Buşun hakimiyyətdə olduğu dövrdə qəbul olunan Milli Hərbi (2004) və Milli Müdafiə strategiyaları tamamlayaraq ABŞ hərbi siyasətinin fəaliyyət metodologiyasını müəyyənləşdirdi. Milli Müdafiə strategiyasında "... əhəmiyyətli regionlara və kommunikasiya xətlərinə çıxışın əldə edilməsi, ittifaq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi ilə təhlükəsizlik üçün zəruri şəraitin yaradılması" kimi məsələlərin qoyuluşu Qafqaz siyasətinin başlıca istiqamətlərindən idi. ABŞ bu konsepsiyanın qəbulu ilə Qafqaz regionuna yalnız enerji resurslarının mənbəyi kimi deyil, eləcə də hərbi qüvvələrinin start meydanı kimi də baxmağa başladı. Çünki bu ərazidən ABŞ, Əfqanıstan və İraqa rahat çıxış imkanı əldə edirdi. Cənubi Qafqazın hər üç ölkəsi ABŞ-ın antiterror fəaliyyətini dəstəkləyərək, NATO çərçivəsində aparılan əməliyyatlarda fəal iştirak etməyə başladılar. Azərbaycan, Gürcüstan və Ermənistan hələ 1994-cü ildən "NATO-nun sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuşdular. Bu proqram da müəyyən regionlarda NATO-nun genişləndirilməsi

xəttini əks etdirirdi.

Musa Qasımlı 2001-ci ildən sonrakı dönəmdə Azərbaycan-ABŞ münasibətlərinin yeni keyfiyyət kəsb etdiyini qeyd edir [89,58]. Bu, mahiyyətcə tərəfdaşdan əməkdaşa çevrilmək mərhələsi kimi qiymətləndirilir. Akademik Ramiz Mehdiyevin fikrincə, bu dövrdə Azərbaycan ABŞ-la yaxınlaşma imkanları əldə etmiş və onlardan istifadə etməyi bacarmışdır [98,63]. 2002-ci ildən başlayaraq Azərbaycan-ABŞ münasibətlərində hərbi-texniki və təhlükəsizlik məsələləri ön plana çəkildi. Enerji təhlükəsizliyinin təmin olunması ilə yanaşı, humanitar yardım və ticarət dövriyyəsinin artırılması sahəsində də xeyli irəliləyişlər nəzərə çarpdı. 23 avqust 2002-ci ildə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə ABŞ Maliyyə Departamenti arasında texniki yardımın göstərilməsi haqqında memarandum imzalandı [40]. Antiterror əməliyyatları çərçivəsində Azərbaycan silahlı qüvvələrinin dörd taqımı Türkiyə Cümhuriyyətinin silahlı qüvvələri ilə birlikdə Əfqanıstanda iştirak etdi.

2003-cü ildə İraq hadisələrinin kəskinləşməsi və bu regiondakı müharibə ABŞ-Azərbaycan münasibətlərini daha da möhkəmləndirdi. Prezident Corc Buş 2003-cü ilin martın 17-də Azərbaycan Prezidentinə məktub göndərərək əməkdaşlıq üçün təşəkkür etdi, Səddam Hüseynə qarşı çətinliklərlə üzləşən zaman ABŞ-ın Azərbaycanın yardımına ehtiyacı olacağını bildirdi [35]. İraq ərazisində aparılan hərbi əməliyyatlarda da Azərbaycanın sülhməramlı qüvvələri fəal iştirak etdi. Qarşılqlı münasibətlərdəki yaxınlaşma sonrakı illərdə də davam edərək daha da gücləndi. ABŞ-da yeni təhlükəsizlik konsepsiyasının qəbulu ölkələrimiz arasında münasibətlərin inkişafına əhəmiyyətli təsir göstərdi. 2006-cı ildə qəbul edilən yeni Milli Təhlükəsizlik Strategiyası ABŞ üçün mürəkkəb bir dövrə təsadüf edir. Məhz bu dövrdə Əfqanıstan və İraqda hərbi əməliyyatlar davam edir və Tehranın nüvə proqramı məsələsi aktuallaşırdı. Həmin strategiyada ABŞ-ın yenidən demokratik dəyərlərinin yayılması məsələsi yenidən gündəmə gətirildi. 2006-cı ildə qəbul edilmiş strategiya təhlükəsizliyin mövcud sərhədlərini genişləndirərək, ona yeni anlamda yanaşmağı reallaşdırdı. Yeni konsepsiyada düşmənlərə zərbələr prioritet kimi qəbul edilmədi. Amma onlardan tam imtina da edilmirdi, "... zərurət halında

qüvvələrin tətbiqi istisna edilmir, hətta düşmənin hücum tarixi və yerləşdiyi ərazi də qeyri-müəyyən olarsa bu zərbələr yenə nəzərdə tutulurdu" [218]. Həmin sənəddə beynəlxalq əməkdaşlıq məsələlərinə xüsusi yer ayrılaraq burada qeyd olunurdu ki, "Münaqişələrin həllində öz köhnə və inanılmış dostlar və müttəfiqlərə müraciət prioritet istiqamətlərdən biri kimi qəbul edilməlidir" [218]. Bununla bərabər sənəddə göstərilir ki, ABŞ-ın xarici siyasəti üç əsas tezis üzərində qurulur. Birincisi, ABŞ-ın hərbi üstünlüyünün təmin edilməsi və qorunması, ikincisi, qoruyucu müharibə konsepsiyasının mövcudluğu. Bu konsepsiya özündə ABŞ və onun müttəfiqlərinə qarşı hərbi zərbə endirilməzdən əvvəl hərbi zərbələrin vurulmasına hazır olmağı əks etdirirdi. Üçüncüsü isə hərtərəfli əməkdaşlığa nail olmadıqda təkbaşına fəaliyyət göstərmək nəzərdə tutulurdu. Konsepsiyada, eləcə də terror təşkilatları və onları dəstəkləyən dövlətlərlə danışıqlardan imtina, onlara kömək və sığınacağın verilməməsi məsələsi ifadə olumuşdu. Bu konsepsiyada ABŞ-ın qlobal təhlükələrə qarşı mübarizədə xüsusi rol oynadığı vurğulanır, insan hüquqlarının qorunması, demokratik dəyərlərin yayılması ölkənin xarici siyasətinin əsas prioritet istiqamətləri hesab edilirdi. Qafqazda, həmçinin Azərbaycan Respublikasında ABŞ-ın başlıca maraqları kimi region ölkələrinin əməkdaşlığına nail olmaq və ya əməkdaşlıq münasibətlərini qorumaq, bu ölkələrdə demokratik dəyərlərin dərinləşdirilməsi əsas xarici siyasət məsələləri kimi gündəmdə qalırdı. 2006-cı ildə qəbul olunan bu xarici siyasət konsepsiyasında İrana mənfi münasibət bəslənməsi ABŞ-ın Azərbaycana, o cümlədən Cənubi Qafqaz regionuna maraqlarını bir qədər də dərinləşdirirdi. Burada təkcə enerji təhlükəsizliyi məsələləri deyil, həm də ona strateji əhəmiyyətli ərazi kimi yanaşmağı reallaşdırırdı. Qafqaza münasibətdə 2007-ci ildə qəbul olunmuş Hərbi-dəniz strategiyası da diqqəti cəlb edirdi. Burada dünyanın əhəmiyyətli regionlarında iştirak məsələsi nəzərdə tutulurdu və ABŞ-ın Cənubi Qafqaz regionunda iştirakı da istisna edilmirdi. Bu dövrdə Azərbaycanın ABŞ üçün rolunun artmasında, həmçinin İran və ABŞ-ın antiterror fəaliyyətində Azərbaycanın etibarlı tərəfdaş olması da mühüm amil sayılırdı.

2010-cu ildə ABŞ prezidenti B.Obama tərəfindən yeni Milli Təhlükəsizlik strategiyasının qəbulu ABŞ-ın xarici siyasət strategiyasında da əhəmiyyətli

dəyişikliklərə səbəb oldu. Barak Obama hökuməti praqmatizmə üstünlük verərərək, beynəlxalq əhəmiyyətli problemlərin həllində koalission yanaşma və "ağıllı qüvvədən"(smart power) istifadəni nəzərdə tuturdu. Bu yeni sənəddə dörd aspekt ABŞ xarici siyasətinin başlıca məsələləri kimi götürülür:

1. Təhlükəsizlik;
2. İqtisadi çiçəklənmə;
3. "Universal dəyərlərin" təbliği;
4. Amerikanın rəhbərliyi ilə sülhün möhkəmləndirilməsi [215].

Konsepsiyada ABŞ-ın dünya liderliyi məsələsi yenə də öz qüvvəsini saxlayırdı. Ancaq yeniliklər ondan ibarət idi ki, əgər əvvəlki doktrinalarda hərbi və xarici siyasət məsələləri milli təhlükəsizliyin iki başlıca istiqaməti kimi nəzərdə tutulurdusa, yeni sənəddə daxili və iqtisadi inkişaf məsələləri də buraya əlavə edildi. Həmin strategiya əhatəli xarakter daşımaqla milli təhlükəsizliyin daxili və xarici aspektlərini birləşdirməyi nəzərdə tuturdu. Digər tərəfdən Obama Corc Buşun siyasətini davam etdirərək ABŞ üçün həyati əhəmiyyətli ərazilərdə öz dominantlığını saxlamaqda maraqlı olduğunu sübut etdi. "Biz dünyanın ən güclü və çiçəklənmə dövrü keçirən millətlərindən biri olaraq qalırıq. Biz hər zaman dünyanı öz arxamızca aparacağıq" [203].

2010-cu ildə Barak Obama administrasiyası tərəfindən prioritetli məsələlər kimi müəyyənləşdirildi:

1. Nüvə silahının yayılmaması sahəsində müttəfiqlər və əməkdaşlar arasında əlaqələrin gücləndirilməsi;
2. "Taliban" hərəkatının zəiflədilməsi hesabına Əl-Qaidə terror təşkilatının ləğvi;
3. Əfqanıstan və Pakistana hərbi-siyasi yardım;
4. İraqın suverenliyini tamamlamaqla ABŞ qoşunlarının bu ölkədən çıxarılması;
5. Yaxın Şərqdə İsrail-ərəb münaqişəsinin sülh yolu ilə həllinə nail olmaqla yanaşı, fələstinlilərin öz dövlətlərini qurmalarına şərait yaratmaq.

Barak Obama hökumətinin doktrinasında ən mühüm məqam islam dünyası ölkələri ilə əməkdaşlığın genişləndirilməsi, iqtisadi qüdrətin artırılması, dünyada

insan hüquqları və ümumbəşəri dəyərlərin qorunması istiqamətində Qərb demokratiyasının yayılması, informasiya texnologiyalarından geniş istifadə, beynəlxalq aləmdə yeni keyfiyyətli, sabit münasibətlər sisteminin formalaşdırılması məsələlərindən ibarət idi.

2015-ci ildə qəbul edilən yeni strategiya 2010-cu ilin bəzi məsələlərini özündə əks etdirsə də, burada bir çox yeni xarici siyasət maraqları da diqqəti cəlb edirdi. Məsələn, 2010-cu ildə Rusiya Federasiyasına münasibət neytral olduğu halda yeni doktrinada həmin vəziyyət dəyişir. Yeni doktrinada Rusiyaya mənfi münasibət bəslənərək, onun Ukraynaya qarşı təcavüzkar siyasəti pislənir. Həmçinin qeyd olunur ki, Rusiyanın strateji imkanlarını nəzərə alaraq öz müttəfiqlərinə və əməkdaşlarına Rusiyaya qarşı möhkəm dayanmaq labüdlüyü bildirilir.Burada diqqəti çəkən məsələlərdən biri də ABŞ-ın iqtisadi qüdrətinin möhkəmləndirilməsi və hərbi üstünlüyü hesabına dünya liderliyini qorunması vurğulanır. Uzunmüddətli perspektivdə öz müttəfiqləri ilə münasibətdə Rusiyanın təcrid edilməsinə, onun enerji resurslarından istifadəsinin qarşısının alınması, hərbi mallarının dünya bazarında alışının azaldılmasına nail olmaq planları nəzərdə tutulurdu. Barak Obama hökuməti özünə tərəf-müqabil dövlətlərə münasibətdə Buş administrasiyasından fəqli olaraq yalnız ABŞ-ın maraqlarını deyil, eləcə də qarşılıqlı maraqların gözlənməsini də vacib sayırdı.

Bütün yuxarıda göstərilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ABŞ-ın xarici siyasətində prezident Barak Obama dönəmində Cənubi Qafqaza münasibət yenə də aktual olaraq qalırdı. Çünki Rusiya amilini burada zəiflətmək, enerji resurslarından istifadə ilə Rusiyanın enerji xətlərinə alternativ yolların çəkilməsi, İpək yolu, Nobuka layihələrinin reallaşmasında ABŞ yenə də maraqlı olaraq qalırdı. Həmçinin 2015-ci ilin xarici siyasət strategiyasında regional münaqişələrin həllinə nail olmağın ABŞ-ın milli maraqlarının bir hissəsi hesab edilməsi, Qarabağ məsələsinin həllində uğurlu addımların atılması da nəzərdə tutulurdu. 2011-ci ilin sonunda prezident B.Obama Milli Müdafiəyə Razılıq Aktını gündəmə gətirdi. Bu sənəddə Gürcüstanla ikitərəfli əlaqələrin yaradılması və təhlükəsizlik məsələləri əksini tapmışdı. 30 aprel 2012-ci il tarixdə ABŞ

Konqresinin hesabatında ikitərəfli müdafiənin nəticələri vurğulanırdı. Hesabatda iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdı. Burada Gürcüstan ordusunun inkişaf etdirilməsi və ölkənin İSAF-a yardımı üçün ABŞ-dan dəstək alması nəzərdə tutulmuşdu. Birinci istiqamət 63 birgə təlim, təhsil və 2011-ci ildə keçirilən bir neçə səfərlər ilə dəstəkləndiyi halda, 2012-ci ildə yalnız 23 təlim həyata keçirilmişdir. Gürcüstan davamlı şəkildə hərbi təchizatla bağlı müraciət etmiş və ABŞ bütün müraciətləri təmin etməyə çalışmışdır. Bəzi sorğular İSAF yardımlarına yönəldiyi halda, onların çoxu müdafiə sahəsinin inkişafına yönəlmişdi [189].

Azərbaycan-ABŞ əməkdaşlığında əhəmiyyətli yaxınlaşma da məhz bu dövrə təsadüf edir. 2010-cu ilin 24-25 sentyabrında Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-a növbəti işgüzar səfər etmiş və səfər zamanı, sentyabrın 24-də Nyu-Yorkda ABŞ Prezidenti Barak Obama ilə görüş keçirmüşdir. Görüşdə prezident B. Obama Prezident İlham Əliyevin liderlik rolunu xüsusi qeyd edərək, Azərbaycanın Cənubi Qafqazda ən nüfuzlu dövlət statusu qazandığını vurğulamışdır.

Bu görüş Azərbaycan ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəyəsinə yüksəldiyini bir daha təsdiqlədi. Belə ki:

- ABŞ Azərbaycanı "Cənub dəhlizi"nin inkişafında lider dövlət kimi qəbul etdi;
- ABŞ-ın yeni Qafqaz siyəsətində Azərbaycan prioritet ölkə hesab olundu;
- Ermənistanın Azərbaycana hərbi təcavüzünün tənzimlənməsi regionda sülhün və sabitliyin təmin olunmasında həlledici amil kimi dəyərləndirildi;
- Beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-la Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi bildirildi.

2016-cı il aprelin 6-da Azərbaycan və ABŞ hökumətləri arasında "Açıq Səma Sazişi", 2016-cı il iyulun 2-də "Azərbaycan Pespublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında hava nəqliyyatı haqqında" saziş, 2016-cı ildə isə Azərbaycan Dövlət Mülki Aviasiya Adminstrasiyası və ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında qrant sazişinin imzalanması qeyd edilənlərin aydın nümunəsidir.

ABŞ xarici siyasətinin formalaşmasında onun hərbi və kəşfiyyat idarələri də mühüm rol oynayırlar. Onların fəaliyyəti haqqında məlumat vermədən ABŞ-ın Qafqaz siyasəti haqqında mühakimə yürütmək qeyri mümkündür.

XX əsrin 90-cı illərinin ikinci yarısından, xüsusiilə 2001-ci ildən etibarən terror aktlarının törədilməsi ilə bağlı ABŞ kəşfiyyat sistemi əsaslı dəyişikliklərə məruz qaldı [146,37]. Qlobal terrorizmlə mübarizədə həmin orqanlar aparıcı rol oynamaqla xarici siyasət kursunun vacib subyektinə çevrildi. İki mühüm sənədin- "Kəşfiyyat üzrə Milli Şuranın hesabati" (2004-2005-ci illərdə nəşr olunub) və "Ümumdünya təhdidlərin qiymətləndirilməsi"nin (2011) təhlili təsdiqləyir ki, kəşfiyyat orqanları Qafqazda vəziyyətin nəinki monitorinqini aparır, eləcə də mövcud tendensiyaları nəzərə alaraq hadisələri proqnozlaşdırmağa böyük maraq göstərir. Belə ki, prezident C. Buşun dövründə (2001-2009) kəşfiyyat idarəsinin analitikləri belə qərara gəlmişdilər ki, Qafqaz və Mərkəzi Asiya daxil olmaqla böyük ərazilər hökumətlərin idarə sistemindən çıxa bilərlər. Çünki radikal islam hərəkatı separatçı qüvvələrlə birləşərək terror və cinayət əməllərini çoxalda bilər və nəticədə idarə edilməsi mümkün olmayan xaos yarana bilər [186,120]. Vəziyyətdən çıxış yolu kimi məhz kəşfiyyat və əks-kəşfiyyatın rolunun artıtılması göstərilirdi. 2011-ci ilin hesabatında qeyd edilirdi ki, Abxaziya, Cənubi Osetiya və əsasən də Dağlıq Qarabağda gərginliyin artması potensialı daim mövcuddur. Gürcüstan-Rusiya münasibətlərində belə gərginliyin artması qaçılmaz hal kimi qiymətləndirilirdi. Burada ABŞ kəşfiyyatının qarşıdurmaların qarşısını almaq funksiyası qeyd edilirdi.

Xarici siyasətin formalaşmasında ABŞ Konqresi də həlledici rola malikdir. Konqresin xarici siyasətə təsiri bir neçə istiqamətdə baş verir:

- büdcə tənzimləmələri vasitəsilə;
- beynəlxalq müqavilələrin ratifikasiyası ilə;
- icra hakimiyyətinə tələblərin formalaşdırılması yolu ilə;
- prezident və dövlət katibi ilə məsləhətləşmələrlə;
- səfir və digər yüksək rütbəli diplomatların vəzifəsinin təsdiqi ilə.

Konqresin Cənubi Qafqaz məsələsində rolunu təhlil edərkən belə bir mənzərə ilə rastlaşmaq olar ki, Gürcüstanla bağlı məsələlərin müzakirəsində konqresmenlər

və Ağ ev arasında konsensus nəzərə çarpırsa, Ermənistan və Azərbaycanla bağlı məsələlərdə vəziyyət dəyişir. Burada qanunverici hakimiyyət daha çox ermənipərəst, icra hakimiyyəti isə azərbaycanpərəst mövqe nümayiş etdirir. Əlbəttə, bu məsələdə qüvvələr nisbətinin müəyyənləşməsində milli lobbilılər, başqa sözlə təzyiq qrupları bu və ya digər məsələnin qəbulunda öz təsirlərini göstərməkdə daim davam edirlər. Belə ki, ABŞ-da hər üç Qafqaz ölkəsinin diasporu fəaliyyət göstərir və vaxtaşırı olaraq Konqresdə qərarların qəbulu prosesinə öz təsirlərini göstərməyi bacarırlar. Lakin bu üç diasporun içərisində erməni lobbisinin fəaliyyəti daha fəaldır və həlledici gücə malikdir. Bunun bir neçə səbəbi vardır:

1. Erməni lobbisinin ABŞ-da uzunmüddətli fəaliyyətdə olması onu Azərbaycan lobbisilə müqayisədə uğurlu edir;
2. 1991-ci ilə qədər Azərbaycanın ABŞ-da tanınmaması, lakin ermənilərin “erməni soyqırımına”görə tanınması;
3. Erməni lobbisi üzvlərinin daha sanballı biznesmenlərdən ibarət olmaları və yüksək vəzifələrə yiyələnmələri;
4. Erməni əhalisinin ABŞ-da daha çox olması, birbaşa əhali və siyasətçilər vasitəsilə təsirlərini artırması.

ABŞ-da fəaliyyət göstərən erməni lobbisinin iki qolu: Amerikanın Erməni Milli Komitəsi və Amerika Erməni Assambleyası 1974-cü ildən ABŞ-da fəaliyyət göstərir və böyük maliyyə resurslarına malikdirlər. Onlar Ermənistanın daxili siyasi həyatına güclü təsir göstərirlər [168,10]. Amerika Erməni Milli Komitəsi qüvvələrin cəmləşdirilməsi və lazımi fəaliyyətin təşkilindəki rolu ilə də seçilir [168,18]. 1995-ci ildən Konqresdə erməni işçi qrupu formalaşdırılmışdır. Onların sayı 2008-ci ildən etibarən 155 nəfərə çatmış və bu işçi qrup qanunların qəbuluna böyük təsir göstərir. ABŞ-da erməni lobbisi azərbaycanlı lobbisinə nisbətən daha əvvəl yaranmışdır. Bu bir neçə səbəblə bağlıdır: “Birincisi, bunu ABŞ-da diasporların mövcudluq müddətilə izah etmək olar. ABŞ-da ilk erməni qrupları hələ 1830-cu ildən məlumdr. İkincisi, bu diasporların sayından asılıdır. Ermənilərin sayı 1,5 milyon nəfər olduğu [236] halda, azərbaycanlıların sayı 400000 nəfərdir” [239]. Onu da vurğulamaq lazımdır ki, ABŞ-da erməni lobbisi bir sıra təşkilatlanmış qurumlarda birləşmişlər.

Erməni lobbisinin strukturunu aşağıdakılar təşkil edir:

1. Siyasi Fəailiyyət üzrə Erməni Milli Komitəsi;
2. Amerikanın Erməni Milli Komitəsi;
3. Amerikanın Erməni Assambleyası;
4. Erməni Gənclər Federasiyası.

Eyni zamanda "ABŞ Konqresində erməni təşkilatları ilə bilavasitə qarşılıqlı əlaqədə olan, cari dövrdə 88 üzvün daxil olduğu erməni məsələsi üzrə fraksiya mövcuddur" [225].

Erməni lobbisinin fəailiyyət istiqamətləri aşağıdakı ümumi məsələlərlə bağlıdır:

1. Erməni "soyqırımının" qəbul edilməsi;
2. Erməni diasporunun ABŞ-da siyasi proseslərdə fəal iştirakı;
3. Ölkənin Ermənistanın və erməni diasporunun maraqları naminə daxili və xarici siyasətinə təsirilə yanaşı, Azərbaycan-ABŞ münasibətlərinə aid olan:
   a) 907-ci düzəlişin qəbulu;
   b) Dağlıq Qarabağın özünütəyinetmə hüququnun qorunması və müstəqilliyinin tanınması;
   c) Azərbaycan-ABŞ münasibətlərinin pisləşməsi məsələlərilə məşğul olmaq.

Erməni və azərbaycanlı lobbiləri Azərbaycan-ABŞ münasibətlərinə təsir edərək fəailiyyət göstərirlər. ABŞ-ın Azərbaycanla münasibətlərində geosiyasi, hərbi, iqtisadi, humanitar, eləcə də NATO ilə əməkdaşlıq və digər ikitərəfli əlaqələri mövcuddr. Bu münasibətlərə erməni və azərbaycanlı lobbi qrupları öz mənafeləri baxımından təsir edirlər.

ABŞ Konqresi uzun müddətdir ki, ermənipərəst siyasətilə məşhurlaşıb. Onun qanunverici hakimiyyəti daim ermənilərə tərəfdar çıxmağa çalışır, icraedici hakimiyyət, prezident adminstrasiyası isə daha çox Azərbaycana meyillidir. Məhz belə bir şəraitdə erməni və azərbaycanlı lobbiləri hökumətin siyasətini dəyişdirməyə cəhd edirlər. ABŞ tədqiqatçısı Entoni Nauns uğurlu lobbiçilik siyasətinin bir neçə komponentini fərqləndirir: Birincisi, bu, ilkin mərhələdə tələblərin minimallığıdır.

Erməni-azərbaycanlı qarşıdurmasında lobbi qrupları, ilk növbədə aşağıdakı məsələlərin həlli uğrunda fəaliyyət göstərirlər:

"- Dağlıq Qarabağ problemi;

- erməni genosidi;

- maliyyə yardımının bölüşdürülməsi" [15,24].

Hələ 1919-cu ildə Paris konfransında Amerikanın Erməni Milli Birliyi ABŞ qanunverici orqanında Daşnak Ermənistan Respublikasının mandatlığının qəbul olunmasına nail olmuşdu.

Erməni lobbisinin-Amerikanın Erməni Milli Komitəsi və Amerika Erməni Assambleyasının fəal təsiri ilə Dağlıq Qarabağın separatçı rejiminə böyük məbləğdə maliyyə yardımı ayrılmışdı.

Azərbaycan lobbisinin fəaliyyəti erməni lobbisi ilə müqayisədə çox yenidir. Onun yaranması 2000-ci ilin ortalarında başlanmışdır. Azərbaycan lobbisi 2006-cı ildə konqresdə 42 nəfərdən ibarət bir təsir qrupu formalaşdırmışdı. 2007-ci ildə ABŞ azərbaycanlılarının Şəbəkəsi (USAN) yaradılmışdır. "Bu gün o, azərbaycanlı amerikanları birləşdirən ən böyük təşkilatdır. Vaşinqtonda, həmçinin Qarabağ Xeyriyyə Fondu da fəailiyyət göstərir" [136,31].

ABŞ-da 2008-ci ildə yuxarıda adı çəkilən iki azərbaycanlı lobbi qrupuna biri də əlavə olundu. Bu "Azərbaycanı tədqiqatın Vaşinqton Mərkəzi" idi.

Beləliklə, artıq 2008-ci ildə ABŞ-da üç nəhəng Azərbaycan lobbisi formalaşdırılmışdı ki, onlardan ən mühümü ABŞ-Azərbaycan Şəbəkəsidir (USİ Azəri Notwork, USAP). Azərbaycan lobbisi türk və yəhudi lobbi qrupları ilə əməkdaşlıq şəraitində fəailiyyət göstərir.

Son illər erməni lobbisi güclənən Azərbaycan lobbisinin müqavimətilə qarşılaşmışdır. Rusiya tədqiqatçı M.A. Suçkov Azərbaycan lobbisini gücləndirən amilləri belə müəyyənləşdirir: "1990-cı ildə Azərbaycanın Xəzərin neft kəmərlərində başlıca yer tutması, ABŞ-ın 2001-ci il terror aktından sonra hərbi əməliyyatları təmin etməsi üçün strateji məntəqəyə çevrilməsi, respublikanın terrorizmlə mübarizədə ABŞ-la müttəfiq imicini qazanması" [219].

Azərbaycan lobbisi ABŞ-ın enerji nəhənglərilə sıx əlaqə saxlayaraq Azərbaycan-ABŞ münasibətlərinin uğurlu inkişafını təmin etməyə çalışır. Bu enerji nəhəngləri (”Konoko filins”, “Ekson mobil”, “Şevron” və s.) Azərbaycan-ABŞ Ticarət Palatasının mesenantları kimi də çıxış edirlər. Onlar Azərbaycan əleyhinə çıxan qərarları neytrallaşdırır, Azərbaycan-ABŞ siyasi əlaqələrinin yaxşılaşdırılmasına təsir göstərirlər.

Erməni lobbisi üzun müddətdir ki, ABŞ prezidentlərinin xalqa müraciətində 24 aprelin “genosid” günü elan olunmasına müvəffəq olmamışlar. ABŞ prezidentləri həmin günü manevr edərək “böyük faciə” (theqreut traqedu) adlandırır, bununla həm Amerika erməni elektoratını itirmək istəmir, eləcə də NATO üzrə müttəfiqi Türkiyə və enerji daşıyıcıları sahəsində əməkdaşlıq etdiyi Azərbaycanla münasibətlərini qoruyub saxlamağa çalışırlar.

Burada digər bir məsələ ABŞ-ın Dövlət Departamentinin məruzələrində Dağlıq Qarabağa münasibətin ifadə olunmasıdır. 2007-ci ildə ABŞ Dövlət Departamenti Dağlıq Qarabağı “Ermənistan tərəfindən işğal olunmuş ərazi” adlandırdı. Lakin erməni lobbisi bu ifadəni iki dəfə neytral variantlarla əvəz etdirdisə də, ABŞ-ın xarici siyasət idarəsi ilkin varianta qayıtmalı oldu” [128,43].

ABŞ-da artıq erməni lobbisinin anti-Azərbaycan, antitürk, hətta ABŞ-ın maraqlarına ziyan vuran fəailiyyətinin ifşasına həsr olunmuş əsərlər yazılır. Bunlardan biri ABŞ jurnalisti Raul Lori Kontrerasın Kaliforniyada “Berkeley Press” nəşriyyatında çap olunmuş “Erməni lobbisi və ABŞ-ın xarici siyasəti” əsəridir. Kitabda faktlar və etibarlı mənbələr əsasında erməni lobbi təşkilatlarının ştatlarda və federal səviyyədə öz çirkin məqsədləri naminə fitnəkar əməllərə əl atması, bütün bunların ABŞ-ın xarici siyasətinə mənfi təsiri ifşa olunur, “erməni genosidi”nin, “907-ci düzəlişin” federal ştatlar səviyəsində anti-Azərbaycan, antitürk qətnamələrin qəbul olunması, şübhəli seçki kampaniyalarının əsil mahiyyəti açılır.

R.L. Konteras konqresmenlər Frank Pallone, Adam Şif, Robert Dold, Bred Şerman, senatorlar Barbara Bokker və Bab Menendezin erməni lobbisinin sifarişlərini yerinə yetirməsi, hətta Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik

fəailiyyətlərilə tanınan F. Polneniyə 600 min, A. Şifə 365 min, B. Şermana 80 min dollar erməni lobbi təşkilatlarından pul verildiyini sübut edir [204].

Bütün tədqiqatçılar və siyasi analitiklər erməni lobbisinin ABŞ-ın maraqlarına ziyan vurduğunu təsdiqləyirlər. Erməni lobbisi özünün çirkin anti-Azərbaycan təbliğatını gücləndirməkdə davam edir. Bu isə xüsusilə erməni cinayətlərinin gündəliyə çıxarılması ilə əlaqədardır. Artıq ABŞ-ın 19 ştatı Xocalı genosidini tanıyan qətnamə qəbul etmiş, 25 ştat isə Azərbaycan nöqteyi-nəzərini müdafiə etdiklərini bildirmişlər. Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri A. Mollazadə yazır: "Konqresdə və Senatda erməni lobbisinin maraqlarını müdafiə edən siyasətçilər mövcuddur. Təəssüf ki, onlar hakimiyyətə gəldikdən sonra da öz lobbiçilik fəailiyyətinə son qoya bilmirlər. Bu fəailiyyət yalnız Azərbaycanın deyil, Azərbaycanın dostu olan ABŞ-ın siyasətinə və maraqlarına ziddir. Bu siyasət yalnız erməni lobbisinin maraqlarına uyğun gəlir" [213].

Erməni və azərbaycan lobbilərinin təzyiqlərinə baxmayaraq ABŞ hökuməti özünün rasional maraqlarından çıxış edərək Türkiyə, Azərbaycan və Ermənistanla münasibətlərində daha az siyasi xal itirməyə çalışaraq ABŞ üçün kompromis və tarazlı siyasət yürütməyə çalışır.

Bir sözlə iki lobbi arasında daim öz dövlətlərinin maraqlarının müdafiəsi uğrunda mübarizə gedir. Həmim mübarizənin nümunəsi kimi M. Brayzenin Azərbaycana səfir təyin olunmasına erməni lobbisinin maneçiliyini göstərmək olar. Yalnız 2010-cu il dekabrın 29-da parlament sessiyalararası fasilədən istifadə edərək B. Obama M. Brayzeni səfir təyin edə bildi. Bəzən erməni lobbisi ilə Ermənistan hökumətinin mövqeyi üst-üstə düşməyəndə (bu əsasən türk-erməni yaxınlaşması zamanı özünü göstərir) bir sıra lobbi qruplaşmalarının fəaliyyəti elə Ermənistanın özü üçün mənfi xarakter daşıyır.

ABŞ-da gürcü lobbisi də fəaliyyət göstərir. O "Gürcüstanın dostları" adı altında formalaşmışlar. Onların da fəaliyyəti 2008-2010-cu ildə xeyli fəallaşmışdır.

ABŞ qanunvericilik sistemində analitik mərkəzlərin (think tanks) rolu da mühümdür. Onlar müəyyən xarici siyasət məsələlərində ekspert qiymətləndiril-mələrinin aparılması, effektiv xarici siyasət strategiya və modellərinin

formalaşdırılmasını və reallaşdırılmasını həyata keçirirlər. Müəyyən məsələlərin sistemli analizinin aparılması, beynəlxalq əhəmiyyətli fəaliyyətin formalaşdırılmasında belə analitik mərkəzlərin xidmətindən geniş istifadə olunur. Məsələn, president B. Klinton administrasiyasının üzvlərinin bir çoxu Brukinqs İnstitutunun analitikləri idi. President Corc Buş hökuməti isə mühafizəkar hesab olunan Amerika Sahibkarlar İnstitutu, "Varislik" Fondu və b. bu tipli analitik mərkəzlərlə sıx əlaqə saxlayırdı. President B. Obama daha liberal analitik dairələrə üstünlük verərək B. Klintonun prezident aparatının keçmiş başçısı C. Podestoyun başçılıq etdiyi "Amerika Dirçəliş Mərkəzinə" müraciət edirdi. Bu tipli institutları Amerikada IV hakimiyyət və ya siyasi fəaliyyətin intellektual episentri hesab edirlər.

Qafqazın, eləcə də Azərbaycanın həmin ekspert qrupları üçün əhəmiyyəti müxtəlifdir. Bu, ABŞ-ın Qafqaz siyasətinin mahiyyətinin birbaşa üzə çıxarılması və ifadəsini özündə təcəssüm etdirir. C.Markedonovun qeyd etdiyi kimi: "Böyük Qafqaz ABŞ üçün o baxımdan əhəmiyyətlidir ki, bura Rusiya, İran, Türkiyə, Yaxın Şərq ölkələri ilə oyunlar oynanılan bir bölgədir. Məhz bunun vasitəsilə ABŞ siyasətinin müəyyən istiqamətləri birləşir və reallaşır" [212].

ABŞ öz xarici siyasət məqsədlərinə çatmaq üçün effektli mexanizmlər hazırlayaraq onlardan istifadə edir. ABŞ-ın Qafqazda xarici siyasət mexanizmlərini iki tipə ayırmaq olar: hərbi-siyasi və iqtisadi. İqtisadi mexanizmlərə regionun iqtisadi həyatında və eləcə də enerji layihələrində ABŞ kompaniyalarının iştirakının reallaşmasını aid etmək olar. Belə qruplara aid olan Beynəlxalq İnkişaf üzrə ABŞ Agentliyinin (USAİD) fəaliyyəti böhran vəziyyətlərini idarə etmək, iqtisadi inkişafa nail olmaq və Amerika malları üçün bazarların açılmasını nəzərdə tutur [209]. Qafqazın iqtisadi həyatına təsir edən digər qurum kimi xeyriyyə fondlarının fəaliyyətini misal göstərmək olar. Hələ 1992-ci ildə prezident C.Buş (1989-1993) tərəfindən müstəqil ölkələrə yardım layihəsinin işlənməsi ilə bağlı Cənubi Qafqazın üç respublikasına külli miqdarda vəsait sərf edilmişdi. Bundan əlavə enerji daşıyıcılarının çəkilməsində müxtəlif firmalar tərəfindən ödənişlər də nəzərə alınmalıdır. Hərbi sahədə iştirak isə 1992-ci ildən başlayır. Bu cür layihələr ilk növbədə işğalçı Ermənistanda reallaşmışdır. Digər Qafqaz respublikaları da bu işə

cəlb edilmişdir. Sonrakı illərdə həmin siyasət təkmilləşdirilərək müxtəlif formalarda davam etdirilmişdir. Dissertasiyanın digər fəsillərində bunlar haqqında müfəssəl məlumat verilir. ABŞ politoloqu Z.Bjezinskinin yazdığı kimi, qlobal miqyasda ABŞ-ın qarşısında üç əsas missiya dururdu: geosiyasi tarazlığın pozulduğu və milli maraqların artdığı dünyada əməkdaşlığa meyilli qlobal sistemin təşəkkülünü təmin etmək üçün əsas dövlətlər arasındakı əlaqələri idarə etmək, istiqamətləndirmək və formalaşdırmaq; qlobal zorakılıqların azaldılması üçün münaqişələrin qarşısını almaq və ya aradan qaldırmaq, terrorizmə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə aparmaq, vətəndaş müharibəsi gedən regionlarda kollektiv sülhməramlı əməliyyatları dəstəkləmək; insanlar arasında getdikcə dözülməz hal kimi təzahür edən qeyri-bərabərliklə "qlobal vicdan" reallığını nəzərə alaraq daha təsirli mübarizə aparmaq, qlobal rifah üçün təhlükə doğuran ekoloji və ətraf mühitlə bağlı problemlərə ortaq bir cavab tapmaq [125,10].

Beləliklə, Qafqaz siyasəti ABŞ-ın ən mühüm siyasi xətlərindən biri olmaqla, ABŞ xarici siyasətinin formalaşmasında aparıcı rola malikdir. Qafqaz siysətinin başlıca komponentləri kimi aşağıdakılar çıxış edir:

-Regionda ən vacib qüvvələrdən biri olaraq buradakı dövlətləri öz təsir dairəsində saxlamaq;

- Rusiyanın siyasi, iqtisadi, hərbi təsirini azaltmaqla regionda liderə çevrilmək;
- İranın dörd əsas istiqamətdə: İran, Xəzər dənizi, Əfqanıstan- Pakistan, İran körfəzində fəaliyyətini məhdudlaşdırmağa nail olmaq;
- Geniş miqyaslı hərbi iştirak imkanlarını genişləndirmək üçün hərbi bazaları formalaşdırmaq;
- Xəzərin enerji ehtiyatları üzərində nəzarət etməklə onların daşınması üçün alternativ marşrutlardan istifadə etmək;
- Mərkəzi Asiyaya çıxış kimi regiondan istifadə etmək;
- Burada möhkəmlənməklə Rusiya, İran və Çinin Böyük Yaxın Şərqdə təsirini azaltmaq;

- Keçmiş sovet respublikalarını siyasi, iqtisadi, hərbi, elmi- texniki kömək vastəsilə öz təsirində saxlamaq;
- Regional münaqişələrin beynəlxalq həllinə nail olmaq;
- NATO-nun genişləndirilməsi vasitəsilə region ölkələrini onun işinə cəlb etmək;
- Geostrateji əhəmiyyətli iqtisadi layihələrin reallaşmasına (məs. Nobukko) siyasi dəstək vermək;
- Vahid Qafqaz ideyasını formalaşdırmaq;
- Regional təhlükəsizlik sistemlərini formalaşdırmaq.

Beləliklə, ABŞ-ın Qafqaz siyasətinin təhlili Qafqaz regionunun ABŞ üçün əhəmiyyətini üzə çıxarır. Bu baxımdan, belə qənaətə gəlmək olar ki, Cənubi Qafqaz regionunun ABŞ üçün əhəmiyyəti bunlardır:

- ABŞ regiondakı müstəqil dövlətlərin təhlükəsizliyinin müdafiəsini vacib sayır. Onların sabitliyi regiona Rusiyanın təsirini azaldaraq Xəzərin enerji daşıyıcılarının təhlükəsizliyinə zəmanət verməsi;
- Enerji daşıyıcılarının Rusiyadan yan keçməsi və Avropanın Rusiyadan enerji asılılığının aradan qaldırılmasında Xəzər resurslarından istifadəyə böyük əhəmiyyət verməsi;
- İranın regiona təsirini azaltmaqla, onu, buradakı dövlətlərin siyasi, iqtisadi, hərbi sahədə roluna imkan verməyib, regiondan təcrid etməsi;
- ABŞ-ın dünyadakı qüvvələr nisbətinin formalaşmasında rolunu artırmağa şərait yaratması.

## 1.2. Azərbaycanin xarici siyasət kursunda ABŞ-ın yeri və rolu

1991-ci il oktyabrın 18-də Azərbaycanda müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi. Yeni yaranan müstəqil Azərbaycanın daxili və xarici siyasətinin mərkəzində güclü dövlət və demokratik cəmiyyət yaratmaq məqsədi dayanırdı. Müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasət kursunun başlıca vəzifəsi ölkənin müstəqilliyini və suverenliyini təmin etmək idi. Lakin 1988-ci ildən

ermənilərin ərazi iddiaları əsasında ölkəmizə qarşı başlanan hərbi təcavüzün artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi səviyyəsinə yüksəlməsi və həmin təcavüzün yaratmış olduğu çətinliklər həm daxili, həm də xarici siyasətə öz mənfi təsirini göstərirdi. Həm baş verən hakimiyyət dəyişiklikləri, həm də Dağlıq Qarabağ probleminin yaratmış olduğu çətinliklərə baxmayaraq ümumilikdə, Azərbaycan diplomatiyası müstəqil dövlət quruculuğu istiqamətində mühüm addımlar atmış, ölkənin beynəlxalq aləmdə tanıdılması yolunda nailiyyətlər əldə etmişdir. Belə ki, hələ müstəqilliyinin ilk illərində Azərbaycan BMT, ATƏT kimi beynəlxalq qurumlara üzv olmuşdur.

Müstəqil dövlət quruculuğu prosesindən danışarkən ölkənin xarici siyasət kursunun düzgün müəyyənləşdirilməsi çox önəmlidir. Xarici siyasət bir dövlətin öz milli sərhədlərindən kənarda fəaliyyətidir. Xarici siyasət daxili siyasətin davamıdır. Daxili siyasətdə həyata keçrilən bütün proqramlar xarici siyasətin məzmununu formalaşdırır. Xarici siyasət sahəsindəki uğurlar daxili siyasətdə islahatların aparılması üçün əlverişli şərait yaradır. İtalyan mütəfəkkiri N.Makiavellinin fikrincə, daxili işlər daim o zaman yaxşı olacaqdır ki, xarici iş həmişə yaxşı vəziyyətdə olsun. Əlbəttə, bu fikri eləcə də əksinə başa düşmək lazımdır.

Azərbaycan dövlətinin daxili siyasəti xalq tərəfindən qəbul olunmuş Konstitusiya əsasında vətəndaşların maddi və mənəvi tələbatının təmin edilməsinə yönəldilir. Xarici siyasət istiqamətində aparılan işlər isə dünyanın əksər dövlətləri ilə milli maraqları və mənafeləri nəzərə alan əməkdaşlığı, ictimai həyatın bütün sahələrində münasibətləri normallaşdırmağı, beynəlxalq aləmdə bəşəriyyəti təhdid edən təhlükələri və qlobal problemləri birgə aradan qaldırmaq səylərini özündə birləşdirir.

Geosiyasi, geostrateji və geoiqtisadi baxımdan əhəmiyyətli və həssas regionda yerləşən Azərbaycan üçün düzgün inkişaf yolu seçmək gərgin iş tələb edirdi. Müstəqilliyini yeni əldə etmiş resbuplikanın qarşısında iqtisadiyyatı inkişaf etdirmək, cəmiyyətin bütün sahələri üzrə davamlı islahatlar həyata keçirmək, demokratik təsisatlar yaratmaq və onları möhkəmləndirmək, düşünülmüş daxili və xarici siyasət həyata keçirmək kimi mühüm işlər dururdu. Ölkədə dövlət

quruculuğu, qanunların qəbulu, daxili və xarici siyasətin təsnifatlaşdırılması sahəsində işlər görülməyə başlandı. Müstəqil Azərbaycanda demokratik siyasi təsisatlar, partiyalar, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin digər elementləri yaranmağa və inkişaf etməyə başladı.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu istiqamətdə işlər daha da genişləndirildi. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin əsas istiqamət və perspektivlərini müəyyənləşdirdi. 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında Heydər Əliyev qeyd edirdi ki, respublikamızın qarşısında duran əsas vəzifələrdən biri xalqın mənafeyinə xidmət edən siyasətin aparılmasıdır. Burada əsas məsələ müstəqilliyin qorunması ilə bərabər Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətməkdir [68,16]. Bununla da 1993-cü ildən başlayaraq Azərbaycanın xarici təhlükəsizlik siyasətinin Heydər Əliyev modeli formalaşmağa başladı. Ulu Öndər xarici siyasəti Azərbaycanın müstəqilliyini möhkəmləndirən amillərdən biri hesab edərək, Azərbaycanın dünya dövlətləri birliyinə inteqrasiyasına, onun milli maraqlarını təmin edən sağlam, balanslı, sülhpərvər, qarşılıqlı faydaya əsaslanan xarici siyasətin reallaşmasına çalışır, o cümlədən ABŞ-la yaxınlaşmağa üstunlük verirdi. Münasibətlər haqqında birgə bəyanat və sərmayə qoyuluşunun qarşılıqlı mühafizəsi və təşviq edilməsi haqqında Azərbaycan Respublikası və ABŞ hökumətləri arasında müqavilə imzalanması mərasimində Heydər Əliyevin verdiyi bəyanatda deyilirdi: "…Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq etmək, tərəfdaşlıq əlaqələri yaratmaq və bu əlaqələri daha da genişləndirmək, inkişaf etdirmək bizdən ötrü çox vacib, əhəmiyyətlidir" [68,133]. Bu sözlərlə Azərbaycanın öz müstəqilliyini hər şeydən üstün tutduğu və ABŞ-la əməkdaşlığı inkişaf etdirməyin vacibliyi diqqətə çatdırılırdı.

Azərbaycan diplomatiyası dünyanın ən böyük, nüfuzlu və aparıcı dövlətləri ilə qarşılıqlı faydalı və ikitərəfli münasibətlər qurmaq üçün ciddi iş aparmağa başladı. Çox keçmədən başqa ölkələrə münasibətdə Azərbaycanın xarici siyasəti dəyişdirildi. Xarici siyasətin üç mühüm aspekti nəzərdə tutulurdu. Birincisi, digər

region ölkələri ilə əməkdaşlığın qaydaya salınması, ikincisi, yaxın qonşularla əlaqələrin təşkili və nəhayət, üçüncüsü, geosiyasi baxımdan yaxın ölkələrlə əlaqələrin təşəkkülü və inkişafı.

Ölkənin geosiyasi, iqtisadi əhəmiyyətinin dünyanın aparıcı dövlətlərinin diqqətinə çatdırılması istiqamətində işlərə başlanıldı. Digər ölkələrin iqtisadi və strateji maraqları Azərbaycanın milli dövlətçilik mənafeləri ilə uzlaşdırılaraq dövlət və iş adamlarının diqqətinə çatdırıldı. ABŞ-ın və digər Qərb ölkələrinin Azərbaycanla yaxınlaşmasının yolları öyrənildi və bu sahədə mühüm nailiyyətlər əldə edildi. Azərbaycanın həyata keçirdiyi məqsədyönlü xarici siyasət kursu artıq 1994-cü ilin sonunda öz müsbət nəticələrini göstərməyə başladı. Uğurlu neft strategiyası isə bu ölkələri respublikamızla daha sıx bağladı.

Beləliklə, 1993-cü ilin ikinci yarısından başlayaraq ölkədə xarici siyasət strategiyasının bütün mühüm istiqamətləri müəyyənləşdirilərək, siyasi-diplomatik fəaliyyətin məzmunu və məqsədi dəqiqləşdirilmiş, xarici siyasətin informasiya-təbliğat, ideoloji, siyasi, iqtisadi, hərbi vasitələrindən istifadə etməklə dövlətin xarici siyasət kursu hazırlanmışdır. Azərbaycanın xarici siyasət kursunun əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı sürətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edir[302]. Bu prinsiplərdə milli müstəqilliyin möhkəmləndirilməsi ilə bərabər Azərbaycan Respublikasının müharibədən imtina, sülhpərvər siyasətin qurulması, başqa dövlətlərin maraqlarına hörmət etməklə bərabər öz milli maraqlarının qorunması və dövlətlər arasındakı münasibətlərdə qarşılıqlı hörmət, məhdudiyyətlərin aradan qaldırılması kimi məsələlər ön plana çəkilir. Həmçinin Azərbaycan Respublikasının Konstitusiyasında bir daha vurğulanır ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur" [43,6]. Bu prinsiplərdən çıxış edərək Azərbaycan dövlətinin xarici siyasətində məhdudlaşmalar yalnız tərəfdar çıxdığı beynəlxalq müqavilələr vasitəsilə ola bilər.

Azərbaycan Respublikasının xarici siyasətinin və milli təhlükəsizliyinin əsas vəzifələri aşağıdakı kimi qruplaşdırılır:

1. Müstəqilliyini və ərazi bütövlüyününü qorunmaq;
2. Beynəlxalq sistemdə mövqeyini möhkəmləndirmək;
3. Gərginlik və münaqişələrə yol verməmək;
4. Əlverişli iqtisadi siyasət yeritməklə beynəlxalq iqtisadi sistemə qoşulmaq;
5. Elmi, mədəni, humanitar sahələrdə beynəlxalq inteqrasiyaya nail olmaq [271].

Azərbaycan Respublikasında beynəlxalq siyasət həyata keçirilərkən ilk olaraq ölkənin milli maraqları, milli mənafe ön planda durur. Milli maraqların prinsipləri" Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası" ilə müəyyənləşdirilir. Konsepsiyada xalqımızın milli mənafeyinə xidmət edən, onun cəmiyyət həyatının müxtəlif sahələrində - iqtisadi, siyasi, humanitar və.s. kimi sferalarda inkişafı və tərəqqisini nəzərdə tutan milli maraqlarımız öz əksini tapmışdır ki, bunlara bazar iqtisadiyyatının hüquqi əsaslarının təkmilləşdirilməsi, demokratik təsisatların formalaşdırılması, qanunun aliliyinin qorunması, milli həmrəylik hisslərinin formalaşdırılması daxildir [277].

Konsepsiyada Azərbaycanın gələcəkdə hərbi və sərhəd doktrinasının, xarici siyasət və təhlükəsizlik strategiyasının, iqtisadi, ekoloji, informasiya və digər vacib sahələrin, Azərbaycanın xarici siyasət sahəsinin, təhlükəsizlik siyasətinin formalaşdırılmasının vahid prinsipləri müəyyən olunmuşdur.

Azərbaycanın xarici siyasət xəttinin müəyyənləşdirilməsində milli təhlükəsizlik məsələləri çox əhəmiyyətlidir. Cəmiyyətin milli təhlükəsizliyinin təmin edilməsi, ölkənin müstəqilliyinin saxlanılması, ərazi bütövlüyünün qorunması daxili və xarici siyasətinin, eləcə də milli təhlükəsizliyinin başlıca istiqamətlərindən və vəzifələrindən sayılır.

Müasir geosiyasi şəraitdə qlobal dəstək əldə etmək üçün dünyanın bütün dövlətləti ilə bərabərhüquqlu və qarşılıqlı, səmərəli və faydalı əməkdaşlıq qurmaq xarici siyasətin əsas istiqaməti sayılır. Bu əməkdaşlıq əlaqələrini yaratmağın ən optimal mexanizmi beynəlxalq və regional təşkilatlarda təmsil olunmaqdır. Dövlətin beynəlxalq və regional təşkilatlarda mövqeyi möhkəmləndikcə, onun geosiyasi statusu yüksəlir, eləcə də təsir imkanları xeyli genişlənir. Azərbaycan BMT, ATƏT,

Avropa Şurası, YUNESKO, İƏT, MDB, GUAM, QDİƏT və başqa beynəlxalq və regional əhəmiyyətli qurumların üzvüdür. Müasir dövrdə əsas geosiyasi və geoiqtisadi problemlərin həllinə məhz həmin təşkilatlardakı fəaliyyətlə nail olmaq olar.

Xarici siyasətin digər istiqaməti isə dünya iqtisadi sisteminə inteqrasiyadır. Bu inteqrasiya üçün isə dünyanın nüfuzlu iqtisadi təşkilatları ilə qarşılıqlı əlaqələr qurmaq, intensiv və hərtərəfli xarıcı siyasət yeritmək vacib şərtdir. Faydalı əlaqələr qurmaq üçün birinci növbədə lazımi iqtisadi təminat olmalıdır. Dövlətin iqtisadi gücü olmasa, onun güclü dövlət kimi formalaşması mümkün deyil. Güclü dövlətin təşəkkülü ilə güclü xarici siyasətin formalaşması bir-birini tamamlayır.

Dövlətlərin beynəlxalq geosiyasi mühitdə dayanıqlı yer tutması və uğurlu siyasət aparılması üçün dünya iqtisadi sisteminə inteqrasiya mühüm şərtdir. Azərbaycan hələ 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına üzv olmuşdur.

Azərbaycan bütün beynəlxalq təşkılatlarda, o cümlədən iqtisadi yönümlü təşkilatlarda dövlətin mənafeyinə uyğun şəkildə fəaliyyət aparır və xarici iqtisadi siyasət yeridir. Ölkənin geosiyasi uğurlar qazanmasında belə beynəlxalq siyasi qurumlardakı fəaliyyət böyük pol oynayır. Hazırda Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Ümumdünya Ticarət Təşkilatının (müşahidəçi ststusunda) və digər qurumların üzvüdür.

Azərbaycan ərazisinin bir hissəsi Ermənistan tərəfindən işğal olunduğundan əsas görüləcək iş ölkənin ərazi bütövlüyünü bərpa etməkdir. Çünki ərazi bütövlüyü təmin olunmayan dövlətin davamlı inkişafında həmişə problem yarana bilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli xarici siyasət kursunun mərkəzində durur. Bu da təsadüfi deyil, Müstəqillik elan edildiyi vaxtdan Azərbaycanın itirilmiş torpaqlarının geri qaytarılması və ərazi bütövlüyünün bərpa edilməsi xarici siyasətin prioriteti kimi qəbul edilmiş, bu istiqamətdə davamlı işlər aparılmış və aparılmaqdadır.

İlk olaraq Ermənistanın əsassız ərazi iddiaları, hərbi təcavüzü və işğalçılıq siyasəti məsələsini beynəlxalq aləmin müzakirəsinə çıxarmaq, aparıcı dövlətlərin və beynəlxalq təşkilatların diqqətini bu münaqişəyə cəlb etmək, regionda sülhün bərqərar olması üçün nüfuzlu ölkələrin dəstəyini qazanmaq çox vacib idi. Azərbaycan diplomatiyası bu istiqamətdə ciddi işlərə başladı. Qafqazdakı real vəziyyət, Dağlıq Qarabağ probleminin əsil mahiyyəti, Azərbaycan haqqında doğru məlumatlar dünya ictimaiyyətinə bəyan edildi və dövlətimiz haqqında beynəlxalq ictimai rəy müsbət istiqamətdə dəyişdirildi. Dağlıq Qarabağ problemi Ümumavropa təhlükəsizliyi baxımından gündəmə gətirildi və beynəlxalq müstəviyə çıxarıldı.

Dövlətin xarici siyasətinin qurulması və uğurla reallaşmasında daxili sabitliyin əldə edilməsi vacib şərtlərdən biridir. Azərbaycan filosofu M. Əfəndiyev yazır ki, "Xarici siyasətin uğurları ölkə daxilindəki əlverişli şəraitlə şərtlənir. Hər hansı ölkədə daxili siyasi proseslərin məqbul vəziyyəti dünya siyasətində layiqli yer tutmağa mühüm təkandır" [65,380].

Ermənistanın Azərbaycana hərbi təcavüzü barədə həqiqətlərin üzə çıxarılması, beynəlxalq miqyasda siyasi dəstək əldə etmək istiqamətində Azərbaycan dövləti mühüm işlər həyata keçirir. Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi, Ermənistanın qonşu ölkələrə olan əsassız ərazi idddiaları haqqında həqiqətlərin dünya ictimaiyyətinə daha geniş çatdırılması, təcavüzkar Ermənistanın regional layihələrdən təcrid olunması üçün məqsədyönlü işlər görür.

Erməni terrorundan əziyyət çəkən ölkə kimi Azərbaycan daim terroru pisləmiş və ona qarşı olmuşdur. Beynəlxalq terrorla mübarizədə də o, öz səylərini əsirgəməmiş və terrora qarşı mübarizədə aktiv iştirakçi kimi fərqlənmişdir. Bu baxımdan Azərbaycan hərbi qüvvələri sülhməramlı əməliyyatların daimi iştirakçısı kimi Kosovo, İraq, Əfqanıstan və başqa bu kimi regionlarda sülhü layiqincə qoruya bilmiş və bu münasibətlə mükafatlandırılmışlar.

Xarici siyasətin iqtisadi vasitələrlə həyata keçirilməsi ən uğurlu tətbiq formalarından biridir. İqtisadi vasitə digər ölkələrin siyasətinə təsir etmək üçün iqtisadi potensialdan lazımınca yararlanmanı nəzərdə tutur. Müstəqilliyin ilk illərində Azərbaycan enerji amilini xarici siyasətin əsas elementlərindən birinə

çevirərək, bu işdə yeni beynəlxalq tərəfdaşlar tapmaq istiqamətində fəaliyyətə başladı. Bu fəaliyyətin nəticəsi olaraq da beynəlxalq neft şirkətləri ilə birlikdə Xəzər dənizinin karbohidrogen ehtiyatları dünya bazarına çıxarıldı. Həyata keçirilən uğurlu enerji siyasəti Azərbaycan Respublikasının dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində mühüm addım oldu. Müasir dövrdə də bu istiqamət xarici siyasətdə güclü bir vasitə kimi öz müsbət təsirini göstərməkdədir. Azərbaycan tədqiqatçısı Ə. Həsənov "Azərbaycan geosiyasəti" kitabında yazır: "Xüsusən, "Əsrin müqaviləsi" bir dövlət olaraq Azərbaycanın dünyada və regionda geosiyasi və geoiqtisadi əhəmiyyətini artırdı, bölgədə və dünyada arzuolunan iqtisadi tərəfdaşa çevirdi" [82,603].

ABŞ Dövlət Katibinin Siyasi Məsələlər üzrə müavini Uiliam C. Börns deyirdi: "1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan özünün zəngin neft və qaz ehtiyatlarını Qərb bazarına açmaq və xarici investorlar, o cümlədən ABŞ şirkətləri ilə ticarət əlaqələrini inkişaf etdirmək qərarını verdi. Nəticədə Azərbaycan qlobal enerji təchizatının diversifikasiyasında və möhkəmləndirilməsində əsas iştirakçi kimi ortaya çıxdı. Onun boru kəmərləri Xəzər dənizini Qərblə birləşdirən əsas arteriyalara çevrilmişdir. Onun öz idarəçilik institutlarını yaratmaq və müasir iqtisadiyyat qurmaq sahəsində səyləri ölkədə sabitliyi möhkəmləndirmiş və iqtisadi inkişafı sürətləndirmişdir. Daha sabit və çiçəklənən Azərbaycan daha sabit və çiçəklənən Qafqaz deməkdir" [272].

Həyata keçirilən mühüm tədbirlərdən biri də xarici investisiyaların, qabaqcıl texnologiyaların ölkə iqtisadiyyatına cəlb olunmasıdır. Azərbaycanın əlverişli coğrafi mövqeyi və zəngin təbii ehtiyatları onu xarici investorlar üçün cəlbedici ölkələrdən birinə çevirmişdir. Nəzərə alaq ki, xarici siyasətdə əsas vəzifələrdən biri də məhz, ölkədə istehsal olunan məhsulların yeni bazarlara çıxarılmasını, dost münasibətdə olan ölkələrdə investisiya fəaliyyətinin genişləndirılməsinin gücləndirilməsidir. Bunun üçün müntəzəm olaraq xarici ölkələrə səfərlər edilir, milli sərgilər, biznes forumlar, görüşlər təşkil olunur. Ölkəmizin iqtisadi uğurlarının xaricdə geniş təbliğ edilməsi Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. AMEA-nın müxbir üzvü, professor M.Qasımlı

Azərbaycan Respublikası üçün ABŞ-ın əhəmiyyətini bir sıra amillərin artırdığı haqqında yazır:" ABŞ da Azərbaycana xüsusi maraq göstərirdi. Bu da bir sıra amillərlə bağlı idi. Azərbaycan Respublikasının əlverişli coğrafi-siyasi mövqedə yerləşməsi, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin yaradılmasında tutduğu mövqe; zəngin təbii sərvətləri və s. ABŞ-ın Azərbaycan siyasətinə təsir edirdi. Azərbaycanın yerləşdiyi Xəzər regionu Rusiya, İran və Çinin arasında bir rəqabət meydanına çevrilmişdi. Regionda ABŞ-m ticarət, enerji və geosiyasi maraqları var idi. Xəzər regionu ABŞ-m yeni "məsuliyyət zonası" hesab edilirdi. Bu, Birləşmiş Ştatların Cənubi Qafqaz siyasəti ilə eyni idi" [89,150].

Azərbaycana qarşı xarici təzyiqlərə dözümlülük, bu təzyiqlərin neytrallaşdırılması, dövlət və cəmiyyətin maraqlarının hər bir halda qorunması mexanizminin yaradılması xarici siyasət kursunun əsas istiqamətlərindəndir. Bu istiqamət özündə azərbaycanlıların diaspor fəaliyyətini də əhatə edir. Müstəqil dövlətimizin xarici siyasət kursunda insanların əsas hüquq və azadlıqlarının qorunmasına xidmət edən beynəlxalq normalrının həyata keşirilməsinə də xüsusi diqqət yetirilir.

İsveçrə tədqiqatçısı F. Brayarn qeyd edir ki, "xarici siyasət dövlətlər arasında ümumi mənafedən irəli gələn yaxınlaşmanı həyati təlabata çevirir" [1,380]. Ölkələr və cəmiyyətlər arasında əlaqələr o dərəcədə inkişaf edib ki, beynəlxalq aləm eyni dərəcədə cevik xarici siyasət yerinə yeritməyi tələb edir. Mükəmməl olan xarici siyasət formalaşdırmaq üçün beynəlxalq münasibətlər sistemini diqqətlə izləmək və geosiyasi riskləri nəzarətdə saxlamaq gərəkdir. Müasir dövrdə istənilən dövlət daim ətraf mühitlə qarşılıqlı təsirdə olur. Daim dəyişən ətraf mühitdə əlaqədə olan dövlətlərin qarşılıqlı təsirini nəzərə almamaq mümkün deyil. Ölkəmiz xeyli nüfuzlu xarici və region təşkilatlarını təmsil edən üzv kimi beynəlxalq aləmdə qüdrətli dövlətlərlə əməkdaşlığı həyata keçirir və uğurlu xarici siyasət aparır. Azərbaycan digər ölkələrə istiqamətlənən xarici siyasətində milli maraqların reallaşmasını və qonşu dövlətlərlə tarazlaşdırılmış siyasəti prioritet hesab edir.

Azərbaycanın xarici siyasətində üstünlük təşkil edən məqamlar sırasında ikitərəfli əməkdaşlığa diqqət xüsusilə əhəmiyyətlidir. İkitərəfli əməkdaşlıq

münasibətlərində Azərbaycanın xarici siyasətinin ABŞ istiqaməti mühüm diqqət tələb edir. Müasir dövrdə dünya siyasətini müəyyən edən və istiqamətləndirən ABŞ kimi fövqəldövlətlə faydalı münasibət qurmaq Azərbaycan üçün çox vacibdir. Bu gün ABŞ-ın fövqəl dövlət kimi hərtərəfli qüdrəti ona imkan yaradır ki, hər hansı dövlət təşkilatına, region təşkilatlarına, bu təşkilatların apardığı siyasətə mühüm təsir göstərə bilsin. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ABŞ gənc müstəqil dövlətimizin beynəlxalq və regional təhlükəsizliyini təmin etməsində mühüm rol oynadı, ona zəruri siyasi və iqtisadi yardım etdi, ölkənin dünya birliyinə inteqrasiya olunmasına kömək etdi. Eyni zamanda Azərbaycan ABŞ-ın geoiqtisadi mənafeyinə uyğun olan zəngin karbohidrogen ehtiyatlarına malik olduğundan ölkəmiz bu fövqəldövlətin diqqət mərkəzində idi.

Güman olunurdu ki, Azərbaycan suveren, hüquqi dövlət təşkil edəcək, Qafqaz regionunda ABŞ-ın etibarlı strateji müttəfiqinə çevriləcək, bu bölgədə demokratik cəmiyyət quruculuğunun, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminatçısı kimi çıxış edəcək.

Lakin müstəqilliyin ilk illərində xalq cəbhəsi-musavat hökumətinin xarici siyasət sahəsində qeyri-fəallığı, eləcə də Ermənistanın, ABŞ-da fəaliyyət göstərən erməni qruplaşmalarının Azərbaycana qarşı çirkin təbliğatı ilə bağlı ABŞ-ın hakim dairələrinində belə düşündülər ki artıq Azərbaycan müstəqil siyasət yeridə bilməyəcək, hətta sülhə və demokratiyaya cəhd etməyəcək. Artıq Azərbaycanı islam fundamentalizminə söykənən, erməniləri soyqırıma düçar edən, hüquq və demokratiyaya əməl etməyən, qonşularına qarşı ədalətsiz mövqedən çıxış edən dövlət hesab edirdilər. 1992-ci ilin sonlarında ABŞ və erməni diasporunun təsiri ilə ABŞ Konqresi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən məlum "Azadlığı Müdafiə Aktı"na "907-ci düzəliş"i qəbul etdi. Bu düzəliş zorla müharibəyə cəlb edilmiş Azərbaycan üçün müstəqil dövlət quruculuğu yolunda çox ağır bir zərbə idi. Sonrakı illərdə Azərbaycanın xarici siyasətinin ABŞ istiqamətinin məqsədlərindən biri də məhz bu düzəlişin ləğv edilməsinə nail olmaq idi.

Azərbaycan alimi N. Məmmədov "Xarici siyasətin Azərbaycan modeli" monoqrafiyasında qeyd edirdi ki, ABŞ Azərbaycanı ilk tanıyan dövlət olsa da o

dövrdə hakimiyyətdə olan iqtidar xarici siyasət məsələlərində Amerika siyasətindən lazımınca bəhrələnə bilməmişdir. Bunun məntiqi nəticəsi olaraq ABŞ Azərbaycan münasibətlərində sipərə çevrilən 907 –ci maddə qəbul olunmuşdur. Bu, müstəqil dövlət quruculuğu yolunu tutmuş və zorla müharibəyə cəlb edilmiş dövlət üçün ağır bir zərbə idi. Siyasi və iqtisadi dəstəyə daha çox ehtiyac duyan Azərbaycan həmin illərdə Birləşmiş Ştatların maraq dairəsinə daxil olan ölkə deyildi[102,109-110].

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra müstəqil dövlətimizin ABŞ-a yönələn xarici siyasət xətti xüsusi xarakter aldı. ABŞ-la bərabərhüquqlu əməkdaşlıq və tərəfdaşlıq əsasında təşkil edilən qarşılıqlı münasibət 1993-cü ilin sonundan başlayaraq ardıcıl, intensiv və məqsədyönlü həyata keçirildi. Ölkəmizin xarici siyasət idarəsi rəsmi olaraq ABŞ-ın beynəlxalq köməyini əldə etmək vasitələri, həmçinin, Azərbaycan Respublikasının suverenliyi və təhlükəsizliyi məsələlərinə bu super dövlətin qoşulmasının üsul və metodlarını nəzərdən keçirilərək müəyyənləşdirirdi. Azərbaycanın rastlaşdığı Dağlıq Qarabağ problemi və erməni təcavüzünə ABŞ-ın rəsmi dairələrinin diqqətini çəkmək üçün, hökumət ölkənin beynəlxalq aləmə inteqrasiyasına və dünyada Azərbaycana yönələn ictimai rəyin müsbət istiqamət almasına zəmin yaradan düşünülmüş strateji kursa üstünlük verdi. Azərbaycanın müstəqil dövlətçilik və təhlükəsizlik problemlərinin həlli ABŞ-ın bölgədəki iqtisadi və siyasi maraqları ilə uzlaşdırılaraq fəal xarici siyasət yürüdülməyə başlandı.

Məhz Ulu Öndərin səyləri nəticəsində iki dövlət arasında qarşılıqlı əməkdaşlıq yeni səviyyədə qurulmuş, Vaşinqtonla Azərbaycan arasında yeni keyfiyyətli faydalı əməkdaşlıq əlaqələri formalaşmağa başlamışdı. Bu münasibətlərin qurulmasında, onların strateji xarakter almasında "Əsrin müqaviləsi" önəmli rol oynamış oldu. Məhz bu müqavilədən sonra Amerika-Azərbaycan əməkdaşlığının davamı olaraq yenidən Xəzər neftinin hasili və dünya bazarlarına nəqli ilə bağlı müxtəlif investisiya layihələri işlənib hazırlandı və müqavilələr bağlandı.

Keçən əsrin 90-cı illərinin əvvəlindən başlayaraq həyata keçirilən ciddi diplomatik fəaliyyət nəticəsində ABŞ-ın dövlət başçısı və rəsmi dairələrinin

ölkəmizə münasibəti əhəmiyyətli dərəcədə dəyişməyə məruz qalmış, Azərbaycan-ABŞ əməkdaşlığının bəzi strateji və taktiki problemləri nəzərdən keçirilmiş, iki dövlət arasında, eləcə də beynəlxalq və regional problemlərin müəyyən aktual məsələlərinə aid tərəflərin mövqelərinə aydınlıq gətirilmişdir. Bu iki dövlət ikitərəfli uğurlu əməkdaşlığa, hərtərəfli münasibətlərdə, xüsusilə, beynəlxalq və regional əməkdaşlıq sahəsində demokratik, sivil prinsiplərə, eləcə də Dağlıq Qarabağ məsələsi ilə bağlı beynəlxalq hüquq normalarına əsasən qərarlar qəbul etməyi vacib saymışlar. ABŞ-la əməkdaşlığın davamlı inkişafı Azərbaycan diplomatiyası qarşısında duran başlıca vəzifələrdən biri idi.

Ə. Həsənov Amerika-Azərbaycan münasibətlərini şərh edərkən yazır: “Təkcə 1994-cü ilin may-oktyabr aylarında Azərbaycana qarşı həyata keçirilən ədalətsiz siyasətə yenidən baxılması, 907-ci düzəlişin ləğv edilməsi ilə bağlı hökumətə, Senata və Konqresə müxtəlif səviyyələrdə bir neçə müraciət olmuşdur. Bunların içərisində may ayında senatorlar P.Saymons və Q.Reydin təklifləri, iyul ayında D.Konsini və Lixinin müraciətləri və başqaları daha böyük əhəmiyyət daşıyır. Ən maraqlısı isə ilk dəfə bu sənədlərdə Dağlıq Qarabağ ermənilərindən deyil, Ermənistan-Azərbaycan münaqişəsindən, ABŞ-ın əsl maraqları və erməni diasporunun təqdim etdiyi "Amerika maraqlarından" söhbət açılır və ədalətli qərarlar qəbul edilməsi tələb edilirdi” [277].

Diplomatik səylər nəticəsində ABŞ hökumətinin, onun müxtəlif qurumlarının Azərbaycana mövqeyində ciddi dəyişiklik baş verdi. Azərbaycana tətbiq edilən 907-ci düzəlişin aradan qaldırılması, Ermənistan-Azərbaycan münaqişəsinə düzgün qiymət verilməsi, Qafqaz regionuna münasibətdə başlıca prioritetlərin müəyyənləşməsi kimi strateji məsələlər ABŞ-ın nüfuzlu ictimai-siyasi dairələrində, eləcə də kütləvi informasiya vasitələrində, Konqresdə, bəzi beynəlxalq qurumlarda müzakirə obyektinə çevrildi.

1994-1996-cı illərdə ölkə dimplomatiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin mahiyyətini üzə çıxarmış, ABŞ-a Azərbaycanla əməkdaşlığın vacibliyini anlatmağa nail olmuşdur. Lakin politoloqlar və tarixçilər haqlı olaraq ABŞ-ın Azərbaycanı prioritet ölkə elan etməsində 1997-ci ili özünəməxsus bir

dönüş ili adlandırırlar. Bu dönüş, o dövürkü Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri ilə bağlı idi.

"907-ci düzəliş"in aradan qaldırılması istiqamətində həyata keşirilən tədbirlər 9 ildən sonra öz bəhrəsini verdi. Belə ki, 2001 – ci ildən etibarən "907-ci düzəliş" məsələsinin ləğvi ABŞ prezidentlərinin səlahiyyətinə verildi, yalnız silah satışı üzrə məhdudiyyət aradan qaldırıldı. Ancaq onun tamamilə ləğv edilməsi məsələsi hələ də öz həllini tapmamışdır. Baxmayaraq ki, bu məsələ daim Azərbaycan diplomatiyasının ciddi cəhdi ilə həll edilməyə çalışılır və Nümayəndələr palatası onun ləğvi haqqında hər il müəyyən qəraralar qəbul edir. ABŞ-ın siyasi dairələri qanunverici və dövlət nümayəndələri ilə yanaşı, Amerika neft kompaniyaları ilə yaradılmış konsorsiumlar da bu ölkədə Azərbaycana münasibətin müsbət istiqamətdə dəyişməsinə gətirib çıxarmışdır. Məhz enerji sahəsində əməkdaşlıq, onun möhkəm əsaslara söykənməsi Azərbaycan-ABŞ əlaqələrinin genişlənməsinə xüsusi təkan vermiş və iki ölkə arasında iqtisadi sahədə möhkəm münasibətlərin qurulmasına xidmət etmişdir. Ölkəmiz ABŞ-ın dövlət maraqlarına və dəyərlərinə zidd çıxan dövlətlər qrupundan, sivil və demokratik prinsiplərə müvafiq siyasət həyata keçirən insan və vətəndaş hüquq və azadlıqlarını müdafiə edən, ABŞ-ın Qafqaz bölgəsində başlıca iqtisadi müttəfiqi olan dövlətlər qrupunda təmsil olunmuşdur.

Ölkə diplomatiyası Azərbaycanın regional və beynəlxalq əhəmiyyətinin perspektivli olmasını, eləcə də iqtisadi baxımından faydalı olacağını və bu istiqamətlərdə ABŞ və Qərb dövlətləri üçün çox önəmli ola biləcəyini onlara inandırmaq məqsədilə gərgin səmərəli fəaliyyət göstərmiş, ABŞ-ın iqtisadi maraqlarına uyğun olan xeyli tədbirlər həyata keçirmişdir. Mövcud iqtisadi potensialdan istifadə etməklə ölkəmiz məqsədyönlü xarici siyasət, xüsusilə neft sahəsində yürütdüyü siyasət sayəsində nəinki ABŞ eləcə də Qərb ölkələri ilə iqtisadi münasibətlərə qədəm qoydu. ABŞ-ın ən iri şirkətləri Xəzərin neft yataqlarının istismar edilməsinə cəlb olundu. Bu respublikamız üçün xüsusi əhəmiyyəti olan vacib vəzifələrin həyata keçirilməsinə imkan yaratdı və beləliklə Azərbaycanla ABŞ arasında strateji münasibətlərin surətli inkişafına təkan verdi.

ABŞ-ın neft kompaniyalarının Azərbaycana çox böyük miqdarda investisiya qoyması respublikamızı Amerikanın iqtisadi tərəfdaşına çevirdi. Həmin ölkələrlə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa və tərəfdaşlığa nail olmaq müstəqil dövlətimizin möhkəmlənməsi və təhlükəsizliyi işində böyük irəliləyiş idi. "Qarşılıqlı sərmayə qoyuluşuna təminat almaq bütövlükdə Azərbaycanın suverenliyi və müstəqilliyinə təminat almaq demək idi. Qərb Cənubi Qafqazdakı layihələrə böyük miqdarda sərmayə qoyursa, onun təhlükəsizliyinin təmininə də ciddi diqqət yetirməli idi. Sərmayənin təhlükəsizliyi birbaşa Azərbaycandakı sabitlikdən asılıdır. Deməli, Azərbaycanın daxili sabitliyi ilə əlaqəli olan bütün proseslərdə Qərbin də marağı vardır. Bu baxımdan, Dağlıq Qarabağ məsələsi, Azərbaycanın tədrici demokratikləşməsi, qoyulan sərmayələrin qorunması kimi məsələlər Vaşinqtonun da maraq dairəsində qalır" [100, 138].

Azərbaycan Respublikası özünün müəyyənləşdirdiyi xarici siyasət kursu sayəsində Birləşmiş Ştatlarla normal münasibətlər yarada bilmişdir.

Azərbaycan üçün vacib olan bir çox məsələlərdə: dövlət müstəqilliyinin möhkəmlənməsində, ərazi bütövlüyünün qorunmasında, iqtisadi və siyasi islahatların tamamlanmasında, bazar münasibətlərinin dərinləşməsində ABŞ böyük rol oynadı. Bu dövlət Azərbaycanla hərtərəfli əməkdaşlığa yollar açdı. Belə ki, ticarət və kommersiya əlaqələri miqyaslı xarakter kəsb etdi. Didər tərəfdən də Xəzər dənizinin enerji ehtiyatlarının nəqlində ABŞ şirkətləri fəal təmsil olundu. Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan cəhət odur ki, ABŞ Azərbaycanın qlobal iqtisadi məkana inteqrasiyasına və ümumdünya Ticarət Təşkilarına üzv seçilməsinə və digər həyati məsələlərin həllinə kömək etmiş oldu.

ABŞ hökuməti Azərbaycanın bir sıra təşəbbüslərini - enerji siyasətini, yeni neft-qaz ixracı səylərini davamlı olaraq dəstəkləmişdir, transmilli layihələrə faydalı yardım göstərmişdir. Bütün bunlarla yanaşı Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasına, bununla əlaqədar olaraq qarşıya çıxan çətiniklərin və problemlərin aradan qalxmasına, "Sülh Naminə Tərəfdaşlıq Proqramı"nda və Avro-Atlantik Tərəfdaşlıq Şurasında təmsil olunnmasına çoxcəhətli fayda vermişdir.

Əlbəttə, belə qənaətə gəlmək olar ki, ABŞ xarici siyasətində Azərbaycana münasibətdə qarşıya qoyduğu məqsədlərə kifayət qədər nail olmuşdur. ABŞ-la yaradılan uğurlu qarşılıqlı əlaqə və əməkdaşlıq Azərbaycanın dövlət müstəqilliyinə, ərazi bütövlüyünə, beynəlxalq təhlükəsizliyinə töhfə bəxş etmişdir.

Bir sözlə, Azərbaycanın bir çox problemləri ABŞ-ın Qafqaz bölgəsindəki strateji mənafeyinə uyğunlaşdırılmış, Azərbaycanın dövlət maraqları ABŞ-ın siyasi və iqtisadi maraqları ilə uzlaşdırlımışdır. ABŞ-ın qüdrətli iqtisadi, texniki və texnoloji imkanları Azərbaycanın milli iqtisadiyyatının yüksəlişinə istiqamətlənmişdir. Ölkəmizin dünya birliyinə, beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiyası, dövlətlərarası münasibətlər sistemində sivil yer tutması məhz ABŞ-ın məqsədyönlü dəstəyi sayəisndə mümkün olmuşdur. Təsadüfi deyilki, Azərbaycanla ABŞ arasında hərtərəfli-hərbi, iqtisadi, maliyyə və ticarət səviyyəsində əməkdaşlığın gücləndirilməsi üçün müvafiq müqavilələr imzalanmışdır. Bütün bunlar ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək, dövlət müstəqilliyini möhkəmləndirmək, milli təhlükəsizliyi təmin etmək baxımından başlıca şərtdir. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, şöbə müdiri Əli Həsənovun ABŞ-la münasibətlərə dair açıqlamasında bildirir ki, Azərbaycanla ABŞ arasındakı dövlətlərarası münasibətlər bir neçə baxımdan üst-üstə düşür. Maraqların bu cür üst-üstə düşməsi iki ölkəni yaxın tərəfdaş edir [257].

Ümumiyyətlə, ötən illər ərzində Azərbaycan-ABŞ arasında bütün sahələrdə münasibətlər inkişaf etdirildi, ölkəmiz uğurlu daxili və xarici siyasət sahəsində dünya məkanında yüksək yer tutdu. Azərbaycan etibarlı tərəfdaş olmaqla yanaşı, beynəlxalq aləmdə siyasi, iqtisadi, mədəni cəhətdən tərəqqi yolu keçən bir ölkə kimi şöhrət qazandı. Makroiqtisadi sahədə uğurlara imza atan ölkəmiz, şaxələndirmə siyasəti yürüdərək əlverişli biznes və investisiya mühiti yaradan məkan kimi dünya ölkələrilə ikitərəfli və çoxtərəfli əlaqələr qurdu. Bütün bunlar Azərbaycan Respublikasının hər bir sahədə müstəqil, öz sözü olan və müəyyənləşmiş xarici siyasət kursuna malik olan bir dövlət olduğunu sübüt etdi.

# II FƏSİL
# AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ: SİYASİ ƏLAQƏLƏRİN YARANMASI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Müstəqilliyin əldə edilməsi dövründə Azərbaycan Respublikasına münasibətdə ABŞ-ın xarici siyasəti

ABŞ-la Azərbaycan Respublikası arasında ilk diplomatik münasibətlərin qurulması AXC dövründə baş vermişdir. 1918-ci il mayın 28-də elan olunmuş Azərbaycan Milli Şurasının Bəyannaməsində AXC-nin suveren, demokratik respublika olduğu, "hamı ilə, xüsusilə qonşu xalqlar və dövlətlərlə dostluq əlaqələri yaratmağı" qərara alındı. Tezliklə Azərbaycanda parlament üsul-idarəsi təsis edildi. Yeni hökuməti quranlar bu tip üsul-idarənin bərqərar olmasını ABŞ və Avropa dövlətləri ilə əlaqələrin yaradılmasında mühüm addım hesab etdilər. Yenicə yaradılmış Azərbaycan parlamentində dünya xalqlarına və parlamentlərinə, ABŞ prezidenti V.Vilsona müraciət qəbul edildi. 1918-ci ildə AXC müstəqilliyinin tanınmasına əngəl törədən Mudros barışığından sonra hökumət üzvləri milli dövlətin tanınması istiqamətində ciddi cəhdlər etdilər: "Bu məqsədlə noyabrın 10-da Baş nazir F.Xoyski və Xarici işlər naziri vəzifəsini icra edən Adilxan Ziyadxan ABŞ-ın prezidenti V.Vilsona müraciətində Azərbaycan Respublikasının müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına köməklik göstərməyi xahiş etdilər. Bildiyimiz kimi, həmin dövrdə ABŞ dünyada gedən ictimai-siyasi proseslərə təsir

göstərən dövlətə çevrilmişdi. V.Vilson isə müharibədən sonrakı (söhbət I Dünya müharibəsindən gedir- Ş.M.) dövrdə dövlətlərarası münasibətlərdə yenidənqurmanın banisi hesab edilirdi" [79, 68].

Birinci Dünya Müharibəsindən sonra qalib dövlətlərin çağırdığı Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınmasına ümid bəslənilirdi.

Azərbaycan konfransda Cənubi Qafqaz Respublikalarının vahid nümayəndəliklə iştirak etməsinə çalışırdı. Belə ki, yaranmış tarixi şərait azərbaycanlıların, gürcülərin və ermənilərin dövlət müstəqilliklərinin tanınması üçün onların birgə fəaliyyət göstərməsini zərurətə çevirdi. Məhz, buna görə də Cənubi Qafqaz konfederativ nümayəndəliklərinin yaradılması məqsədilə memorandum ABŞ, İngiltərə, Fransa, İtaliya, Yunanıstan və Yaponiya nümayəndələrinə təqdim edildi. Erməni lobbisinin təsiri ilə Fransa hökuməti Ə.M. Topçubaşovun Parisə getməsinə mane oldu. Onun əvəzinə nümayəndə heyətinə M.H.Hacınski başçı təyin edildi.

1919-cu il mayın 18-də Ə.M.Topçubaşov ABŞ-ın Paris konfransındakı nümayəndə heyətinin üzvü C.Morgentau ilə görüşüb ABŞ-nın Azərbaycan hökümətinə maliyyə yardımı göstərməsini müzakirə etdi.

ABŞ prezidenti V.Vilson tərəfindən mayın 28-də Azərbaycan nümayəndə heyətinin qəbul edilməsi mühüm hadisə idi. Nümayəndə heyətinə başçılıq edən Ə.M.Topçubaşov Azərbaycanın Millətlər Cəmiyyətinə üzv olması üçün ABŞ prezidenti V.Vilsona müraciət etdi, həmçinin də Azərbaycana yardım göstərəcəyinə ümid etdiyini bildirdi. Eləcə də bildirdi ki, Avropa və Amerika mətbuatında Azərbaycan haqqında qərəzli yazılar çap olunur. Ə.M.Topçubaşov qeyd etdi ki, bu konfransda əsl həqiqətlərin çatdırılması üçün imkan yaradılmışdır. O, həm də azərbaycanlılarla yanaşı, gürcülərin, ermənilərin və dağlıların konfederasiyasını yaratmaq imkanı barədə fikirlərini vurğuladı. Bununla bağlı Qafqaz Azərbaycan Respublikası nümayəndələri tərəfindən hazırlanan və göndərilən memorandumu ABŞ prezidenti V.Vilsona təqdim etdi.

Azərbaycan nümayəndə heyətinin V.Vilsonla görüşdə təqdim etdiyi 6 maddədən ibarət olan memorondumda irəli sürülən əsas tələblər kimi müstəqilliyin tanınması, dövlətlərimiz arasında qarşılıqlı əlaqələrin yaradılması, hərbi yardımın göstərilməsi məsələləri öz əksini tapırdı [79, 71].

ABŞ 1919-1920-ci illərdə Qafqaz və Azərbaycan mandatı üzərində mübarizəyə başladı. Müəyyən şərtlərlə, respublikanın daxili işlərinə müdaxilə etməyəcəyi təqdirdə Azərbaycan nümayəndələri Amerika himayəsinə razı idilər.

Ermənistana ABŞ polkovniki Haskelin müttəfiqlərin ali komissarı təyin edilməsi Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Qısaca olaraq deyək ki, ermənilər indi ABŞ vasitəsilə Azərbaycana olan ərazi iddialarını həll etmək istəyirdilər. Avqustun ortalarında daşnak parlamentində çıxış edən Haskel ermənilərin ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Ermənilər bu dəfə Qarabağ və Zəngəzur məsələlərini deyil, Naxçıvan və Şərur-Dərələyəz məsələlərini həll etmək istəyirdilər. Haskel öz çıxışında bildirirdi ki, Azərbaycan höküməti bu qəzalarla bağlı ermənilərin iddialarını qəbul etməsə, onlar "şəxsi məsuliyyət daçıyacaqlar" [77, 262].

ABŞ-AXC münasibətlərini aydın təsəvvür etmək üçün əsas sənəd Azərbaycan Respublikasnın Paris sülh konfransındakı nümayəndə heyətinin 16 avqust 1920-ci il tarixli (572 saylı) "Amerika Birləşmiş Ştatlarının Parisdəki səfirinə" məktubu idi. Məktubda ABŞ-ın Rusiya dövlətinin gələcəyi ilə bağlı notalarının mahiyyəti açıqlanır. Məlum olur ki, "...Azərbaycan xalqı Rusiya dövlətindən hansı formada olmağından asılı olmayaraq ayrılmaq istərdi. Azərbaycanın nümayəndə heyəti inanmaq istərdi ki, böyük transatlantik respublika və onun tanınmış başçısı, millətlərə müqəddəratlarını özlərinin təyin edilməsi hüququ verilməsi kimi ideyanı irəli sürmüş prezident V.Vilson kiçik Azərbaycan xalqının artıq həyata keçirmiş olduğu öz müqəddaratını təyinetmə hüququnu tanıyacaqdır və Azərbaycan xalqı bunun yolunda bütün qurbanlara hazırdır " [77, 108].

Təəssüf olsun ki, Azərbaycanın haqq səsi V.Vilson tərəfindən eşidilmədi. Azərbaycanın müstəqilliyi ABŞ tərəfindən tanınmadı. V.Vilson "Qafqaz Azərbaycanı Respublikasının nümayəndə heyətinin Paris sülh konfransına

memorandumu" adlı sənədi sülh konfransının katibliyinə təqdim edilməsini xahiş etdi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti-ABŞ münasibətləri lazımi səviyyəyə qalxmadı, çünki bu münasibətlər ikili standartlar mövqeyində qurulmuşdu.

Müasir dövrdə isə ABŞ 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 1992-ci il 18 martdan etibarən isə iki dövlət arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanla ABŞ-ın qarşılqlı münasibətlərinin əsası məhz XX əsrin 90-cı illərində müstəqil Azərbaycanın mürəkkəb ölkədaxili və beynəlxalq vəziyyətində xarici siyasət kursunun, milli və regional təhlükəsizlik konsepsiyalarının formalaşdığı dövrdə qoyulmuşdur. SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin meydana gəlməsi ilə Xəzəryanı regionda geosiyasi şərait dəyişdi. Onlar Rusiyanın siyasi və iqtisadi siyasət asılılığından yaxa qurtarmaq, öz milli sektorlarına nəzarət etmək strategiyasını həyata keçirməyə başladılar. Digər Xəzəryanı ölkələr kimi Azərbaycan da dünya iqtisadiyyatına inteqrasiya olunmağa cəhd edirdi. Bu mənada, Azərbaycan Respublikası da ABŞ-ın milli maraq dairəsinə daxil olan ölkə kimi bu super dövlətdən yardım əldə etməyə, ABŞ-ın neft şirkətlərilə və investorları ilə sıx əlaqə yaratmağa başladı.

ABŞ-ın Xəzər regionuna maraqları kompleks xarakter daşıyırdı. Buraya iqtisadi, siyasi, humanitar və hərbi maraqlar daxil idi. Vaşinqton regiona təkcə iqtisadi tələbatlarını ödəmək vasitəsi deyil, həm də hərbi-siyasi ambisiyalarının ödənilməsi vasitəsi kimi nəzərdən keçirirdi. 1990-cı illərdə Azərbaycanda daxili siyasi mübarizə xarici siyasət yönümü ilə əlaqədar daha kəskin xarakter daşımağa başladı. Müstəqillik əldə etdikdən sonra Müstəqillik Bəyannaməsində yeni Azərbaycanın xarici siyasətinin kənardan müdaxilə olmadan müstəqil, qarşılıqlı faydalı əməkdaşlıq əsasında yürüdülməsi mühüm yer tuturdu. Yeni Azərbaycanın xarici siyasət yönümü hakimiyyətdə olan siyasi liderlərin ideologiyası ilə sıx bağlı idi. Rusiya yönümlü A.Mütəllibov ölkənin MDB-yə daxil olmasına razılıq verdi. Xalq cəbhəsinin hakimiyyəti dövründə Azərbaycan Xalq Cəbhəsinin lideri Ə.Elçibəy Rusiya və İranla münasibətləri kəskinləşdirdi. ABŞ, Türkiyə və Avropa İttifaqı ölkələr ilə münasibətləri önə çəkdi, onları ölkəyə strateji müttəfiq kimi seçdi.

Rusiya və İran Azərbaycanın düşməni elan edildi. "Adriatik dənizindən tutmuş Böyük Çin səddinədək Böyük türk dünyasının yaradılması", "əzilən cənubi azərbaycanlıların azad olunması" bəyan edildi.

ABŞ hökuməti SSRİ-dən ayrılmış yeni müstəqil ölkələri, o cümlədən Azərbaycanı hərtərəfli öyrənməyə çalışırdı. Azərbaycan məhz bu dövrdə hüquqi dövlət quruculuğuna başlamışdı. Lakin xarici siyasətin düzgün aparılmaması səbəbindən ABŞ-la Azərbaycanın münasibətləri pisləşdi.

1993-cü ildə Ümummilli lider H.Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra ABŞ-la Azərbaycan arasında dialoq başlandı. H.Əliyev beynəlxalq investorları Xəzər dənizində Azərbaycanın enerji sektoruna cəlb edə bildi.

ABŞ Prezidenti Bill Klintonun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə yazdığı 29 avqust 1994-cü il tarixli məktubunda deyilirdi: "Əziz cənab Prezident! Azərbaycanda səfərdə olan səfir Madelin Olbraytla sizin görüşünüzlə əlaqədar olaraq razılıq hissini bildirirəm. O, BMT-də bizim daimi nümayəndəmiz, mənim kabinetimin və Milli Təhlükəsizlik Şurasının üzvü kimi sizin regiona, Şərqi Avropaya və Rusiyaya səfər edəcəkdir.

O, mənim etibarlı məsləhətçim və dostumdur. Mən onu şəxsi nümayəndəm kimi, ölkələrimizin qarşılaşdığı çoxşaxəli iqtisadi, siyasi məsələləri sizinlə müzakirə etmək üçün göndərmişəm" [46,1].

Bundan sonra ABŞ-la Azərbaycan Respublikası arasında qarşılıqlı münasibətlərin yaradılması üçün hüquqi baza yaradıldı.

Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan dünya arenasında müstəqil dövlət kimi tanındı və şöhrət qazandı. Heydər Əliyevin uğurla tətbiq etdiyi "neft strategiyası" Azərbaycanı ABŞ-ın geoiqtisadi və geosiyasi maraq dairəsinə daxil etdi.

ABŞ-ın Azərbaycanla qarşılıqlı münasibətlərində üç əsas prinsip mühüm yer tuturdu:

1. Enerji ehtiyatlarının təmin olunması məsələsində etibarlılıq səviyyəsinin yüksəldilməsi;

2. Geostrateji vəzifələrin həlli;

3. Kommersiya imkanlarının inkişafı.

Bu dövrdə ABŞ da Yaxın Şərq neftinin asılılığından qurtarmaq, öz enerji təhlükəsizliyini təmin etmək üçün yeni alternativ yollardan istifadəyə üstünlük verirdi. Pol Qoblun təbiri ilə desək: "Demokratikləşdirmə və iqtisadi islahatlar, ölkənin enerji sahəsinin inkişafı deməyə imkan verir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən zəngin ölkələrindən birinə çevriləcək. Yaxın Şərqdən asılılığa son qoymaq üçün bu neftdən istifadənin vacibliyi ABŞ qarşısında mühüm məsələ kimi dururdu" [264]. Qeyd edək ki, neft sahəsində ilk danışıqlar hələ 1990-cı illin əvvəllərinə təsadüf edir. Bu müddətdən Qərbin nəhəng neft şirkətləri ilə əlaqələr qurulmuş, neft sahələrinin istismarı ilə bağlı yeni texnologiyalar ölkəyə cəlb edilmişdir. Amma ona da diqqət etmək lazımdır ki, bu danışıqlar sistemsiz aparılmış və xarici siyasət kursunun tam müəyyənləşməməsi səbəbindən konkret nəticələrə gətirib çıxarmamışdır. Həmçinin Mütəllibov hökuməti dövründə ölkə daxilindəki qeyri-sabitlik, siyasi xaos neft strategiyasının formalaşması ondan xarici siyasətdə istifadə etməyə mane olmuş, xarici investisiyaların ölkəyə cəlb edilməsi istiqamətindəki işləri çətinləşdirmişdir. Nəzərə almaq lazımdır ki, Mütəllibov hökumətinin Rusiyadan daha çox asılı olaraq siyasi xətt yeritməsi, Qarabağ məsələsi ilə əlaqədar olaraq erməni lobbisinin anti-Azərbaycan fəaliyyəti də ABŞ-Azərbaycan əlaqələrinin qurulması işini ləngidən amillər kimi çıxış etmişdir. Mütəllibov hökumətinin devrilməsindən sonra hakimiyyətə gələn Xalq Cəbhəsi hökuməti neft amilindən istifadəyə çalışmış və 1992-ci ildə Oman və Qazaxıstanın təşəbbüsü ilə Xəzər neft borusu konsorsiumuna imza atmışdı [135,26]. Amma bu istiqamətdə neftin aparılmasında Rusiyanın hakim mövqe tutması açıq-aşkar anti-Rusiya mövqeyi tutan Xalq cəbhəsi hökumətinin siyasi maraqlarını təmin etmirdi. Əlbəttə ki, İrana qarşı da eyni mövqeyi tutan bu qüvvələr həmin razılaşmadan razı qala bilməzdilər. Cahangir Xəlilov haqlı olaraq qeyd edir ki, məhz bu dövrdən etibarən neft borusu artıq təkcə iqtisadi deyil, geosiyasi bir anlama gəlmişdir [221].

Azərbaycan hökuməti bu dövrdə, münasibətlərin belə çətin bir vaxtında ABŞ-la qarşıya çıxan anlaşılmazlıqları həll etmək üçün daha bir addım atdı. Bu isə yaxın

gələcəkdə Azərbaycan reallıqlarının ABŞ-da tanınmasına imkanlar açdı. Bu addım Vaşinqtonda Azərbaycan səfirliyinin yaradılması idi. Azərbaycan Respublikası prezidentinin 1992-ci il 13 noyabr tarixli fərmanı ilə Hafiz Mircəlal oğlu Paşayev ABŞ-da fövqəladə və səlahiyyətli səfir təyin olundu. Səfirlik ilk növbədə Azərbaycan-ABŞ münasibətlərinin nizama salınması və "907-ci maddənin" ləğvinə nail olmalı idi. Bu məqsədlə səfir Hafiz Paşayev aktiv fəaliyyətə başlayaraq bir sıra çox mühüm görüşlər keçirdi. O, 1993-cü il martın 6-da konqresmen Gilman ilə görüşdü, martın 8-də ABŞ Konqresinin Avropada təhlükəsizlik və əməkdaşlıq komissiyasının qarşısında çıxış etdi, martın 9-da ABŞ Konqresinin Helsinski komissiyasının dinləmələrində iştirak etdi, martın 12-də ABŞ dövlət departamentinin xüsusi nümayəndəsi səfir Con Marseka ilə görüşüb iki dövlət arasında münasibətlərin tənzimlənməsində mühüm addımlar atdı. Həmin çıxışların hər birində Dağlıq Qarabağ problemindəki reallıqların üzə çıxarılması, qaçqınlar məsələsi, Azərbaycanın ağır ictimai-siyasi vəziyyəti ön plana çəkilərək, onlara diqqətin vacibliyi qeyd olunurdu. Nəhayət diplomatik fəaliyyət öz nəticəsini verməyə başladı. Belə ki:

- Bəzi koqresmenlər Qarabağ münaqişəsinə yanaşmada tərəfsiz, neytral mövqelər nümayiş etdirməyə başladı;
- Qaçqınlar məsələsi ABŞ-da gündəmə gətirildi və ona daha diqqətlə yanaşıldı;
- Mətbuatla əlaqələrin qurulması asanlaşdırıldı;
- ABŞ tərəfindən Naxçıvana 800 min dollarlıq tibbi ləvazimat göndərildi [89, 162];
- Gələcəkdə erməni işğallarının pislənməsi və onların qarşısının alınmasında müəyyən addımların atılması üçün zəmin yaradıldı;
- Digər sahələrdə də əməkdaşlıq üçün şərait yaradıldı.

Məhz, bu məqsədyönlü fəaliyyətin nəticəsində 1993-cü il aprelin 6-da ABŞ dövlət departamenti Kəlbəcərin işğalını pislədi, erməni qüvvələrinin Kəlbəcərdən çıxarılmasını tələb etdi. Prezident Bill Klinton da Kəlbəcərin işğalını pislədi [89,163].

Bu dövrdə BMT Təhlükəsizlik Şurası 822-ci qətnaməni qəbul etdi ki, burada da erməni işğalları pislənirdi. ABŞ tərəfi Minsk qrupunun fəaliyyətinin aktivləşdirərək, ATƏM çərçivəsində danışıqlar yolu ilə Qarabağ probleminin həllində maraqlı olduğunu bildirərək, bu istiqamətdəki fəaliyyətdə Azərbaycana yardım edəcəyini nümayiş etdirdi. Bu məqsədlə regiona 2 milyon dolларadək vəsait ayırmağa hazır olduğunu bildirdi [89, 163].

1993-cü il aprelin 14-də Hafiz Paşayev etimadnaməsini ABŞ prezidenti Bill Klintona təqdim etdi və 25 dəqiqəlik təqdimat mərasimində səfir Azərbaycan reallıqları ilə ABŞ prezidentini tanış etdi, Qarabağ münaqişəsindəki vəziyyəti, Azərbaycan-ABŞ münasibətlərinin gələcəyi haqqında fikirlərini bölüşdü.

Bu görüşün nəticəsində ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağ üzrə danışıqlarda nümayəndəsi Con Marseka [12], yeni müstəqil dövlət üzrə müşavir Stroub Talbott Bakıya gəldilər [141]. Azərbaycan-ABŞ münasibətlərində müəyyən normallaşma nəzərə çarpsa da, bir sıra amillər bu münasibətlərin dərinləşməsinə mane olurdu. Bu amilləri ilk növbədə Elçibəy hökumətinin ABŞ-da yaratdığı sərt imiclə, erməni lobbisinin anti-Azərbaycan fəaliyyəti ilə, eyni zamanda Azərbaycan Respublikasındakı daxili siyasi böhranla əlaqələndirmək olar.

Digər tərəfdən Xalq Cəbhəsi hökumətinin səriştəsizliyi, Azərbaycanın haqq işi uğrunda apardığı mübarizənin qeyri-adekvat şəkildə dünyaya təqdim edilməsi, idarəetmə bacarığının zəifliyi və digər amillər fəal xarici siyasət aparmağa mane olurdu. Çünki, hər bir dövlət və ictimai qruplar tərəfindən istənilən ifrat millətçilik meylləri mənfi qarşılanır və antipatiya yaradaraq hər bir dövlətin imicinə zərbə vurur. Heydər Əliyevin Respublikaya rəhbərlik etməsindən başlayaraq artıq Azərbaycan-ABŞ münasibətlərində ciddi dəyişikliklər yaranmağa başladı. Bu uğurlar ilk növbədə Ümummilli liderin balanslaşdırılmış və məqsədəuyğun siyasət aparması ilə əlaqədar idi. Baxmayaraq ki, 1993-cü ildə Azərbaycanda daxili xaos, hakimiyyət uğrunda müxtəlif qruplar arasında mübarizə hələ də davam edir, erməni təcavüzü isə yeni vüsət alırdı. Bu zaman Azərbaycan Respublikasının xarici siyasətində əsas məsələ kimi müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunması məsələsi ən mühüm amilə çevrilmişdi [89, 165]. Bu məsələlərin həlli çevik xarici

siyasət yeritməkdən son dərəcə asılı idi. Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev Heydər Əliyevin tapşırığı ilə ABŞ-ın vitse prezidenti Albert Qora və dövlət katibi Uorren Kristoferə məktub göndərərək ABŞ-ı Azərbaycana humanitar yardım etməyə, erməni təcavüzü və qaçqın problemlərinin həlli ilə əlaqədar məsələlərdə obyektiv mövqe tutmağa çağırdı [110, 59]. Lakin ABŞ Konqresindəki ermənipərəst qüvvələr heç bir vəchlə ABŞ-ın Azərbaycana olan münasibətinin normallaşmasına imkan yaratmaq istəmir, hətta daim buna mane olmağa çalışırdılar. Ermənistan dövlət səviyyəsində özünün Azərbaycana qarşı təcavüzkar siyasətini pərdələməyə çalışırdı. Ancaq Azərbaycanın iqtisadi potensialı və regiondakı üstün mövqeyi və ABŞ-ın buradakı iqtisadi maraqları, eyni zamanda Azərbaycan tərəfinin apardığı aktiv siyasət iki dövlət arasında münasibətlərin yeni kontekstlər çərçivəsində həllini zəruri edirdi. Stroub Talbottun 1993-cü il sentyabrın 9-da etdiyi çıxış bir daha deyilənləri təsdiqləyir. O, çıxışında bildirirdi: ”Azərbaycana yardım proqramının məhdudlaşdırılması xarici siyasət məqsədlərimizə mane olur” [89, 167]. Eyni zamanda, ABŞ-ın regiona fəal təsirinin olmaması təkcə onun iqtisadi maraqlarına deyil, eləcə də siyasi mənafeyinə də uyğun deyildi. Bu, regionda Rusiya və İran təsirinin güclənməsinə gətirib çıxara və nəticə etibarı ilə ABŞ-ın regiondakı milli maraqlarına zərbə ola bilərdi. Prezident Bill Klinton adminstransiyası bütün bunları nəzərə alaraq Ümummilli lider Heydər Əliyevə cavab məktubu göndərdi. Bu məktubda Azərbaycanda olan mövcud şəraitə münasibət bildirilir və hər iki dövlət arasındakı münasibətlərin yaxşılaşdırılması istiqamətində işlərin aparılması məsələləri qoyulurdu. Bu danışıqların yekun nəticəsi kimi isə ABŞ-ın Azərbaycana qeyri-hökumət təşkilatları vasitəsilə yardımına nail olundu [89, 168]. Ən mühüm addımlardan biri isə aparılan siyasət nəticəsində iqtisadi münasibətlərin formalaşdırılması, ABŞ-ın enerji siyasətində Azərbaycanın yerinin müəyyənləşdirilməsi oldu.Bu baxımdan ABŞ-ın energetika nazirinin müavini Uilyam Uaytın Azərbaycana səfəri mühüm hadisə oldu. Siyasi baxımdan uğurlardan biri isə ABŞ departamentinin Ermənistan silahlı qüvvələrinin hücumlarından narahat olduğunu bildirməsi və onların pislənməsi, eyni zamanda işğal olunmuş ərazilərin boşaldılmasının tələb edilməsi idi [110, 62, 64]. Beləliklə, artıq 1993-cü

ilin II yarısından başlayaraq Azərbaycan-ABŞ münasibətlərində müəyyən canlanma yaranır, ABŞ-ın Azərbaycana olan diqqəti artmağa başlayırdı. 1993-cü ili bir sıra tədqiqatçılar axtarışlar və yaxından tanınma ili kimi qəbul edirlər [89, 169]. Fikrimizcə, bu dövrü Azərbaycanın öz məqsədyönlü xarici siyasət xəttini müəyyənləşdirməsi, xarici dövlətlərlə konkret maraqlar çərçivəsində münasibətlərin qurulması ili kimi də qəbul etmək olar.

Tədqiqatçılardan Ə.Bayramova, Ə.Həsənov, O.İ.Çernyayaveski də Azərbaycan-ABŞ münasibətlərinin qurulmasında və gələcək siyasi xəttin formalaşmasında bu dövrdəki fəaliyyəti xüsusilə yüksək qiymətləndirirlər. Çünki, məhz 1993-cü ildə ABŞ Azərbaycan Respublikası ilə həm iqtisadi, həm də siyasi sahədə münasibətlərini yeni kontekstdə qurmağa başlamış və gələcək siyasi münasibətlərin çizgiləri müəyyənləşmişdir.

1994-cü ildən etibarən isə daha konkret, dəqiq maraqlar və məqsədlər çərçivəsində daha çevik siyasi xətt aparmağa başlayan Azərbaycan Respublikası bu siyasətin reallaşmasında ABŞ-ın dəstəyindən mümkün qədər maksimum istifadəyə çalışmışdır. Ümummilli Lider Heydər Əliyev dövlətlərimiz arasında münasibətlərin möhkəmləndirilməsi məqsədilə bir sıra addımlar atmağa başlamışdı ki, onlardan ən mühümü xarici iqtisadi əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi idi. Belə ki, hakimiyyətə gəldiyi ilk gündən etibarən Heydər Əliyev xarici neft şirkətləri ilə danışıqlara başlamış və neft strategiyasının formalaşdırılmasına, eləcə də iqtisadi amildən xarici siyasi əlaqələrin möhkəmləndirilməsi üçün istifadə etməyə çalışmışdır. Bu zaman Ümummilli lider bəzi xarici neft şirkətləri ilə danışıqlar aparmış, yalnız Azərbaycanın xeyrinə olan, milli maraqlarımıza uyğun olan şərtlər daxilində xarici şirkətlərin cəlb edilməsinə üstünlük vermişdir.

Doğrudur, 1993-cü ilin sonuna qədər Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ABŞ-ın Ermənistanın mənafeyini əks etdirən bəyanatları hələ davam etsə də, artıq Azərbaycan mənafeyinin tanınması ilə bağlı fikirlər də okeanın o tayından eşidilməkdə idi. Əli Həsənovun təbiri ilə desək, “Ermənilər bu dövrdə istəklərinə qismən nail olsalar da, Azərbaycanda 1993-cü ilin yayında baş verən ictimai-siyasi

dəyişikliklər və bunun nəticəsində Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması onların çirkin əməllərinin qarşısına sipər çəkdi” [79, 151].

Heydər Əliyev 1993-cü ilin sentyabr ayında ABŞ prezidenti Bill Klintona, vitse-prezident Albert Qora və digər konqresnemlərə Azərbaycan gerçəkliklərinin mahiyyətini açıqlayan məktublar göndərdi və onların obyektiv mövqe tutmasını xahiş etdi. Bu məqsədyönlü addımların nəticəsində Azərbaycan-ABŞ münasibətlərindəki “buz əriməyə” və erməni təsirlərinə qarşı etibarlı sipər çəkilməyə başlanmışdır. Buna misal olaraq 1993-cü ilin sentyabrında ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Stroub Talbottun Azərbaycan rəhbərliyinə təqdim etdiyi AŞB prezidentinin cavab məktubunu göstərmək olar. Bu məktubda ABŞ-ın Azərbaycandakı vəziyyətdən narahatçılığı ifadə olunmaqla bərabər, ərazi bütövlüyümüzün təhlükədə qalması pislənir, həmçinin “907-ci düzəliş” qalmaqla bərabər, qeyri-hökumət təşkilatlar xətti ilə Azərbaycana kömək göstəriləcəyinə söz verilirdi .

1994-cü il Azərbaycan-ABŞ münasibətlərini araşdıran tədqiqatçılar tərəfindən Azərbaycan-ABŞ mövqelərinin yaxınlaşması [89, 169], ikitərəfli münasibətlərin yüksələn xətlə inkişafı [80, 155] dövrü kimi xarakterizə olunur. Məhz bu ildə ABŞ Azərbaycana yeni səfirini - Riçard Kozlariçi təyin etdi.

1994-cü il iyunun 10-da Heydər Əliyevin Türkiyəyə səfəri zamanı ABŞ dövlət katibi Uorren Kristoferlə görüşü iki dövlətin yaxınlaşmasına təkan verdi. Bu görüşdə bir sıra məsələlər araşdırıldı. Onlara aşağıdakılar aid edilir:

- Qarabağ münaqişəsi bir dövlətin inhisarında deyil, beynəlxalq sülh səyləri ilə həll edilməlidir;
- Azərbaycan ABŞ-ın regiondakı siyasətinin fəallaşdırılmasında maraqlıdır;
- İki ölkə arasında münsibətlərin dərinləşdirilməsi qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq prinsiplər çərçivəsində aparılmalıdır;
- Enerji təhlükəsizliyi məsələlərində qarşılıqlı mənafelər işlənib hazırlanmalıdır.

Bu danışıqların nəticələri özünü çox gözlətmədi. Tezliklə ABŞ tərəfindən onun Azərbaycana marağının artmasını göstərən siyasi-iqtisadi addımlar atılmağa

başnladı. Bu siyasi addımlar ilk növbədə enerji təhlükəsizliyi problemlərinin həlli istiqamətində oldu. Buna misal olaraq ABŞ prezidenti Bill Klintonun Xəzər siyasəti ilə məşğul olan işçi qrup yaratmasını, 1994-cü ilin sentyabrın 3-də ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbraytın Azərbaycana səfərini göstərmək olar. Bu görüşdə mövcud vəziyyət müzakirə olunaraq, Heydər Əliyev hökumətinin Azərbaycanda demokratik respublika qurmaq əzmi alqışlanmış, həmçinin Qarabağ münaqişəsinin həlli məsələsində başlıca rolun Rusiyadan ATƏM-ə keçməsinə hər cür yardım göstəriləcəyi qeyd olunmuş, Xəzər dənizinin Azərbaycan sektorundakı neft hasilatına dair müqavilənin imzalanmasının vacibliyi vurğulanmışdır [89,169]. İki dövlət arasında münasibətlərin yaxşılaşdırılmasında 1994-cü ilin sentyabrın 6-da Qahirədə baş tutan ABŞ-ın vitse-prezidenti Albert Qor ilə görüşün də mühüm əhəmiyyəti olmuş, burada bir daha Azərbaycanın ərazi bütövlüyü məsələsi gündəmə gətirilmiş, neft müqaviləsinin imzalanması məsələlərinə toxunulmuşdur. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsinin" imzalanması ilə iki dövlət arasındakı münasibətlər yeni mərhələyə keçmiş, strateji əməkdaşlıq səciyyəsi almışdır. 1994-cü ilin sentyabrında Nyu-Yorkda BMT Baş Məclisinin 49-cu sessiyası dövründə Heydər Əliyevlə Bill Klintonun görüşü Azərbaycan-ABŞ münasibətlərində möhkəm əsasların qurulması kimi qəbul edilməlidir. Burada ABŞ prezidenti ilk dəfə olaraq rəsmi şəkildə bildirdi ki, Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini müdafiə edir, münaqişə tərəfi kimi isə Ermənistanı görür.

Beləliklə, 1993-1994-cü illəri Azərbaycan-ABŞ münasibətlərində çox əhəmiyyətli bir mərhələ kimi qiymətləndirmək olar. Professor Hafiz Paşayev bu dövrü iki dövlət arasında tanışlıq dövrü kimi qiymətləndirərək yazır: "...bu görüş (1994-cü il Nyu-Yorkda BMT-nin 49-cu sessiyası çərçivəsində Heydər Əliyevlə Bill Klintonun görüşü-Ş.Məmmədov) ABŞ ilə Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin ilk araşdırma mərhələsini başa çatdırdı" [110,82].

Azərbaycan tədqiqatçısı Musa Qasımlı isə bu mərhələni belə səciyyələndirir:

"- ABŞ-da erməni təbliğatına dair alternativ fikir yaranmağa başladı;

- Ermənistan-Azərbaycan münaqişəsinin əsl mahiyyəti bilindi;
- Münaqişənin aradan qaldırılması üçün diplomatik səylər genişləndi;

- ABŞ-ın Azərbaycanda maraqları tam aydınlaşdı;

- ABŞ ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmaq üçün əlavə imkanlar əldə edildi;

- "Əsrin müqaviləsi"nin imzalanması ilə maddi təməlləri möhkəmləndirildi" [89,173].

Professor Əli Həsənov bu dövrü "1993-cü ildən ABŞ-la münasibətlər sahəsində Azərbaycanın xarici siyasəti qarşısında qoyulmuş bütün strateji və taktiki vəzifələrin müvəffəqiyyətlə həyata keçməsi və bu sahədə nəzərdə tutulan bütün məqsədlərə nail olunması" dövrü kimi qiymətləndirir [79, 183]. Sonra isə müəllif əldə olunan nəticələr haqqında belə yazır: "Azərbaycan Amerikanın Qafqaz bölgəsində əsas siyasi, iqtisadi partnyorudur və arzuolunan dövlətlər qrupuna müvəffəqiyyətlə daxil olmuşdur" [79, 183].

Digər tədqiqatçılardan Ə.Bayramova, C. Xəlilov, N.Məmmədov 1993-1994-cü illər dönəmini Azərbaycan Respublikasının ABŞ-la münasibətlərində dönüş illəri kimi qiymətləndirərək, Azərbaycan xarici siyasətində müəyyənləşmiş və aydın xarici siyasət strategiyasının formalaşması mərhələsi kimi qəbul edirlər.

Beləliklə, 1993-1994-cü illərdə aparılmış məqsədyönlü və balanslaşan xarici siyasət strategiyası nəticəsində Azərbaycan-ABŞ münasibətlərində aşağıdakılara nail olundu:

- Azərbaycan Respublikası ABŞ tərəfindən əsas siyasi, iqtisadi müttəfiq kimi qəbul edilməyə başlandı;
- Qarabağ münaqişəsində Azərbaycanın mövqeyi aydın şəkildə ABŞ-a çatdırıldı;
- Erməni lobbisinin anti-Azərbaycan təbliğatının qarşısı alınmağa başlandı;
- ABŞ hakim dairələrində azərbaycanpərəst qüvvələrin formalaşdırılmasına başlandı;
- Qafqaz regionunda Azərbaycan ABŞ-ın əsas diqqət yetirməli olduğu dövlətlərdən biri olmasına nail oldu;
- Qafqazda ABŞ-Rusiya, ABŞ-İran rəqabətindən Azərbaycanın xeyrinə istifadə etmək üçün gələcək siyasətin bünövrəsi qoyuldu;

- Azərbaycan Respublikası öz iqtisadi əhəmiyyətliliyini təsdiq etdi.

Məhz bu illərdə həyata keçirilmiş xarici siyasət xətti gələcək xarici siyasi uğurlar üçün baza rolunu oynadı.

İki ideologiyanın kəskin rəqabəti şəraitində bipolyar dünya nizamı sisteminin yarandığı dövrdə, ilk növbədə, iqtisadi və geostrateji maraqlar əsas prioritetlər kimi çıxış etdi. Bu maraqlar təkcə iqtisadi və siyasi deyil, hətta hərbi vasitələrlə reallaşmağa başladı.

## 2.2. 1995-2001 ci illər dönəmində Azərbaycan-ABŞ münasibətlərinin siyasi-diplomatik aspektləri

Artıq 1995-ci ildən etibarən ABŞ-la Azərbaycan Respublikası arasında istər iqtisadi, siyasi, istərsə də humanitar və digər sahələrdə əhəmiyyətli görüşlər keçirildi. Bunlara misal olaraq 1995-ci ilin aprel ayında ABŞ-ın energetika naziri X.O.Lirinin Azərbaycana səfəri və onun nəticəsində ABŞ-ın "Ekson" şirkəti ilə müqavilənin bağlanması, 1995-ci ilin mayın 4-də Bakıda ABŞ səfirliyinin binasının açılışı, bundan bir neçə gün sonra Heydər Əliyevin Moskvada Bill Klintonla, Londonda vitse-prezident Albert Qorla görüşünü göstərmək olar. Bu görüşlərdə iki müstəqil dövlət arasında qarşılıqlı münasibətlərin dərinləşməsi və etibarlı tərəf-müqabilə çevrilmək istiqamətində mühüm addımlar atıldı. Həmin görüşlərin siyasi nəticəsi kimi 1995-ci il mayın 21-də prezident Bill Klintonun Heydər Əliyevə göndərdiyi məktub mühüm əhəmiyyət daşıyır. Bu məktubda əsas diqqət Qarabağ məsələsi, neft yataqlarından istifadə və ölkənin demokratikləşməsi istiqamətində aparılan tədbirlərə yetirilirdi [48,1].

1995-ci il oktyabrın 21-25-də BMT-nin 50 illik yubileyində iştirakı dövründə Heydər Əliyev bir daha Bill Klintonla görüşmüş və yuxarıda qeyd olunan məsələlər ətrafında prezidentlər arasında fikir mübadiləsi aparmışdır. Bu görüşün davamı kimi 1995-ci ilin oktyabrında Zbiqnev Bjezinski, konqresmen Qreq Laflin, ATƏT-in Minsk qrupundakı nümayəndəsi Cozef Russel və başqaları ilə görüşlərdə ikitərəfli münasibətlərin dərinləşməsi istiqamətində danışıqlar aparıldı. Bu zaman əsas

müzakirə olunan mövzulardan biri Azərbaycan neftinin yalnız Rusiya ərazisndən ixrac olunması ilə bağlı Azərbaycan tərəfinin davam edən tələblərinin aradan qaldırılması idi. Bu danışıqlarda yuxarıda göstərilən mövzu ilə bərabər Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramında iştirakı, neftin Avropaya nəqli istiqamətlərinin müəyyənləşməsi məsələlərinə də dərindən diqqət yetirilmiş, Rusiyanın Azərbaycanda hərbi mövcudluğuna yol verilməməsi istiqamətində işlərin aparılması müzakirə olunmuşdur.

1995-ci ildə ABŞ-ın Azərbaycana böyük həcmdə humanitar yardım etməsi bu ilin danışıqlarında artıq baş verən dönüşün ilk sübutu kimi görünürdü. Sonradan 1996-cı ilin yanvarında konqresmen Çarlz Vilsonun Azərbaycana birbaşa humanitar yardım göstərməsini nəzərdə tutan qanun layihəsinin prezident Bill Klinton tərəfindən imzalanması da aparılan siyasətin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. 1995-ci ildə iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə misal olaraq “Kapital quruluşuna kömək haqqında” sazişin təsdiqi, noyabrın 10-da “Penzoyl” şirkətinin neft müqaviləsinə daxil edilməsi və digər tədbirləri göstərə bilərik. 1996-1997-ci illərdə Azərbaycan-ABŞ münasibətləri daha da dinamikləşmiş və qarşıya qoyulan məsələlər uğurla həll edilmişdir. Bu dövrdə əsas problemli məsələlər “907-ci düzəlişin” ləğvi, Qarabağ münaqişəsinin ədalətli həlli, neftin Avropaya çatdırılması istiqamətlərinin müəyyənləşdirilməsi, strateji tərəfdaşlığın artırılması yollarının tapılması kimi məsələlər olmuşdur.

1995-ci ilin aprelində ABŞ-ın "Ekson" şirkəti ilə əlaqələrin qurulması, 1995-ci ilin mayın 4-də Bakıda ABŞ səfirliyinin açılması, həmin ilin oktyabrın 21-25-də BMT-nin 50 illik yubileyində Heydər Əliyevlə Bill Klintonun görüşü, həmçinin ABŞ-ın görkəmli dövlət xadimi Zbiqnev Bzejinskinin, senator Riçard Şelbinin Bakıya rəsmi səfəri iki dövlət arasında münasibətləri daha da yaxınlaşdırdı. Nəticə etibarı ilə ABŞ 1995-ci ildə Azərbaycana 27,5 milyon dollar məbləğində humanitar yardım etdi [89, 176].

1995-ci ildə qurulan bu əlaqələrin ən ümdə cəhəti ondadır ki, artıq ABŞ Azərbaycanı təkcə tərəf-müqabil dövlət kimi deyil, həm də öz maraqlarını həyata keçirə biləcəyi və onları reallaşdıra biləcəyi bir məkan kimi görür, Azərbaycan isə

öz reallıqlarına münasibətdə ABŞ-la fikir ümumiliyinə nail ola bilirdi. Həmçinin bu münasibətlər Azərbaycanın təkcə siyasi imicini artırmaqla bitmir, onun iqtisadi, hərbi potensialının yüksəldilməsi üçün də şərait yaratmış olurdu.

1996-cı il yanvarın 25-26-da Çarlz Vilsonun təklifi ilə Azərbaycana birbaşa humanitar yardım haqqında qanunun Konqres tərəfindən qəbulu və Prezident Bill Klintonun bu sənədi təsdiq etməsi qarşılıqlı münasibətlərin yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli addım idi .

1996-cı ilin martında ABŞ dövlət katibinin müavini Stoub Talbott, milli təhlükəsizlik üzrə müşavir Semuyel Berger, Dağlıq Qarabağ üzrə danışıqlarda xüsusi nümayəndə Cozef Ressel ilə aparılan görüş və danışıqlarda məcburi qaçqınlar və Ermənistanda etnik təmizləmə, erməni təcavüzünün nəticələri, qarşılıqlı münasibətlərin dərinləşdirilməsi məsələsinə baxıldı.

1996-cı il iyunun 11-də Konqresin nümayəndələr palatası Con Porterin düzəlişi ilə xarici əməliyyatlar haqqında qanun layihəsini qəbul etdi. Porter düzəlişi heç bir halda Azərbaycanın mənafeyinə uyğun gəlmirdi. Bu düzəlişdə ayrı-ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə uyğun olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulurdu [89, 176].

Tədqiqatçı alim Elman Nəsirov haqlı olaraq bu düzəlişin iki cəhətinin dövlətçiliyimiz əleyhinə yönəldiyi qənaətinə gəlir: "Birinci, burada Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkib hissəsi deyil, müstəqil subyekt kimi qəbul edilirdi. İkincisi, Azərbaycana və guya müstəqil qurum olan Dağlıq Qarabağa göstəriləcək yardımın arasında müəyyən nisbət qoyulurdu, başqa sözlə iki müxtəlif sübyektə müxtəlif yardımlar təklif olunurdu” [107, 79].

Belə nəticəyə gəlmək olur ki, bu düzəliş Azərbaycanın Qarabağ probleminin haqlı həllinin yollarını çətinləşdirməklə bərabər, onun Azərbaycanın daxili məsələsi olması çərçivəsindən çıxmasına şərait yaradırdı. Təbii ki, bu düzəliş Azərbaycan ictimaiyyəti tərəfindən etirazla qarşılandı və ən yüksək instansiyalarda buna çevik reaksiya verildi.

1996-cı ilin iyunun 13-də isə Heydər Əliyev ABŞ-ın Azərbaycandakı səfirini qəbul edərək bu məsələyə öz etirazını bildirdi: "Bildirmək istəyirəm ki, biz bu cür əlavə ilə heç vaxt razı ola bilmərik. O, Azərbaycanın zərərinə olan bir əlavədir və müəyyən qədər Azərbaycanın ərazi bütövlüyünün şübhə altına alınmasını əks etdirir. Ümumiyyətlə bu, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsinə ciddi maneə ola bilər" [70, 438].

Bu etirazlar öz nəticəsini verdi. ABŞ dövlət departamenti yuxarıda göstərilən mövqeyi dəstəklədi. Bu zaman Ermənistan Xarici İşlər Nazirliyi bəyanat verərək ABŞ hökumətinin Porter düzəlişi ilə bağlı mövqeyinə etiraz etdi (89, 179). Azərbaycan tərəfi isə Ermənistanın bu bəyanatını başqa dövlətin daxili işlərinə qarışmaq kimi qəbul etdi. Bu mübarizənin yekunu kimi iyulun 26-da ABŞ senatı xarici dövlətlərə yardım haqqında qanun layihəsini Porter düzəlişi nəzərə alınmadan qəbul etdi [89, 179]. Bu, Azərbaycan-ABŞ münasibətlərində mühüm dəyişikliklərdən xəbər verməklə yanaşı, Azərbaycan diplomatiyasının növbəti mühüm uğuru idi.

Bu uğurun ardınca 1996-cı ilin oktyabrında Dağlıq Qarabağ regionunda qondarma prezident seçkilərinə ABŞ-ın mənfi münasibət bəsləməsi və Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etməsi əlamətdar hadisə oldu. Bu, iki dövlət arasındakı münasibətlərin qarşılıqlı etimada çevrilməsinin, həmçinin biri-birini öz yaxın tərəfdaşı kimi görməsinin nəticəsi idi. Bu mövqe özünü Lissabon samitində də göstərdi. 1996-cı ildə Bill Klinton H. Əliyevə göndərdiyi məktubunda Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsini dəstəklədiyini bildirdi [84, 163].

Lissabon sammiti çərçivəsində isə prezident Heydər Əliyevin ABŞ-ın vitse-prezidenti Albert Qor və dövlət katibi Uorren Kristofer ilə görüşlərində, qarşı tərəf yuxarıda qeyd olunan mövqeyi bir daha təsdiq etdi.

Beləliklə, 1996-cı il Azərbaycan-ABŞ münasibətləri Azərbaycanın suverenliyi, dövlətçiliyi üçün böyük əhəmiyyət kəsb edərək, onların möhkəmlən-dirilməsi istiqamətində öz töhfəsini verdi. Ölkənin ərazi bütövlüyü bir daha təsdiq

olundu, Ermənistanın təcavüzkar meyllərinin üzrə çıxması və sübutuna şərait yarandı.

1997-ci ildə ikinci dəfə prezident seçilən Bill Klinton və onun adminstrasiyası iki dövlət arasında əvvəlki mövqelərinin möhkəmləndirilməsi istiqamətində addımlar atmaqda maraqlı idi. Bunu Madlen Olbratytın Qarabağ münaqişəsinin həllində Minsk qrupunun passiv fəaliyyətini tənqid etməsində görmək mümkündür. 1997-ci ilin fevralında Madlen Olbrayt bəyanat verərək prezident Bill Klinton hökumətinin Azərbaycana edilən yardımın məhdudlaşdırılmasının əleyhinə olduğunu və 907-ci düzəlişin ləğvi üçün Konqresə edilən bütün cəhdləri dəstəklədiyini bildirdi (89, 184). 1996-cı ildəki danışıqları və münasibətləri qiymətləndirərək belə qənaətə gəlmək olar ki, artıq mövcud  olan münasibətlər keyfiyyətcə dəyişmiş və yeni məna – etibarlı tərəf müqabili mənasını almışdı. Bu isə gələcək prespektivlər üçün  şərait yaradır, hər bir sahədə əməkdaşlığı dərinləşdirirdi. Bütün bunlar uzun müddət aparılan fəaliyyətin məntiqi nəticəsi idi.

Onu da deyək ki, Madlen Olbrayt Qafqaza, Azərbaycana böyük önəm verirdi. Bu da Klintonun ikinci prezidentliyi dövründə Qafqaz yönlü siyasətdə əsaslı addımlar atılmasına və həmin istiqamətdə mühüm dəyişikliklərə yol açdı. 1997-ci ilin martında milli təhlükəsizlik üzrə müşavir S.Bergerin öz çıxışında Çini, Türkiyəni və Qafqazı ABŞ-ın maraq dairəsi elan etməsi bunun bariz nümunəsidir [183, 376].

Bu dövrdə Rusiyanın Ermənistana qanunsuz olaraq 1milyard dollar həcmində silah verməsi ABŞ və Azərbaycan tərəfindən çox narazılıqla qarşılandı. 1997-ci il martın 12-13-də təhlükəsizlik və silahlara nəzarət məsələlərinə dair ABŞ və Azərbaycan xarici işlər nazirlikləri arasında ikitərəfli məsləhətləşmələr keçirildi. Bundan sonra isə martın 16-28-də Azərbaycan Respublikası prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Vəfa Quluzadə ABŞ-a səfər edərək bir neçə məsələnin həlli üçün fəaliyyətə başladı. Səfər zamanı ABŞ-ın regionda cərəyan edən məsələlərə təsirini artırmaq, iki dövlət arasındakı münasibətləri dərinləşdirmək, 907-ci maddənin ləğvi istiqmaətində işlərin aparılması, erməni lobbisinin təsirini azaltmağa çalışmaq kimi məsələlər əsas məqsəd olaraq qarşıya qoyulmuşdu. Bu

səfərin əsas nəticəsi Bakıdakı ABŞ səfiri Riçard Kozlariçin Azərbaycan prezidentinə təqdim etdiyi məktub oldu ki, burada da ABŞ prezidenti Bill Klinton Heydər Əliyevi iyul-avqust aylarında ABŞ-a rəsmi səfərə dəvət edirdi [89, 186].

Bu səfərdə Azərbaycan prezidenti qarşısında yaranmış əlverişli şəraitdən istifadə edərək ABŞ-da respublikamıza münasibətində başlanmış müsbət dəyişkiliklərin inkişaf etdirilməsini və Azərbaycan həqiqətlərinin daha geniş təbliğini, Dağlıq Qarabağ probelminin həlli ilə bağlı ABŞ-ın mövqeyini daha da fəallaşdırmasını, 907-ci düzəlişin aradan götürülməsini həll etmək kimi əsas vəzifələr dururdu.

Bu dövrdə ABŞ-ın Azərbaycana münasibətində isə əsas məqsədləri kimi aşağıdakıları vurğulamaq olar:

- demokratiyanın təşviqi və azad bazar iqtisadiyyatının yaradılması;
- Qafqaz regionundakı dövlətlər arasında sülh və əməkdaşlığın bərqərar olunması;
- bu dövlətlərin geniş dünya birliyinə inteqrasiyasına yardım edilməsi.

Beləliklə, hər iki dövlət arasında ümumi mənafelər kimi qarşılıqlı münasibətlərin dərinləşməsi, regionda sülhə nail olmaq, dinc iqtisadi inkişaf prespektivləri əldə etmək nəzərdə tutulurdu. Həmin məqsədlərə nail olmaq, xarici təsirləri azaltmaq, qarşıya çıxacaq problemləri həll etmək prezident Heydər Əliyevin ABŞ-a rəsmi səfərindən və bu səfərin məhsuldar aparılmasından xeyli asılı idi. Ümummilli lider bu vəzifənin öhdəsindən çox bacarıqla gələrək, bu səfər çərçivəsində 100-dən çox görüş keçirmiş, dəfələrlə müsahibələr vermiş, əhəmiyyətli neft müqaviləsinin bağlanmasına, ölkələrimiz arasında lazımi dialoqun qurulmasına nail olmuş, vitse-prezident A.Qorun dediyi kimi, hökumətlər arasında rəsmi enerji dialoqu yarada bilmişdir [192, 29].

Heydər Əliyevin ABŞ-a rəsmi səfəri 1997-ci il iyulun 27-dən avqustun 5-dək olmuşdur. Azərbaycan prezidenti ilk olaraq Nyu-Yorka gəlmiş və burada NATO-nun baş katibi Xavyer Solana ilə görüşmüş, Qarabağ məsələsinin həllinin Azərbaycan üçün tale yüklü problem olduğunu nəzərə çatdırmışdır [74,19-20].

Elə həmin gün Heydər Əliyev BMT baş katibi Kofi Annan ilə də görüşmüşdür. Bu görüşdə toxunulan əsas məsələlər Rusiyanın Ermənistana qanunsuz silah satması, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsi kimi problemlər idi.

Bundan əlavə Ümummilli lider Nyu-Yorkdakı görüşlər çərçivəsində görkəmli siyasi xadim Henri Kissincerlə və ABŞ-dakı yəhudi təşkilatlarının rəhbərləri ilə görüşmüşdür. Nyu-York səfərindən sonra Vaşinqtona gələn prezident buradakı azərbaycanlı diasporasının nümayəndələri ilə görüşmüş və bu görüş gələcəkdə ABŞ-dakı azərbaycanlıların təşkilatlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. O, həmçinin ABŞ-ın Hallibortn korporasiyasının prezidenti Riçard Ceyni ilə, Corctaun Universitetinin professor-müəllim heyəti və tələbələri ilə də görüşlər keçirtmişdir.

Görüşlərin kulminasiya nöqtəsini isə avqustun 1-də ABŞ prezidenti Bill Klintonla olan danışıqlar təşkil etdi. Prezidentlər arasında baş tutan görüşdə Azərbaycanda aparılan islahatlar, Qarabağ probleminin həlli yolları, Minsk qrupunun fəaliyyətinin aktivləşdirilməsi, NATO-nun Şərqə doğru genişlənməsi, Avropada adi silahlı qüvvələr haqqında müqavilənin Cinah sazişinə, enerji sahəsində əməkdaşlığın genişləndirilməsi problemlərinə dair fikir mübadiləsi aparılaraq beş əsas sənəd imzalandı. Bu beş sənəd Azərbaycan-ABŞ münasibətləri haqqında birgə bəyanatda, Azərbaycana sərmayə qoyuluşu haqqında müqavilə, müdafiə və hərb sahəsində gələcək münasibətlər, energetikanın inkişafı üzrə iki tərəfli dialoq yaradılması sahələrini əhatə edirdi. Həmin görüşdə həmçinin bir daha "907-ci maddə"nin aradan qaldırılması məsələlərinə toxunuldu. Görüş sonradan sentyabrın 2-də "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında tərəfdaşlıq münasibətlərinin gücləndirilməsi haqqında" sazişin təsdiq edilməsi ilə nəticələndi. Bu sənəd də Azərbaycanın ABŞ adminstrasiyası və Konqresi ilə sıx əlaqə saxlayaraq 907-ci düzəlişin aradan qaldırılmasına nail olmaq üçün tədbirlərin tətbiqini nəzərdə tuturdu. Səfər zamanı Böyük İpək Yolu layihəsi də müzakirə olundu ki, nəticədə həmin ilin oktyabrında senator S.Berunberk və Ç.Hagel tərəfindən bu məsələ qanun şəklində Konqresə təqdim olundu. 1999-cu ildə isə Konqres İpəkYolu strategiyası aktını qəbul etdi. 1999-cu ilin sentyabrında

Azərbaycanda keçirilən və 32 ölkənin, 13 beynəlxalq təşkilatın iştirak etdiyi Böyük İpəkYolu konfransı Avrasiya məkanında inteqrasiya proseslərinin yeni mərhələsini açdı.

İpək Yolu strategiyası ABŞ siyasəti qarşısında yeddi istiqaməti müəyyən edir. Akt iqtisadi yardım, infrastrukturun inkişafı, demokratiyanın, tolerantlığın möhkəmləndirilməsi, sivil cəmiyyətin inkişafı ilə yanaşı, həm də bu regionda münaqişələrin həllinə səy göstərilməsi məsələlərini özündə təsbit edirdi [59, 66].

Bu görüşün ən mühüm nəticələrindən biri isə Minsk qrupu həmsədrlərinin münaqişənin həllində fəallıqların artırması oldu. Qarabağ məsələsinin həlli istiqamətində 1998-1999-cu illərdə ABŞ-ın təşəbbüsü ilə bir neçə dəfə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirildi. Bunlara misal olaraq 1999-cu ildə M. Olbraytın təşəbbüsü ilə Vaşinqton görüşünü, 2001-ci ildə Floridada Key-Vest danışıqlarının keçirilməsini göstərmək olar. Bundan əlavə, Heydər Əliyev 1999-cu il aprelin 24-də ABŞ prezidenti Bill Klintonla yenidən görüşdü. Bu görüşdə Azərbaycan-ABŞ əməkdaşlığının davam etdirilməsinin vacibliyi bir daha irəli sürüldü. Görüşdə Bill Klinton Qafqaz regionunda sülhün bərqərar edilməsində Ümummilli lider Heydər Əliyevin rolunu yüksək qiymətləndirərək, 907-ci düzəlişin ləğvinin və Dağlıq Qarabağ probleminin həllində öz köməyini əsirgəməyəcəyini bildirdi [66, 77-78].

1999-cu ilin ən mühüm addımlarından biri kimi  ATƏT-in İstanbulda keçirilən zirvə görüşü çərçivəsində Prezident Heydər Əliyevlə ABŞ prezidenti Bill Klintonun görüşü hesab edilə bilər. Görüşdə Bill Klinton Bakı-Tbilisi-Ceyhan və Transxəzər layihələrində ABŞ-ın dörd əsas məqsədi olduğunu bildirdi: enerji ehtiyatlarının məqsədyönlü istifadəsi, region ölkələrinin təhlükəsizliyi, Xəzərin təbii sərvətlərindən ABŞ və digər iştirakçıların enerji təhlükəsizliyində rolunun artırılması, ekoloji məsələlərin həlli. Məhz həmin zirvə görüşü ABŞ-ın Qafqaz regionunda mövqelərini gücləndirdi, enerji layihələrində rolunu artırdı.

2000-ci il iki dövlət arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından çox məhsuldar hesab oluna bilər. Həmin ilin yanvar ayında Bakıda ABŞ-ın Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə və Qazaxıstandakı səfirləri,

Moskvadakı səfirliyinin nümayəndələri, Xəzər regionu üzrə səfir Con Volf və ABŞ-ın müxtəlif dövlət orqanlarını təmsil edən 40-50 nəfərlik nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfərdə məqsəd ABŞ-ın Xəzər regionuna dair siyasi, hərbi və digər strategiyalarının və siyasətlərinin daha düzgün müəyyənləşdirilməsi üçün fikir mübadiləsi aparmaq idi [89, 215]. Səfərin yekununda isə memorandum imzalandı. Bu sənəddə ABŞ-ın Azərbaycanda keçirilən islahatlara yardım etməsi məsələsi əks olundu.

2000-ci ildə keçirilən digər görüşlərə misal olaraq Davos qurultayında Heydər Əliyevin iştirakını, ABŞ-a olan ikinci rəsmi səfərini göstərmək olar.

Ümumilikdə, 1995-2000-ci illər ərzində aparılan danışıqlar və  fəal xarici siyasi fəaliyyət iki dövlət arasında yeni müstəvidə münasibətlərin qurulması demək idi. Təbii ki, bu Ümummilli liderin çevik siyasi təşkilatlanma bacarığı , bütün qüvvələri öz məqsədinə döğru yönəltmək qabiliyyətindən irəli gəlirdi. Eləcə də, Azərbaycan öz xarici siyasi məqsədinə - ABŞ kimi əlverişli tərəfdaşla münasibətlərin daha da gücləndirilməsinə nail olurdu. Bu siyasi addımların yekunu belə qiymətləndirilə bilər:

- Qarabağın Azərbaycanın ərazisi olması  bir daha təsdiqləndi;
- Qondarma “Qarabağ Respublikası”nın Ermənistan tərəfindən dünyada tanıdılması prosesinin qarşısı alındı;
- Azərbaycan Respublikasına qarşı yaradılan təhrif olunmuş rəy aradan qaldırıldı;
- Azərbaycan enerji təhlükəsizliyi siyasətində mühüm rol oynadıgını təsdiqlədi;
- Ölkənin demokratik, iqtisadi, hərbi sahələrinin inkişafında ABŞ-ın dəstəyi əldə olundu;
- Azərbaycan ABŞ üçün etibarlı əməkdaşa çevrildi;
- Neft strategiyasının formalaşdırılması və gələcək siyasi addımların atılmasında ondan əlverişli istifadə yolları qətiləşdirildi;
- İnformasiya müharibəsində möhkəm mövqelər əldə edildi.

## 2.3. Azərbaycan-ABŞ münasibətlərinin yeni dövrü: əsas amillər çağırışlar

2001-ci ildə Azərbaycan-ABŞ münasibətlərində yeni keyfiyyət dəyişiklikləri özünü göstərməyə başladı. Bu əsasən hərbi-siyasi yaxınlaşma, iqtisadi əlaqələrin möhkəmlənməsi və genişlənməsi xüsusiyyətlərinin ikitərəfli münasibətlərdə əks olunması ilə əlaqədardır. Belə ki, 2001-ci ilin əvvəllərində ABŞ prezidenti Corc Buş tərəfindən ABŞ-ın enerji siyasətinə dair işçi qrupu hazırlanmışdı. Onların da əsas məqsədi ABŞ-ın enerji siyasəti doktrinasını hazırlamaq idi. Bu işçi qrup tərəfindən təqdim olunan sənəddə Azərbaycana önəmli yer verilmişdi [89, 226]. Bu ABŞ-da yeni hakimiyyətə gəlmiş Corc Buş administrasiyasının əvvəlki münasibətləri qorumasının və Azərbaycanın yenə də etibarlı tərəfdaş kimi qiymətləndirilməsinin göstəricisi idi. Azərbaycan-ABŞ münasibətlərində yeni keyfiyyət mərhələsinin formalaşmasında 2001-ci il sentyabrın 11-də Nyu-Yorkda Dünya Ticarət Mərkəzinin terrorçular tərəfindən dağıdılması və Vaşinqtonda Pentaqon binasının vurulması ilə baş verdi. Bu hadisələr zamanı ABŞ prezidenti dünya ölkələrinə müraciətlə ”ya siz bizimləsiniz, ya da bizim əleyhimizəsiniz” deyərək, onların qəti mövqe nümayiş etdirmələrini istədi. Bu zaman Azərbaycan tərəfi ABŞ-ın çağırışına çevik reaksiya verərək, terrorçuları və onların əməllərini pislədi. Azərbaycan prezidenti Heydər Əliyev “2001-ci il sentyabrın 11-də baş vermiş terror aktlarının günahsız qurbanlarının xatirəsinin yad edilməsi haqqında” sərəncam imzaladı və bu terror hadisəsi ilə bağlı bəyanat verdi. Bu qəti mövqeni Musa Qasımlı Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi istiqamətində mühüm addım hesab edir [89, 227].

Azərbaycanın görkəmli tədqiqatçı-alimi akademik Ramiz Mehdiyev isə bunun Azərbaycanın Qərbdə imicinin artırılmasını və onun antiterror mövqeyinin bir daha sübuta yetirilməsini göstərdiyini deyir [98, 130-131].

Belə qənaətə gəlmək olar ki, 2001-ci il 11sentyabr terror aktından sonra

Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ başlandı:

- əlaqələrdə mövcud olan məhdudiyyətlər aradan qaldırıldı;
- humanitar sahədə, demokratikləşmə məsələlərində, sərhədlərin təhlükəsizliyinə hökumət yardımı artırıldı;
- nüvə silahının yayılmaması məsələsində razılıq əldə edildi;
- Xəzər dənizinin enerji resurslarının daşınması, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq daha da gücləndi;
- Azərbaycan ABŞ-ın Əfqanıstanda və İraqda apardığı əməliyyatlar zamanı öz hava məkanını ABŞ hərbçilərinin öhdəsinə verdi;
- terrorizmə qarşı mübarizə sahəsində yaxınlaşma gücləndi;
- Azərbaycan ABŞ-ın strateji maraqlarını və siyasətini əks etdirən NATO ilə əməkdaşlıq etdi;
- "Sülh Naminə Tərəfdaşlıq haqqında" proqramda Azərbaycanın iştirakı genişləndi;
- Tərəfdaşlıq çərçivəsində fərdi fəailiyyət planı haqqındakı kompromis razılaşmalar əldə edildi.

Azərbaycan Respublikası hər cür vəchlə qarşıya qoyulan məqsədləri reallaşdırmağa çalışır və istər NATO-nun genişlənməsində iştirak, istərsə də terorizmə qarşı mübarizədə yaxından əməkdaşlıq edirdi.

Bu mövqe 907-ci düzəlişə yenidən baxılmasına böyük yardım etmiş oldu. 2001-ci il oktyabrın 24-də ABŞ Senatı 907-ci düzəlişin dayandırılması üçün ABŞ prezidentinə səlahiyyət verilməsinə dair təşəbbüsü səs vermə yolu ilə qəbul etdi [291]. Burada əsas məsələ kimi antiterror əməliyyatlarında Azərbaycanın ABŞ-a yardımı məsələsi qoyulurdu. Bu addımların yekunu kimi 2002-ci il oktyabrın 30-da 907-ci düzəlişin fəaliyyəti dayandırıldı. Azərbaycan da öz növbəsində sülhməramlı qüvvələri vasitəsilə terrorçulara qarşı mübarizədə aktiv fəaliyyətə başladı.

2001-2002-ci illərdə Azərbaycan-ABŞ münasibətləri əvvəlki dinamizmi saxlayaraq daha da inkişaf edirdi. Bu dövrdə danışıqlar daha çox hərbi əməkdaşlıq sahəsində əks olunurdu. Bu danışıqlarda müraciət edilən əsas məsələlərə aşağıdakılar aid edilə bilər:

1. Azərbaycanın sülhü müdafiə qabiliyyətinin artırılması;
2. Azərbaycan Hərbi Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması;
3. Qarabağ probleminin həlli prosesinin sürətləndirilməsi;
4. Məcburi köçkün məsələsinin həlli;
5. Enerji təhlükəsizliyi məsələlərinin yoluna qoyulması;
6. Xəzərin enerji ehtiyatlarından bəhrələnmək və onların nəqlinin həyata keçirilməsi;
7. Terrorizmlə mübarizədə əməli fəaliyyətin artırılması.

Nəzərə çatdırmaq istərdim ki, ABŞ hökuməti ilə aparılan bu istiqamətli danışıqların nəticəsi olaraq 2002-ci ildə respublikamızın təhlükəsizlik sahəsinə ABŞ tərəfindən 4,4 milyon dollar vəsait ayırdı.

Prezident Heydər Əliyevin 2003-cü il fevralın 23-də ABŞ-a rəsmi səfəri iki dövlət arasındakı münasibətlərdə yeni imkan və perspektivlərə yol açdı. Rəsmi səfərdə əsas məqsəd "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda olan konfransda iştirak və iki ölkə arasında olan ikitərəfli və regional məsələləri müzakirə etmək idi. Prezident Heydər Əliyev "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransında etdiyi çıxışda bir daha vurğuladı ki, neft kəməri həm iqtisadi, həm də təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. O, regionda təhlükəsizliyin təmini, eləcə də iqtisadi təhlükəsizlik üçün də yol açır.

2003-cü il fevralın 26-da isə Azərbaycan və ABŞ prezidentlərinin görüşü oldu. Bu görüşdə imzalanan əsas sənədə əsasən Azərbaycan və ABŞ hökumətləri öz vətəndaşlarının törətdikləri cinayət əməllərinə görə Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etməmək barədə birgə razılığa gəldilər. Ümumilikdə, bu görüş ona dəlalət edirdi ki, ABŞ hökuməti Azərbaycanı regionda strateji tərəfdaş kimi görürdü. Bu əməkdaşlıq Səddam Hüseyn rejiminin devrilməsi zamanı Azərbaycan tərəfindən İraqda koalisiyanın istənilən fəaliyyətinin dəstəklənməsi siyasəti ilə daha da möhkəmləndi.

2003-cü il avqust-sentyabr aylarında Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin ABŞ nümayəndə heyətləri ilə bir sıra görüşləri oldu. Bu görüş daha çox hərb və təhlükəsizlik məsələlərini özündə ehtiva etdi. Həmin görüşlərin

nəticəsində 3 maddədən ibarət Azərbaycan sülh korpusunun proqramı haqqında saziş imzalandı, 2004-cü il yanvarın 13-də isə bu sənəd təsdiq olundu.

Artıq 2001-2005-ci illərdə Azərbaycan-ABŞ əlaqələri çoxtərəfli xarakter almış və daha çox geniş spektirli olması ilə digər illərdən fərqlənmişdir. Əli Həsənov tərəfindən iki ölkə arasında bu illərdə olan münasibətlərin istiqamətləri kimi aşağıdakılar müəyyənləşdirilir:

- siyasi münasibətlərin qurulması və inkişafı;
- dünyada terrora qarşı birgə mübarizənin təşkili (Azərbaycan əsgərlərinin müxtəlif regionlarda ABŞ-ın sülhpərvər əməliyyatlarında iştirakı);
- NATO və ABŞ-ın Müdafiə Nazirliyi ilə əməkdaşlığı artırmaqla beynəlxalq təhlükəsizliyin təminində fəal iştirakı;
- Qafqazda, xüsusən Dağlıq Qarabağ probleminin həlli istiqamətində ATƏT-in Minsk qrupu və ABŞ-ın rəsmi dairələri ilə ayrılıqda aparılan işləri;
- Azərbaycanda ordu quruculuğunun gücləndirilməsi, dövlətimizin sərhədlərinin qorunması sahəsində NATO və ABŞ-ın həyata keçirdiyi proqramlarda bacardıqca daha çox iştirak etməyi [79,263].

Yuxarıda sadalananlara əlavə olaraq iqtisadi əlaqələrin möhkəmlənməsini də nəzərə çatdırmaq məqsədəuyğun olardı. Eyni zamanda bu dövrdə hərbi təhlükəsizlik sahəsində əlaqələr daha da dərinləşmişdir ki, bu məsələlərlə bağlı hissəyə də geniş yer verilmişdir.

2001-2005-ci illərdə transmilli, qlobal siyasi proseslərdə, demokratikləşmənin dərinləşməsi və digər ictimai-siyasi əlaqələrin daha da dərinləşməsində birgə fəaliyyəti də vurğulamaq olar. Onu da diqqətə çatdırmaq olar ki, Prezident İlham Əliyevin hakimiyyətinin elə ilk dövrlərindən başlayaraq dövlət idarəçiliyininin təkmilləşdirilməsi, yerli, daha demokratik seçki sisteminin formalaşdırılması, siyasi plürializmin möhkəmləndirilməsi, söz və mətbuat azadlığının qorunması, vətəndaş cəmiyyətinin təşəkkülü və dərinləşdirilməsi istiqamətində aparılan geniş islahatlara ABŞ hökuməti daimi dəstək vermişdir. Hər il bu məqsədlə ABŞ-ın xüsusi maliyyə yardımı çərçivəsində Azərbaycana on

milyonlarla dollar həcmində pul ayrılmışdır [79, 66]. Məsələn, 2004-cü il mayın 21-də ABŞ-Azərbaycana 70 milyon dollar yardım ayırmışdı. ABŞ Departamentinin Avropaya yardım fondunun əlaqələndiricisi səfir Karlos Raskuanın sözlərinə görə 70 milyon dollar vəsaitin 20 milyon dolları sırf humanitar layihələrin həyata keçirilməsinə sərf olunmuş, həmçinin təhlükəsizlik sahəsinə də 10 milyon dollar vəsait ayrılmışdır. İkitərəfli münasibətlərin dərinləşməsində müxtəlif sahələrə dair imzalanan sənədlər və müqavilələr böyük rol oynamışdır.

Elə keçirilən ilk görüş zamanı (26 fevral Vaşinqton Beynəlxalq Münasibətlər Şurasında) ABŞ-ın keçmiş prezidentinin milli təhlükəsizlik üzrə köməkşisi B. Skoukroft çıxış edərək Dağlıq Qarabağ probleminə toxunmuş, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğal olunduğunu qeyd etmişdir [291].

Prezident İlham Əliyev görüş zamanı söylədiyi nitqdə bildirmişdir ki, Azərbaycan ABŞ-la strateji əməkdaşlığa böyük önəm verir və iki ölkə arasında təhlükəsizlik, iqtisadi, siyasi əməkdaşlıq sahəsində qarşılıqlı anlaşma mövcuddur. Prezident, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin intensivləşdirilməsi məsələlərinə toxunmuşdur.

2004-cü il aprelin 28-də ABŞ prezidenti Corc Buş İlham Əliyevi Ağ evdə qəbul etmiş və demişdir: "Mən sizin rəhbərliyinizi yüksək dəyərləndirirəm. Mən dünyada istədiyiniz məqsədə - enerji təhlükəziliyinə nail olmaqda Prezidentin və onun hökumətinin mövqeyinə görə minnətdaram" [56,146].

Görüşdə Azərbaycan ilə ABŞ arasındakı ikitərəfli münasibətlər, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşmasının vəziyyəti, Dağlıq Qarabağ probleminin sülh yolu ilə ədalətli həlli, beynəlxalq terrorizmə qarşı birgə mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılmış, sonra isə hər iki prezident birgə bəyanatla çıxış etmişdilər. Bu görüş çərçivəsində Prezident İlham Əliyev aprelin 26-da Nümayəndələr Palatasının energetika və beynəlxalq əlaqələr komitəsinin bir qrup üzvü ilə, Vaşinqtonda xarici əlaqələr şurasında, ABŞ-ın qeyri-hökumət təşkilatları, yəhudi təşkilatının nümayəndələri ilə bir sıra görüşlər keçirmiş və "Azərbaycan-ABŞ strateji əlaqələri: siyasi və iqtisadi prioritetlər" mövzusunda konfransda iştirak etmişdir.

Bu görüşü qiymətləndirən Azərbaycanın ABŞ-dakı o dövrdəki səfiri (1992-2006) Hafiz Paşayev "Bir səfirin manifesti" kitabında yazır: "Prezident İlham Əliyevin Vaşinqtona səfəri, onun Ağ evdə prezident Buşla görüşü Azərbaycanın geosiyasi vacibliyini də aşkar etdi və Bakı ilə Vaşinqton arasındakı münasibətlərə yeni və güclü təkan verdi". Sonra o yazır; "... çox şadam ki, prezident İlham Əliyev 2006-cı ilin aprelində Birləşmiş Ştatlara səfəri ilə Vaşinqtonu inandırdı ki, o, azadlıq və demokratiya ilə bağlı eyni fikirlər və dəyərləri dəstəkləyir və Azərbaycanı gələcəkdə onun sözü ilə desək müasir, təhlükəsiz, demokratik ölkə kimi görür. Bizim gələcəyimizin inteqrasiya və qanunun aliliyi, müasir iqtisadiyyat və səffaflıq kimi qlobal stradartlar ilə bağlı olduğu təsdiq edildi. Bu baxımdan prezidentin səfəri ölkəmizdə gələcək demoktarik islahatlar üçün ABŞ-ın dəstəyinin təsdiqlənməsində mühüm addım oldu" [109, 183-184].

Mahiyyətcə bu görüş Azərbaycan-ABŞ münasibətlərinin konkretləşməsində, daha da irəli getməsində həlledici funksiya yerinə yetirmişdir ki, nəticədə Azərbaycan ABŞ-ın etibarlı partnyoru olduğunu bir daha təsdiq etmiş oldu.

2007-2009-cu illərdə ikitərəfli münasibətlər yenə də əvvəlki inkişaf dinamikliyini saxlamış və daha da intensivləşmişdir. Bu müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə əlamətdar olmuşdur. Bu dövrdə hərbi, iqtisadi sahələrdə olan əlaqələr daha da möhkəmlənmiş və inkişaf etmişdir.

20 yanvar 2009-cu ildə hakimiyyətə gələn Barak Obama administratiyası dövründə Azərbaycan-ABŞ münasibətlərində soyuqlaşma özünü göstərdi. Bunu bir sıra tədqiqatçılar müəyyən amillərlə əlaqələndirirlər. Tədqiqatçı Fuad Çıraqov bu məsələni "Azərbaycan-ABŞ münasibətləri: 1991-2016" məqaləsində araşdıraraq soyuqlaşmanın əsas amillərindən biri kimi ABŞ siyasətində Bakı ilə münasibətlərin rəsmi şəkildə "üçsütunlu münasibətlər" ("three basket" üç zənbil və ya bəzi müəlliflər "sütun" adlandırırlar) formulu əsasında qurması ilə izah edir [62 ,386]. Yəni ikitərəfli "üçsütunlu münasibətlər"də təhlükəsizlik, enerji resusrsları və insan haqları amilləri əsas götürülürdü. Əgər əvvəlki dövrlərdə ikitərəfli münasibətlərdə əsas faktor enerji resusrslarının rolu, 2001-ci ildən sonra regional təhlükəsizlik sahəsində əməkdaşlıq idisə, artıq Obama dövründə insan haqları problemi də buraya

əlavə edildi. Demokratiya və insan haqları amillərinin buraya əlavə edilməsi qarşlıqlı münasibətlərdə soyuqluğa gətirib çıxarırdı. Çünki sovet totalitar rejimdən yenicə demokratik sistemə keçən Azərbayan üçün tam demokratik dəyərlərin formalaşdırılması, yeni dəyərlərin uzun müddət totalitar və avtoritar şüurlu cəmiyyətdə birdən-birə yayılması özü mümkün bir proses deyildi. Digər tərəfdən "demokratiyanın yayılması" adı ilə ABŞ-ın dəfələrlə ölkələrin daxili işlərinə qarışması tarixi təcrübəsi Azərbaycan hakimiyyətini qorxudur, müstəqilliyin qorunmasına bir maneə kimi qəbul edilirdi. Elə həmin səbəblərdən də bu cür fəaliyyəti Azərbaycan tərəfi ölkənin daxili işlərinə qarışmaq kimi qiymətləndirirdi [62,386]. Təbii ki, insan haqları kimi amilin ön plana keçirilməsi erməni lobbisinin dırnaqarası xidmətlərindən biri idi ki, Azərbaycan-ABŞ münasibətlərində soyuqluq yaradılsın. Nəzərə çatdırmaq lazımdır ki, Obama administratiyasının üzvlərindən bir çoxu erməni lobbisinin təsiri altında idi. Məsələn, Dövlət katibi Con Kerrinin "907-ci düzəlişin" təşəbbüskarlarından olması, həmçinin Obama komandasının hakimiyyətə gəlməsində erməni lobbisinin yaxından iştirakı bunun sübutudur.

Fuad Çıraqov haqlı olaraq soyuqlaşmanının digər amilləri kimi ABŞ-ın Obamanın prezidentliyi dövründə enerji təhlükəsizliyi mərhələsindən enerji müstəqillyi (energiy indepence) mərhələsinə keçməsini göstərir ki, bunun da əsas səbəbi kimi 2009-cu ildən şist qazı və neft yataqlarının işlənməsi ilə başlanan texnoloji inqilab nəticəsində ABŞ-ın Səudiyyə Ərəbistanından daha çox neft, Rusiyadan daha çox qaz istehsal etməsinə imkan yaratması idi [62,391]. Müəllif haqlı olaraq soyuqlaşmanın digər amilləri kimi:

- Yəhudi lobbisi ilə münasibətlərin pisləşməsini;
- Rusiya ilə yaxınlaşmanı;
- Səriştəsiz siyasətçilərin bu administrasiyada təmsil olunmasını göstərir.

Həqiqətən də Obama administrasiyası dövründə İsrail və yəhudi lobbisi ilə münasibətlər hədsiz dərəcədə kəskinləşmiş və onlar arasında dərin soyuqluq yaranmışdır. Azərbaycan-ABŞ münasibətlərinin yaxınlaşmasında isə yəhudi lobbisinin rolu danılmazdır.

Rusiya ilə münasibətlərin yaxşılaşdırılması digər tədqiqatçılar tərəfindən də

Azərbaycan-ABŞ münasibətlərinin soyuqlaşmasının əsas amillərindən biri kimi qeyd edilir. Onlar haqlı olaraq göstərirlər ki, Rusiya İran və Əfqanıstan məsələsində ABŞ-a yardımçı ola bilərdi [199]. Tədqiqatçı E.Abdullayev isə "daha çox İran ətrafında sıx torun hazırlanması, İranın blokadasının gücləndirilməsində Rusiya ilə yaxınlaşma ABŞ-a gərək idi" fikrini irəli sürür [199]. Azərbaycan isə dəfələrlə İran məsələsində ABŞ-ın təkliflərini qəbul etməmişdi. Məsələn, 2006-cı ildə ABŞ-a ilk rəsmi səfərində ölkə başçısı öz ölkəsinin antiiran fəaliyyətində iştirakını rədd etmiş və bildirmişdir ki, "Azərbaycan regiondakı məsələlərin sülh yolu həllinin tərəfdarıdır və İranla imzalanmış razılşmaya əsasən bizim ərazimiz bir-birinə qarşı hərbi məqsədlər üçün istifadə edilə bilməz" [276]. Bu baxımdan da Azərbaycanla ABŞ-ın mövqelərindəki uyğunsuzluq üzrə çıxırdı. Yəni Azərbaycan tərəfi İranla öz qonşuluq münasibətlərini müdafiə edir və onun sıxışdırılmasında iştirak etməyəcəyini bildirirdi ki, bu da Obama administrasiyası üçün arzuolunmaz idi. Çünki onlar Azərbaycanın öz müstəqil suveren iradəsinin ABŞ maraqlarına qurban verilməsini istəyirdilər. Təbii ki, prezident İlham Əliyev ABŞ iradəsini kor- koranə qəbul etməyəcəkdi və etmədi də.

Digər tərəfdən regiondakı Azərbaycanla bilavasitə bağlı olan bir sıra məsələlərin həllində Azərbaycanın mövqe və maraqlarının nəzərə alınmaması da bu soyuqlaşmanın səbəblərindən biri kimi çıxış edirdi. Məsələn, Ermənistan-Türkiyə sərhədlərinin açılması məsələsi bunun bariz nümunəsidir. Rəsmi Vaşinqton Türkiyə ilə Ermənistan arasındakı münasibətlərin yaxşılaşdırılması istiqamətində aparılan işlərdə Azərbaycanı uzaqda tutmağa çalışır və onun maraqlarını nəzərə almırdı. İki ölkənin birgə səyi bu problemin həllinə yol açdı və Ermənistanla sərhədlərin açılmasının yalnız Qarabağ probleminin həlli ilə mümkün olacağı mövqeyini gücləndirdi.

Ancaq bu soyuqlaşmaya baxmayaraq iki dövlət arasında münasibətlər davam edirdi. Sadəcə olaraq ötən illərlə müqayisədə onların intensivliyi xeyli azalmışdı. Buna baxmayaraq demək lazımdır ki, müxtəlif səviyyəli görüşlər davam edirdi. 2010-cu il fevralın 4-də Prezident İlham Əliyev 46-cı Münhen Təhlükəsizlik Konfransında ABŞ dövlət katibinin birinci müavini Ceyms Steynberq ilə

görüşmüşdür. Görüşdə Dağlıq Qarabağ probleminin nizamlanması, ikitərəfli münasibətlər və regional məsələlər ətrafında müzakirələr aparmışdı [36].

2010-cu ilin iyulun 4-də ABŞ dövlət katibi Hillari Klintonun ölkəmizə səfəri olmuşdur. Bu görüşdə ABŞ dövlət katibi ölkəsinin Azərbaycanla əməkdaşlıq münasibətlərindən məmnunluğunu qeyd edərək, Azərbaycanın regionda mühüm rolunu vurğulamış, ölkəmizin enerji və digər sahələrdə əməkdaşlığının geniş-ləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. 2010-cu ilin ən mühüm hadisəsi isə 24 sentyabrda Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri hesab oluna bilər. Bu səfər çərçivəsində ABŞ-ın prezidenti Barak Obama İlham Əliyevin liderlik rolunu xüsusi qeyd edərək, Azərbaycanın regionda ən çox uğurlar qazanan və ən nüfuzlu ölkələrdən biri olduğunu vurğuladı [35]. Həmçinin regional və beynəlxalq məsələlərin müzakirəsi, Qarabağ məsələsinin həllinin vacibliyi, enerji sahəsindəki əməkdaşlıq, ölkədəki demokratik inkişaf prosesləri məsələlərinə toxunuldu. Prezident İlham Əliyev BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış etmiş, burada Qarabağ məsələsinin bir daha qaldırmış və onun həllində qəti mövqe tutulmasının vacibliyini vurğulamışdır. Həmçinin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji dəhlizlərinin qovşağında yerləşən Azərbayca-nın strateji və coğrafi mövqeyinin mühüm olması, Azərbaycanın böyük neft və qaz ehtiyatlarının olması və yeni yataqların kəşfinin perspektivləri, karbohidrogen ehtiyatlarının beynəlxalq bazarlara daşınması üçün müasir infrastrukturların yaradılması məsələlərinə toxunmuş, hasilat sənayesində şəffaflıq təşəbbüsünün fəal üzvü kimi Azərbaycanın rolunu açıqlamışdır.

2011-2015-ci illərdə iki ölkə arasındakı əlaqələrdə daha çox iqtisadi-hərbi əməkdaşlıq məsələləri ön planda olmuşdur. Müxtəlif vaxtlarda keçirilən görüşlər içərisində 2012-ci il xüsusilə məhsuldar olmuşdur. 2012-ci il yanvarın 25-də Davos Samiti çərçivəsində prezident İlham Əliyev ABŞ-ın dövlət katibinin iqtisadiyyat, energetika və kənd təsərrüfatı üzrə müavini Robert Hormats ilə görüşmüşdür [113]. 2012-ci il mayın 3-də prezident İlham Əliyev ABŞ-a işgüzar səfər etmiş, bu səfər dövründə ABŞ-ın nəqliyyat komandanı Vilyam Freyzerlə görüşmüş, elə həmin gün (3 may) Nyu-Yorkda prezident İlham Əliyevin adından Azərbaycan Respublikasının

BMT-yə qəbulunun 20-ci ildönümü və ölkəmizin 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə rəsmi qəbul təşkil edilmişdir [37]. Bu qəbulda çıxış edən prezident İlham Əliyev Azərbaycanda keçirilən siyasi islahatlara toxunmuş, multikulturalizm sahəsində görülmüş tədbirləri vurğulamış, iqtisadi islahatlar nəticəsində sənaye istehsalının 3 dəfə artmasını, yoxsulluq səviyyəsinin 50%-dən 7,6%-ə düşdüyünü, işsizlik səviyyəsinin 5,4% olduğunu göstərmişdir [37]. Mayın 4-də isə Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə BMT TŞ-nın yüksək səviyyəli iclası keçirilmiş, iclasda Azərbaycanın təşəbbüsü ilə terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər mövzusunda müzakirələr aparılmışdır [38]. Burada çıxış edən prezident İlham Əliyev terrorçuluğun hər bir formasını pisləmiş, hər bir terror aktının ağır bir cinayət olmasını göstərmişdir. Həmçinin işgal olunmuş Azərbaycan ərazilərində terrorçulugun inkişafı, narkotiklərin qanunsuz dövriyyəsi, qaçaqmalçılığın geniş vüsət almasını göstərmişdir [38].

2012-ci ilin fevralın 5-də Prezident İlham Əliyev Münhendə ABŞ-ın dövlət katibi Hilları Klintonla görüşmüş və burada Azərbaycanın antiterror koalisiyasının tərkibində iştirakı, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı fikir mübadiləsi aparmışdır.

2013-cü ilin yanvarında Davos sammiti çərçivəsində prezident İlham Əliyev "MC Kinseys Company" şirkətinin rəhbəri Dominik Bartonu, ABŞ-ın "Booz SCO" şirkətinin baş icraçı direktoru Gezare Maynardi ilə, "Microsoft İnternational" şirkətinin prezidenti Jan Filip Kurtua ilə görüşmüşdür. Hər bir görüşdə Azərbaycanla əlaqələr, iqtisadi əməkdaşlığın artırılması məsələləri müzakikirə olunmuşdur. Həmin il iyulun 18-də Azərbaycanın dostları Assambleyasının Vaşinqtonda keçirdiyi "Cənub" Qaz Dəhlizi və onun Avropanın enerji təhlükəsizliyində roluna həsr olunmuş tədbir keçirilmişdir. Burada ABŞ Senatının və Nümayəndələr Palatasının 20-dən artıq üzvünün, dövlət departamenti rəsmilərinin, nüfuzlu analitik mərkəzlərin mütəxəssislərinin və KİV-in geniş iştirakı olmuşdur. Burada Azərbaycanın enerji təhlükəsizliyində rolu bir daha vurğulanmışdır.

2013-cü il avqustun 7-də Azərbaycanın müdafiə naziri Səfər Əbiyevin ABŞ-ın müdafiə naziri Çak Heygelin dəvəti ilə Vaşinqtona səfəri olmuş, keçirilən görüşlərdə Qarabağ münaqişəsi, antiterror əməliyyatlarında Azərbaycanın iştirakı, hərbi sahədə əməkdaşlığın genişləndirilməsi məsələlərinə diqqət yetirilmişdir.

2013-cü ildə Rusiyanın Ukraynaya müdaxiləsi, Suriya hadisələri, digər tərəfdən Avropanın enerji təhlükəsizliyində Azərbaycanın artan rolu ABŞ-ın Azərbaycana olan münasibətlərində müsbət irəliləyiş yaratmışdır. Bu səbəbdən 2016-cı il martın 31-də Vaşinqtonda keçirilən Nüvə Sammitinə prezident İlham Əliyev dəvət olunmuşdur. Həmin səfəri ABŞ-ın Azərbaycandakı səfiri iki dövlət arasındakı münasibətlərdə dönüş nöqtəsi adlandırmışdır [62, 395]. Səfər dövründə Azərbaycan Respubliaksının prezidenti ABŞ-da bu ölkənin ali dövlət rəsmiləri ilə- prezident, vitse-prezident, dövlət katibi, eləcə də bu ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan şəxsləri və yəhudi lobbisi ilə məhsuldar görüşlər keçirmişdir [292].

2016-cl il aprelin 1-də Vaşinqtonda keçirilən IV Nüvə Sammitində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin iştirakı Azərbaycan-ABŞ münasibətlərindəki soyuqluğun aradan qaldıırılması üçün böyük bir addım idi. Təbii ki, bu öz nəticəsini verəcəkdi. Hər iki tərəf öz mövqelərində müəyyən razılaşmalara və mənafe eyniliyinə gələcəkdi.

Bu səfəri Nüvə Sammitində iştirakdan çox Azərbaycan prezidentinin işgüzar rəsmi səfəri kimi xarakterizə etmək düzgün olardı. Görüş zamanı prezidet İlham Əliyev ABŞ-ın vitse-prezidenti Co Baydenlə, dövlət katibi Con Kerri ilə, ABŞ-ın ticarət naziri ilə, ABŞ-ın bir sıra konqresmenləri ilə görüşlər keçirmişdir.

Martın 30-da ABŞ-ın dövlət katibi ilə görüşündə Con Kerri sülhməramlıların fəaliyyəti, antiterror əməliyyatlarında Azərbaycanın iştirakını, onun "Cənub Qaz Dəhlizi" layihəsindəki rəhbərliyini təqdirəlayiq hesab etmişdir. ABŞ-ın vitse-prezidenti ilə görüşündə isə ABŞ vitse-prezidenti Co-Bayden "Cənub-Qaz Dəhlizi" layihəsinin reallaşdırılması ilə bağlı əməli fəaliyyətini daim izlədiyini, bu fəaliyyətin onu qane etdiyini açıqlamış, Prezident İlham Əliyevin bu layihənin həyata keçirilməsində güclü siyasi iradə nümayiş etdirdiyini vurğulamışdır.

2016-cı il iyun ayının 1-də Bakıda XXIII Beynəlxalq "Xəzər Neft və Qaz - 2016" sərgi və konfransı, eləcə də VI Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi ilə əlaqədar ABŞ prezidenti Barak Obama Prezident İlham Əliyevə məktub göndərmişdir. Məktubda deyilirdi: “Azərbaycanın tam potensialına nail olmaqda, o cumlədən şaxələndirilmiş iqtisadiyyatı təşviq etməkdə, sərmayə muhitini təkmilləşdirməkdə, hesabatlılığı, qanunun aliliyini gucləndirməkdə və nəhayət, Azərbaycan xalqının yaşayış standartlarını yaxşılaşdırmaqda atdığınız davamlı addımlarınızı dəstəkləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın sadiq tərəfdaşı olaraq qalır” [14]. Bu məktub, eləcə də ABŞ rəsmiləri ilə aparılan növbəti görüşlər iki ölkə arasındakı münasibətlərin yenidən canlanmasının sübutu oldu.

Beləliklə, 2009-2016 cı illər Azərbaycan-ABŞ münasibətlərində müəyyən soyuqlaşma baş versə də, yekun olaraq deyə bilərik ki, münasibətlər yenidən tənzimlənmiş və hər iki dövlət siyasi, hərbi, iqtisadi tərəfdaş kimi öz fəaliyyətlərini davam etdirmişdirlər. ABŞ-da yeni prezident seçkiləri nəticəsində hakimiyyətə gələn Tramp dövründə ABŞ-Azərbaycan münasibətlərinin perspektivləri, sözsüz ki, yeni prezidentin atacağı xarici siyasət addımlarından xeyli asılıdır. Nəzər yetirək ki, ABŞ-da Donald Trampın hakimiyyətə gəlişi Araşdırma Mərkəzləri tərəfindən aparılan tədqiqatların əksəriyyətində proqnozlaşdırılmırdı. Aparılan sorğularda səslərin sayının əksəriyyətinin Hilları Klintonun xeyrinə olduğu bildirildi. Ancaq bütün bunlara baxmayaraq Donald Tramp qalib gələrək ABŞ-ın 45-ci prezidenti seçildi. Tramp seçkiqabağı kampaniyası dövründə ksenofobik bəyanatları ilə tanınmış, qloballaşmaya deyil, daha çox prioritet məsələ kimi daxili problemlərin həllinə üstünlük verən namizəd kimi yadda qaldı.

# III FƏSİL
# AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ: ÇOXTƏRƏFLİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAFIN MÜHÜM ASPEKTLƏRİ

## 3.1. Azərbaycan Respublikası ilə ABŞ arasında iqtisadi əlaqələr və

əsas istiqamətləri

Artıq 2001-ci ildən sonra Azərbaycan-ABŞ münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdi. ABŞ hökuməti Azərbaycanla iqtisadi əlaqələrə daim yüksək önəm vermişdir. Onu da deyək ki, hələ ABŞ-da Bill Klintonun və Azərbaycanda Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə onlar arasındakı məktublaşmalarda da, görüşlərdə də iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət verilirdi. ABŞ Prezidenti Bill Klintonun Azərbaycan Resspublikasının Prezidenti Heydər Əliyevə ünvanladığı 21 may 1995-ci il tarixli məşhur məktubda iqtisadi əlaqələr önə çəkilərək qeyd edilirdi: "Əziz, cənab Prezident! Bu gün mən üç məsələyə toxunmaq istəyirəm: Uzun sürən sülhün əldə olunmasına dəstək vermək, Xəzər dənizindəki neft yataqlarından istifadə etmək, bazar islahatlarında və demokratik seçkilərin keçrilməsində tərəqqiyə nail olmaq.

Biz Xəzər dənizinin neft ehtiyatlarının müvəfəqiyyətlə istifadə olunmasını bir preoritet hesab edirik. Ona görə ki, bu Azərbaycanın tamamilə suveren və çiçəklənən bir dövlətə çevrilməsinin açarıdır. ABŞ-ın çox milyard dollarlıq kommersiya maraqlarını Azərbaycan cəlb edir və eyni zamanda, XXI əsrdə bütün dünyanın enerji ehtiyatlarına olan tələbatının ödənilməsinin yeni mühüm mənbəyidir. Amerika Birləşmiş Ştatları Xəzər dənizinin neft və qaz ehtiyatlarının istifadə olunmasına və ixrac olunmasına yardım göstərmək məqsədilə Azərbaycan, regionun digər dövlətləri, beynəlxalq maliyyə institutları və özəl şirkətlər ilə fəal surətdə iş aparacaqdır" [48].

ABŞ prezidenti Bill Klinton Azərbaycan neftinin "etibarlı və iqtisadi cəhətdən sərfəli surətdə Qərbə ixtac olunmasına" böyük əhəmiyyət verərək, Azərbaycanda tikiləcək boru kəmərlərinin maliyyələşdirilməsi, Xəzəryanı dövlətlərin enerji resurslarının Qərbə Azərbaycan vasitəsilə nəqli məsələlərinə də xüsusi diqqət ayırırdı.

Corc Buş administrasiyası da iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün səylərini artırırdı. Görkəmli ABŞ politoloqu  Z.Bjezinski özünün məşhur "Böyük şahmat taxtası" əsərində Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin vəhdətinə toxunaraq yazır: "Özünün əsas neft ehtiyatları ilə Azərbaycanın əgər

müstəqilliyi ləğv olunsa o, tamamilə Moskvanın nəzarətinə keçəcəkdir. Rusiyanın nəzarətində olmayan ərazilərdən keçən neft kəmərləri ilə Qərb bazarlarına birləşən Azərbaycan həm də Orta Asiya respublikalrının enerji ehtiyatlarının nəqli üçün magistral ola bilər" [124, 26]. Azərbaycanın iqtisadi potensialının ABŞ üçün maraq doğurduğunu göstərən müəllif bu ölkənin böyük güclərin hərtərəfli rəqabətinə məruz qaldığını da diqqətə çatdırır, Azərbaycanda neft boru kəmərlərinin maliyyələşdirilməsində ABŞ-ın marağı olduğunu qeyd edir.

2006-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-a rəsmi səfəri bütün sahələrdə, o cümlədən iqtisadi əlaqələrin genişləndirilməsində çox əhəmiyyətli oldu. Hər iki dövlət gələcək qlobal enerji və nəqliyyat layihələrində birgə iştirak etməyi bəyan etdi.

2000-ci illərdə ABŞ Cənubi Qafqazda və Xəzər hövzəsi regionunda transmilli layihələrdə fəal iştirak etdi. ABŞ-ın neft şirkətləri Azərbaycana 5 milyard dollardan artıq investisiya qoydu. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri Amerika investorlarını daha çox cəlb etdi və onlar Azərbaycan neftinin və qazının dünya bazrlarına nəqlində əsas rol oynadılar.

2007-ci ildə Azərbaycan-ABŞ iqtisadi əlaqələrinin inkişafına ABŞ-ın Dövlət katibinin iqtisadi və ticarət məsələləri üzrə xüsusi nümayəndəsi Mermudun, ABŞ-ın Dövlət katibinin iqtisadi və biznes məsələləri üzrə məsləhətçisi, Azərbaycan-ABŞ hökumətlərarası komissiyanın həmsədri Daniel Salivanın səfərləri xüsusilə əhəmiyyətli oldu. ABŞ Azərbaycanın aqrar və qeyri-neft sektorlarının inkişafına da kömək etdi. Bu məsələdə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) "ictimai investisiya siyasəti" layihəsini maliyyələşdirdi.

2008-ci ildə ABŞ Senatı Azərbayana tətbiq edilən "Cekson-Venik" düzəlişini ləğv etdi. Bu isə Azərbaycan-ABŞ arasında ticarətin ikitərəfli inkişafına yeni təkan verdi. Bu düzəliş hələ 1974-cü ildə ABŞ konqresi tərəfindən qəbul edilərək mühacirət hüquqlarını məhdudlaşdıran, habelə, insan hüquqlarını müxtəlif formalarda pozan dövlətlərə qarşı ticarət və iqtisadi sanksiyaları nəzərdə tuturdu.

Yuxarıda qeyd edildlyi kimi, prezident Barak Obama adminstrasiyası və Azərbaycan rəhbərliyi arasında mürəkkəb şərait yaranmışdı. ABŞ Azərbaycan

qazının Avropaya NABUKO layihəsi çərçivəsində Rusiyadan ayrılma tranzitini istəyərək təzyiq göstərməyə başlamışdı. Azərbaycan bütün təzyiqlərə qarşı dayanmaqla yanaşı öz ərazisindən ABŞ təyyarələrinin Əfqanıstana uçuşuna da icazə vermədi.

2010-cu il aprelin 12-13-də Vaşinqtonda nüvə təhlükəsizliyinə dair keçirilən sammitə Azərbaycan dəvət edilmədi. Sammitdə Azərbaycanın maraqlarını Türkiyə təmsil etdi.

Lakin bir müddət sonra ABŞ Azərbaycanla münasibətlərini qaydaya salmağa başladı. ABŞ hökuməti anladı ki, Azərbaycan iqtisadi cəhətdən kifayət qədər güclü dövlətdir, ikincisi, İlham Əliyev də güclü dövlət başçısıdır, üçüncüsü, Azərbaycan Qarabağ məsələsində heç vaxt güzəştə getməyəcəkdir.

Artıq 2011-ci ildə Azərbaycan-ABŞ iqtisadi əlaqələri və enerji əməkdaşlığı normallaşdı. ABŞ Cənub Qaz Dəhlizinə 20 milyard dollara qədər investisiya qoydu. Bu dəhliz Xəzər qazını Avropa İttifaqı ölkələrinə çatdırmaq üçün nəzərdə tutulmuşdu. Layihə bir neçə kəmərin "Nabuko", "Mavi axın", TAP, TANAP qaz kəmərlərinin çəkilişi ilə başa çatdı. Bu layihələr Azərbaycan, Avropa və ABŞ arasında iqtisadi əlaqələri daha da inkişaf etdirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Barak Obama ilə görüşlərində və ona göndərdiyi məktublarında bu məqama toxunaraq yazır: "Hörmətli cənab Prezident! Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri bu gün hərtərəfli və dinamik inkişaf yolundadır. Enerji təhlükəsizliyinin təmin edilməsi, qlobal təhdidlərə və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində fəal qarşılıqlı işimiz münasibətlərimizi strateji tərəfdaşlq səviyyəsinə yüksəltmişdir" [13,50].

D.Trampın Pensilvaniya ştatında söylədiyi "Getissburq nitqin"də ölkədaxili problemlər ön plana çəkilir, siyasi sistemdə bəzi dəyişikliklərin aparılması məsələlərinə toxunulurdu. Məsələn o, çıxışında konstitusiyada konqresmenlərin seçilmə müddətinin azaldılması, Ağ evin keçmiş əməkdaşlarının öz iş yerlərini tərk etdikdən 5 il sonraya qədət lobbist olmasına icazə verilməməsi, xarici hökumət-lərin lobbi maraqlarının müdafiəsinə yol verilməməsi, xarici lobbilərə Amerika seçki

kampaniyaları üçün vəsaitin sərf olunmasına imkan yaradılmaması kimi bəyanatları ilə diqqəti çəkirdi [274]. Bir sözlə, Trampın əsas məqsədi ABŞ cəmiyyətindəki mənzərəni dəyişdirmək, Amerika dövlətinin özünü iqtisadi və hərbi cəhətdən təhlükəsiz hiss etməsinə nail olmaqdır. Xarici siyasət məsələlərində isə yenə də ABŞ dominantlığının saxlanması əsas məsələlərdən idi. O, seçkiqabağı kampaniyasında Rusiya ilə ümumi maraq dairəsi tapmaq, İran və Çinə qarşı sərt mövqe tutmaq və İsraili dəstəkləmək mövqeyini nümayiş etdirirdi. Andiçmə nitqində Tramp elan etdi ki, xarici siyasət bir prinsipə tabe edilməlidir: "Bu gündən etibarən Amerika birinci yerdə dayanmalıdır. Ticarət, vergi, immiqrant, xarici siyasət məsələlərində həmişə Amerika birinci yerdə olmalıdır" [274].

Çinin dünya ticarətində getdikcə artan rolunu ABŞ üçün təhlükə hesab edən Tramp Pekin adminstrasiyasını "valyuta manipulyatoru" adlandırır və bu ölkəyə qarşı "ticarət müharibəsi" aparmağı vəd edirdi. Ancaq onun Çin lideri ilə görüşündən sonra qarşılıqlı dostluq və anlaşmaya malik olduqları bəyan edildi [275]. Rusiyaya münasibətdə isə o, yenə də düşmənçilik və soyuqluğun saxlanmasını nümayiş etdirir. Tramp İranın nüvə proqramı məsələlərini gündəmə gətirərək ona qarşı sanksiyalarını gücləndirmək siyasətini davam etdirməyə başladı. ABŞ regiondakı öz müttəfiqləri – İsrail və ərəb ölkələri üçün İranı təhlükə mənbəyi kimi qiymətləndirir. Elə prezidentin ilk rəsmi səfərinin ənənəvi olaraq Meksikaya və Kanadaya deyil Səudiyyə Ərəbstanına getməsi (20-21 may 2017-ci il), oradan sonra İsrailə və Avropaya yola düşməsi çox şeyi göstərir. Ən əsası isə bu ölkələrin ABŞ üçün nə qədər mühüm əhəmiyyət daşıdığını nümayiş etdirir. Prezident D.Tramp  Səudiyyə Ərəbistanında təşkil olunmuş qəbulda qeyd etmişdir: "Bu gün mənim üçün böyük bir şərəfdir ki, sizinlə birlikdəyəm. Prezident kimi mənim buraya ilk gəlişim iki ölkə arasında sarsılmaz dostluğun təsdiqidir" [288]. Burada D.Tramp  ərəb ölkələri ilə münasibətlərin stabilləşdirilməsi, terrora qarşı mübarizə məsələlərinə toxunmuşdur. O, həmçinin Obama ilə İran arasındakı razılaşmanı tənqid edərək, bunun ABŞ-İsrail münasibətlərinə zərbə olduğunu vurğulamışdır. Ümumilikdə, ABŞ prezidentinin ilk rəsmi səfər kimi bu ölkələri seçməsi Azərbaycana da bir sıra imkanlar açır. İlk növbədə vurğulamalıyıq ki, Səudiyyə Ərəbistanı və İsrail Azərbaycanın çox yaxın

müttəfiqləri sayılırlar. Çünki Azərbaycan erməni lobbisinin anti-Azərbaycan fəaliyyətindən qorunmaq üçün dəfələrlə İsrail lobbisinin və dövlətinin ABŞ-dakı nüfuzundan istifadə etmişdir. Eləcə də Obama dövründə Azərbaycan-ABŞ münasibətlərinin soyuqlaşmasının bir səbəbi kimi İsrail-ABŞ münasibətlərinin soyuqlaşmasını da nəzərə alaraq ABŞ-la İsrail arasında yeni irəliləyiş Azərbaycanın xeyrinə olduğu qənaətinə gəlmək olar. Digər tərəfdən D.Trampın İsrail-Fələstin münaqişəsinin həlli məsələsini qoyması regional münaqişələrin, o cümlədən Qarabağ münaqişəsinin həlli məsələsinin də reallaşa biləcəyi ehtimalını irəli sürür. Caspian Group Holdings şirkətinin rəhbəri Rob Sabxani "Washington Times"-da nəşr etdirdiyi məqaləsində vurğulayır ki, "Vaşinqton Yaxın Şərqdəki vəziyyətlə çox məşğul olsa da, Yerevan və Bakı arasındakı münasibətlərdə bu fəallığı göstərmir. Tramp Azərbaycan və Ermənistan arasında sülhə nail olmaqla bütün dünyada ABŞ-ın qlobal stabilliyə xidmət etdiyini bir daha bəyan edə bilər" [284]. Sonra o nəzərə çatdırır ki, "Ən mühümü odur ki, Yaxın Şərq regionunda Tramp Azərbaycan prezidenti İlham Əliyevdən daha inanılmış və etibarlı tərəf- müqabil tapa bilməyəcək" [284]. Əgər nəzərə alsaq ki, bir investor kimi D.Tramp Azərbaycanla və eləcə də İlham Əliyevlə yaxşı tanışdır və o, ölkə prezidentinin yuxarıda qeyd olunan üstünlüklərini qiymətləndirir. Digər tərəfdən seçkiqabağı kampaniyasında "Daha Böyük Amerika quracağıq" şüarı ilə çıxış edən D.Trampın təhlükəsizlik məsələlərinə daha böyük önəm verəcəyi ehtimalını irəli çəkir və ABŞ-ın Azərbaycanla təhlükəsizlik sahəsindəki əməkdaşlığına təsir edə biləcək geniş məsələlərin ortaya çıxmasını gözləmək olar. Rusiyaya qarşı sanksiyaların davam etdirilməsi və ona qarşı radikal mövqe də Tramp adminstrasiyasının Obamadan fərqli olaraq Qafqaz bölgəsində ABŞ-ın nüfuzunun möhkəmlənəcəyinə, həmçinin Qarabağ məsələsinin həllində ABŞ-ın nəzarəti öz əlinə alacağı ehtimalına əsas verir. Çünki Azərbaycan Vaşinqtonla güclü təhlükəsizlik münasibətlərinə malik olmağa hazırdır. Təbii ki, bu da Qarabağ münaqişəsinin hərtərəfli həllinə gətirib çıxara bilər. Prezident İlham Əliyevin 2017-ci il mayın 22-də Səudiyyə Ərəbistanında keçirilən Ərəb-İslam-Amerika sammitində iştirakı antiterror əməliyyatlarında etibarlı əməkdaş olduğunu, təhlükəsizlik və sülhün qorunmasında daim Azərbaycanın səy

göstərməsini bir daha sübut etdi. Prezident D.Trampın burada "İslam ölkəsində münaqişə ocaqlarının dünyada təhlükəsizliyi təhdid etdiyini, sülhün bərqərar olması istiqamətində tədbirlərin görülməsinin vacibliyini irəli sürməsi" də Qarabağ münaqişəsinin həllinə optimist baxılmasına şərait yaradır. Prezident D.Trampın erməni lobbisi ilə əlaqələrinin olmaması, bu diasporanın təsirini azaldacağı, Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyinin tanınacağı gözlənilir. Millət vəkili Asim Mollazadə bildirir ki, yeni prezident yerli münaqişələrin həllində fəaliyyətini gücləndirsə, çox yaxşı olar. Biz Tramp hökumətindən çox şey gözləyirik. Çünki, Trampın lobbi ilə heç bir əlaqəsi yoxdur [273].

Azərbaycan-ABŞ əlaqələrinin D.Tramp administrasiyası dövründə daha da yaxınlaşacağı ehtimalını respublikaçılarla Azərbaycan arasındakı əlaqələr də sübut edir. 2016-cı il noyabrın 12-də keçmiş Azərbaycan Prezident administrasiyası rəhbərinin müavini, indiki Baş nazir Novruz Məmmədov ABŞ-ın Respublikaçılar Partiyası ilə bağlı səmimiyyətini açıq şəkildə bildrimiş və demişdir: "Demokratlar demokratiya və insan hüquqları məsələlərinə daha çox diqqət yetirirlər. ABŞ-dakı erməni diasporu onlara çox güclü təsir göstərir. Buna baxmayaraq,s son seçkilərin nəticəsi olaraq bəzi erməniپərəst senat üzvləri aciz qaldılar" [262]. Prezident İlham Əliyev də seçkilərin səhəri günü Dünya xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbulu zamanı jurnalistlərin verdiyi sualları cavablandıranda bildirmişdir ki, "D.Trampa qarşı aparılan aqressiv kampaniyaya baxmayaraq, Amerika xalqı ona böyük dəstək göstərdi, o, seçkilərdə qalib gəldi. Bu seçkilərə görə o, ancaq özünə borcludur. O, böyük hörmətə layiqdir" [262]. Prezident İlham Əliyevin Trampın qələbəsini belə qiymətləndirməsi yeni prezident dövründə Azərbaycan-ABŞ münasibətlərinin daha da yaxınlaşacağını göstərir. Bu həmçinin, bir tərəfdən respublikaçılarla əlaqələrin möhkəmliyindən, digər tərəfdən isə Trampın seçkiqabağı kampaniyada səsləndirdiyi antimüsəlman ritorikasının güclü dünyəvi ənənyə malik olan tolerant bir dövlət kimi Azərbaycana aid olmadığını göstərdi. Nəzərə almaq lazımdır ki, Respublikaçılar Partiyasının əksər üzvlərinin də daxil olduğu "Azərbaycan dostları qrupu" Respublikaçı Partiyası ilə Azərbaycan arasındakı əlaqəni bir daha sübut edir. Azərbaycan-ABŞ

münasibətlərinin D.Trampın administrasiyası dövründə daha da yaxınlaşması ehtimalını Azərbaycanın Amerikanın geosiyasi, iqtisadi və enerji maraqlarına uyğun olması faktı da təsdiqləyir. Milyarder kimi Tramp Azərbaycanda əvvəllər də investisiya yatırımları etmiş və bu ölkənin investisiyalar üçün cəlbedici olduğunu, Qərb üçün enerji təhlükəsizliyi baxımından əhəmiyyətli olduğunu, həmçinin öz milli maraqlarına uyğun olan müstəqil xarici siyasət yetirdiyini bilir. Bu baxımdan, N.Məmmədov, E.Nəsirov kimi nüfuzlu ekspertlərin rəyi ilə razılaşmaq lazımdır ki, Azərbaycanın daxili işlərinə qarışmaq məsələsi, insan hüquqları məsələsini irəli sürərək iki ölkə arasında soyuqlaşma yaratmaq problemləri ilə Azərbaycan D.Trampın administrasiyası dövründə qarşılaşmayacaq. Xarici siyasi əməkdaşlıqda ön plana iqtisadi, təhlükəsizlik məsələləri keçəcək və ABŞ-la Azərbaycan arasında dialoq daha praqmatik maraqlar əsasında qurulacaqdır. Bunu ABŞ prezidenti D.Trampın Azərbaycan prezidenti İlham Əliyevə 28 May - Respublika günü və Bakıda keçirilən 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimi ilə əlaqədar məktubları, 10 iyul 2017-ci il İlham Əliyevin ABŞ-ın dövlət katibi ilə görüşü, Ər-Riyadda Trampın çıxışı da sübut edir. Göndərilən məktublarda : "ABŞ Cənub Qaz Dəhlizini dəstəkləyir"; "ABŞ sizinlə işləməyə hazırdır"; "ABŞ Azərbaycanla birgə həyata keçirilən layihələrə böyük önəm verir", "Azərbaycanın inkişafını, enerji təhlükəsizliyinin qorunması yönündə səylərini dəstəkləyirəm" fikirləri prezident Donald Trampın Azərbaycana münasibətinin bariz nümunəsidir.

Göndərilən məktubları millət vəkili Elman Nəsirov rəsmi Vaşinqtonun Azərbaycanla əməkdaşlıqda maraqlı olması baxımından şərh edir və bildirirdi ki, Tramp Azərbaycanı aşağıdakı baxımdan mühüm sayır:

- Cənubi Qafqazda sözü keçən dövlətdir;
- Zəngin enerji ehtiyyatlarına malikdir;
- Avropaya enerji göndərən mühüm subyektdir;
- Dinamik inkişafda olan, sabit dövlətdir " [262].

Deməli, Azərbaycan Tramp administrasiyası tərəfindən ABŞ üçün investisiya yatırımlarının qoyulması baxımından əlverişli bir məkan, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı bir əməkdaş kimi qiymətləndirilir. Demək,

dünyadakı böyük gərginliklərə baxmayaraq, Tramp administrasiyası dövründə iki dövlət arasında geniş əlaqələrin artmasını perspektivdə gözləmək mümkündür. Məsələyə bu cür yanaşsaq, ABŞ-Azərbaycan münasibətlərinin heç bir subyektiv mövqedən asılı olmaması qənaətinə gələrik. Dünyada baş verən heç bir proses iki dövlət arasındakı münasibətlərin inkişaf dinamikasının qarşısını ala bilməz. Yəni ABŞ Azərbaycan amili ilə daim hesablaşmalı və onun suveren mövqeyi beynəlxalq aləmdə cərəyan edən proseslərdən asılı olmayaraq inkişaf etmək potensialına malik olmasını ifadə edir. Bu isə yalnız tam müstəqil və suveren dövlətlər arasında mümkün ola bilər. Yəni ABŞ Azərbaycanı müstəqil milli dövlət kimi qəbul edir və onun xarici siyasət maraqlarını nəzərə alır. Məntiqi baxımdan bu, Azərbaycanın xarici siyasətinin uğuru kimi qəbul edilməlidir. Belə ki, müstəqilliyini yeni əldə etmiş bir dövlət üçün bu, mühüm bir qiymətləndirmədir. Digər tərəfdən bu, Azərbaycanın xarici siyasətinin effektivliyini, müstəqilliyimizi təmin edən mövqenin güclülüyünü və müstəqilliyin əldə edilməsindən başlayaraq tətbiq edilən dəyişikliklər kursunun düzgünlüyünü təsdiq etmiş olur.

ABŞ dövlət başçısı yazır: "Biz Azərbaycan xalqının yanındayıq və təhlükəsizlik, iqtisadi əməkdaşlıq və demokratik prinsiplər sahəsində dialoq vasitəsilə münasibətlərimizin möhkəmləndirilməsinə sadiqik" [262]. Vaşinqton tərəf bu məktubda bir neçə mövqeyini və Azərbaycandan gələcək gözləntilərini açıqlamış oldu ki, onları aşağıdakı şəkildə təqdim etmək mümkündür:

- enerji və iqtisadi proqramların tətbiqi ilə yanaşı onların təhlükəsizliyinin təmininin də önəmli olması;
- regional təhlükəsizliyin real əsaslarının yaradılması;
- əlverişli biznes əlaqələrinin qurulması;
- Qarabağ probleminin sulh yolu ilə həllində Azərbaycanın maraqlarının dəstəklənməsi;
- Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsinə və gələcək investisiyalar üçün açıq olmasına maraq göstərməsi.

Deməli, Qarabağ probleminin həllinin Avropanın enerji təhlükəsizliyi mövqeyindən vacibliyi də Ağ ev tərəfindən nəzərə alınır. Bu isə bizə söyləməyə əsas

verir ki, ABŞ Qarabağ probleminin həllində daha qəti və əsaslandırılmış mövqe nümayiş etdirəcəkdir. Beləliklə, bütün yuxarıda deyilənləri nəzərə alsaq, Tramp administrasiyası dövründə iki dövlət arasındakı münasibətlərdə yaxınlaşma üçün geniş perspektivlər açılır. Bu perspektivlər aşağıdakılardır:

- ABŞ-ın anti-Rusiya və anti-İran siyasəti Cənubi Qafqazda onun öz mövqelərinin möhkəmləndirməsi uğrunda mübarizəsinin gücləndirəcəyi ehtimalını verir;
- Avropanın enerji təhlükəsizliyi baxımından Azərbaycanın mühüm rol oynaması faktını ABŞ yüksək qiymətləndirir;
- ABŞ-İsrail münasibətlərinin yaxınlaşması onun bilavasitə Azərbaycanla əlaqələrinin möhkəmləndirilməsinə yol açır;
- Regional münaqişələrin həllində Trampın daha konstruktiv mövqe tutması Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həllini mümkün edir;
- Azərbaycanın tolerant bir dövlət kimi ABŞ tərəfindən qiymətləndirilməsi Trampın ksenofobik bəyanatlarının ölkəyə aid edilməməsini şərtləndirir;
- Trampın məktubları göstərdi ki, Ağ ev Azərbaycanı müstəqil milli dövlət kimi qəbul edir və onun xarici siyasət maraqlarını nəzərə alır;
- Tramp Azərbaycanı təhlükəsiz, dinamik inkişaf edən ölkə kimi dəyərləndirir;
- Azərbaycanı Tramp administrasiyası ABŞ üçün investisiya yatırımlarının qoyulması baxımından əlverişli bir məkan, eləcə də Avropanın enerji təhlükəsizliyində etibarlı bir əməkdaş kimi qiymətləndirir;
- D.Trampın erməni lobbisi ilə əlaqələrinin olmaması, diasporanın təsirini azaldacağını və ABŞ-da anti-Azərbaycan qüvvələrinin fəaliyyətinin zəifləyəcəyini göstərir.

Beləliklə, Azərbaycan-ABŞ münasibətləri daima dinamik inkişafda olub, iki dövlət arasında əməkdaşlığın daha da artması istiqamətinə yönəlmişdir. Bu əlaqələr Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, Azərbaycanın inkişaf etmiş ölkələrin sırasına daxil edilməsinə, onun beynəlxalq münasibətlər sistemində rolunun artırılmasına xidmət edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: “Bizim artıq güclü dövlətimiz vardır. Müstəqil Azərbaycan dövləti. Bizim dəqiq

konsepsiyamız vardır. Bu poqramın reallaşması nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Əgər gələcəklə bağlı fikirlərimizi bir cümlə ilə ifadə etsək deməliyik: Biz inkişaf etmiş ölkəyə çevrilməliyik!"[ 294].

ABŞ-la Azərbaycan Respublikası arasında olan iqtisadi əlaqələr qlobal enerji, kommunikasiya, qeyri-neft, aqrar sahələrini əhatə edir və getdikcə də inkişaf edir.

## 3.2 Azərbaycan Respublikası və ABŞ arasında hərbi əməkdaşlıq

Azərbaycan-Amerika münasibətlərinin təməl əsaslarından biri də hərbi və təhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıqdır. Azərbaycan və ABŞ arasında bu sahədə əməkdaşlıq daim inkişaf edən bir istiqamət olmuşdur. Amerika parametrlərinə müvafiq olaraq bir neçə amil ABŞ-ın hərbi əməkdaş seçməsi məsələlərinə təsir edir. Bu amillərdən birincisi, əməkdaşlıq edilən dövlətdə liberal-demokratik dəyərlərin formalaşdırılmasıdır. Azərbaycan müstəqilliyə atdığı ilk addımlardan başlayaraq ölkə daxilində daim demokratok dəyərləri formalaşdırmağa cəhd etdiyindən, milli və beynəlxalq dəyərlər əsasında açıq cəmiyyətin qurulmasında maraqlı olduğundan ABŞ-ın da maraq dairəsinə daxil edilmişdir.

İkincisi, mülki hakimiyyətlə hərbi qüvvələr arasında razılaşmış münasibətlərin olması. Bu baxımdan Azərbaycan ordusu Elçibəy hökumətini çıxmaq şərtilə heç bir zaman qiyamlarda iştirak etməmiş, əksinə Ümummilli lider H.Əliyevin, eləcə də, Prezident İlham Əliyevin komandanlığı altında dövlət və xalqın milli maraqları üçün daim çalışmışdır.

Üçüncüsü, regional münaqişələrin yayıldığı regionlarda ehtiyatlı siyasətin aparılması ilə onları böyütməkdən çəkinmək.

Dördüncüsü, müxtəlif təzyiq qruplarının, əsasəndə lobbilərin təsiri ilə əlaqələrin yaradılması və genişləndirilməsi. Məlumdur ki, Erməni lobbisi daha böyük təsir dairəsinə və hakimiyyətə təsir etmək baxımından daha böyük təcrübəyə malikdir. Amma Azərbaycan tərəfdə müxtəlif kanallar - neft şirkətləri, yəhudi lobbisi vasitəsilə öz təsirini bu sahədə yaymağa çalışır.

Qeyd etmək lazımdır ki, müasir dünyada ABŞ-ın hərbi sahəyə yönəltdiyi maliyyə yüz milyard dollarla ölçülür və onun siyasətinin əsas strategiyalarından birini təşkil edir. Belə ki, ABŞ-ın hərbi-siyasi strategiyasının əsas məqsədi dünyada vahid təhlükəsizlik sistemini yaratmaqdan ibarətdir. ABŞ təhlükəsizlik strategiyasını həyata keçirərkən iqtisadi və hərbi gücdən istifadə edir.

"Soyuq müharibə"də ABŞ-ın qalib gəlməsi strategiyaya yeni güc və qüvvə verdi. Dünyanın Qərb və Şərq adlanan iki qütblü siyasətini demək olar ki, ABŞ istiqamətləndirir. Dünyanın siyasi səhnəsində ABŞ-ın strategiyasının əsas cəhətləri iqtisadi, siyasi, hərbi, elmi-texniki istiqamətləri əhatə edir. Azərbaycan özünün siyasi strategiyasını balanslaşdırılmış, o cümlədən ABŞ ilə qarşılıqlı əməkdaşlıq üzərində qurur. Demək lazımdır ki, ABŞ-ın xarici hərbi siyasətinin həyata keçirilməsində Dövlət Departamenti də mühüm rol oynayır. Dövlət Departamenti Birləşmiş Ştatların xarici siyasətinin əsas istiqamətlərini, o cümlədən hərbi-xarici siyasətin əsas parametrlərini müəyyənləşdirir, gələcək siyasi fəaliyyət mexanizmlərini, milli maraq dairəsini əsaslandırır və həyata keçirir. Dövlət Departamenti yeni yaradılan dövlətlərin tanınması haqqında prezidentə tövsiyyələr də verir.

Müasir dövrdə ABŞ-ın hərbi-siyasi strategiyasının əsas istiqamətlərini aşağıdakılar təşkil edir:

1. Milli təhlükəsizliyin təmin edilməsi;
2. ABŞ-ın Silahlı Qüvvəllərinin müdafiə qabiliyyətinin və hərbi gücünün daha artırılması;
3. Hərbi sənayenin və elmi nailiyyətlərin, o cümlədən hərbi texnologiyaların daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi;
4. Terrorizmin, xüsusən beynəlxalq terrorizmin qarşısının alınması və onunla mübarizə;
5. Dünya miqyasında ABŞ-ın siyasi, iqtisadi, hərbi gücünün hakimliyi və möhkəmləndirilməsi;
6. ABŞ-ın fövqəldövlət imicinin qorunub saxlanılması;
7. Dünya iqtisadiyyatı və ticarətində üstün mövqe;

8. Ekoloji böhranların, hərbi münaqişələrin və böhranların və s. qarşısının alınması;

Bu mənada, ABŞ bir sıra dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə də hərbi sahədə əməkdaşlıq edir. Onu da bir daha qeyd edək ki, Qafqaz regionunda siyasi prosesləri ətraflı surətdə təhlil etmək məqsədi ilə ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beyker 1992-ci ildə Azərbaycana rəsmi səfər etmişdi. Rəsmi səfər nəticəsində C.Beyker ölkənin iqtisadi, siyasi vəziyyəti ilə yaxından tanış oldu. Qeyd etmək lazımdır ki, ABŞ-ın azərbaycanla hərbi-strateji maraqları Qafqaz və Mərkəzi Asiya siyasətinin bir hissəsini təşkil edir.

Azərbaycan Respublikasının nümayəndə heyətinin 1993-cü ilin fevral ayında Brüsseldə NATO-nun təşkil etdiyi konfransa qatılması mühüm hadisə oldu. NATO-nun xətti ilə keçirilən həmin konfransda Avropanın ümumi təhlükəsizlik problemləri müzakirə edilmişdi. Burada Azərbaycan Respublikasının nümayəndə heyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun səbəbləri və nəticələri barədə, ölkədəki ictimai-siyasi vəziyyət və proseslər və digər aktuallıq kəsb edən problemlər haqqında konfrans iştirakçılarını məlumatlandırmış, həqiqətləri dünya ictimaiyyətinə çatdırmağa çalışmışlar. Təbii ki, ilk dəfə NATO çərçivəsində təşkil olunan belə bir mötəbər konfransda iştirak mühüm əhəmiyyət kəsb edirdi. Onu da qeyd edək ki, 1994-cü ilə qədər NATO ilə Azərbaycan Respublikası arasında münasibətlər hələ tam inkişaf etməmiş, bir növ səthi, tanışlıq xarakteri daşıyırdı. Lakin sonrakı proseslərin cərəyan etməsi Azərbaycan Respublikasının bu mötəbər bir təşkilatla əməkdaşlığını daha da gücləndirdi.

Azərbaycan tərəfi isə hərbi əməkdaşlıqda bir sıra məqsədləri ön plana çəkir ki, onlardan yeni silahlarla təmin olunma, Azərbaycan ordusunu NATO standartlarına uyğunlaşdırma, Ermənistana ABŞ tərəfindən göstərilən hərbi yardımın azalmasına nail olma, Qarabağ probleminin ABŞ-ın vasitəçiliyi ilə həllinə nail olma və s göstərmək olar.

İki ölkənin hərbi sahədə birlikdə apardığı fəaliyyətə terrorizmə qarşı mübarizə, NATO və ABŞ-ın Müdafiə Nazirliyi ilə ayrılıqda həyata keçirilən

əməkdaşlıq, ATƏT-in Minsk qrupu çərçivəsində fəaliyyət və ABŞ-ın rəsmi dairələri ilə işlərin qurulması və s. nəzərə çatdırmaq olar.

Prezident Heydər Əliyev 1994-cü il mayın 4-də Brüsseldə Azərbaycanın suveren bir dövlət kimi NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakına imza atdı. Alyans ilə əməkdaşlıq Azərbaycana bütün Qafqaz regionunu əhatə edən strateji balans və təhlükəsizlik sisteminin yaranmasında iştirak etmək, mübahisəli məsələləri beynəlxalq hüquq normaları çərçlvəsində həll etmək, ölkələrin təhlükəsizlik problemlərinin həlli yolunda NATO-nun böyük nüfuzu və təsir mexanizmlərindən istifadə etmək üçün real imkanlar yaradır. Bu proqram həmçinin Azərbaycana NATO-nun sülh naminə hərbi strukturları ilə əməkdaşlığa, birgə təlim və manevrlər keçirməyə, hərbi quruculuq, kadr hazırlığı və başqa məsələlərdə bloka üzv dövlətlərin, xüsusən də Türkiyənin böyük təcrübəsindən bəhrələnməyə imkan verir.

Bəhs olunan istiqamətdə ikitərəfli əlaqələrin vəziyyəti prezident Heydər Əliyevin 1998-2001-ci illərdə həyata keçirilən müxtəlif tədbirlərdə, konfranslarda, iştirakı və səfərləri zamanı dəfələrlə müzakirə olunmuş, qarşıya çıxan problemlərin optimal həlli yolları tapılmışdır [ 290].

2001-ci il 11 sentyabr hadisəsindən sonra Azərbaycan ABŞ-ın strateji maraqları üçün böyük rol oynamağa başladı. Baş verən dəhşətli terror aktından dərhal sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da baş verən hadisələrlə bağlı xüsusi bəyanat verərək, terror aktlarını və terrorçuluğun bütün təzahurlərini bir daha qətiyyətlə pislədi [307]. Prezident Heydər Əliyev Azərbaycan dovlətinin terrorçuluğa qarşı həmişə mübarizə apardığını qeyd edərək, terrorçuluq əleyhinə tədbirlərdə Bakının ABŞ-ı dəstəklədiyini, terrorla mübarizədə qarşlıqlı əməkdaşlığın inkişafında maraqlı olduğunu və əməkdaşlığa hazır olduğunu xüsusilə qeyd etdi [307].

Terrorla mübarizədə qarşlıqlı əməkdaşlıq yaratmaq zərurəti meydana çıxan zaman Azərbaycanın tərəfdaşlıq mövqeyi tutması, o cümlədən Əfqanstana gedən hərbi karvanın üzərində yerləşməsi ölkənin ABŞ və NATO ilə hərbi-strateji tərəfdaşlıq məsələlərində özünü göstərdi. Rəsmi Vaşinqtondan irəli sürülən təklifləri

özünün milli təhlükəsizlik strategiyası və milli dövlətçilik maraqları çərçivəsində düzgün qiymətləndirən Azərbaycan hökuməti ABŞ-ın başçılığı ilə formalaşdırılan antiterror koalisiyasına birinci daxil olan ölkələrdən və onun fəal iştirakçılarından biri oldu. Ə.Həsənov yazır: "2001-ci ildən ABŞ-ın rəhbərlik etdiyi antiterror koalisiyasında beynəlxalq terrorizmlə mübarizədə müsəlman dünyasının bütün narazılığına baxmayaraq Azərbaycan ilk gündən prinsipial mövqe nümayiş etdirərək, Amerikanın yanında yer almışdır. Xüsusən son dövrlərdə Əfqanstanla bağlı hərbi-geosiyasi məsələlərin həllində ABŞ üçün Azərbaycanın əhəmiyyəti xüsusilə əvəzolunmaz olmuşdur" [82, 294].

ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin 11 sentyabr hadisələrindən sonra "Azərbaycanın bizim üçün geosiyasi əhəmiyyəti daha da artdı" [101, 286] bəyanatı ilə çıxış etməsi iki ölkə arasındakı münasibətlərdə hərbi-strateji tərəfdaşlığın Birləşmiş Ştatlar üçün nə dərəcədə önəmli olmasına diqqət çəkir. 2001-ci il terror aktından sonra iki ölkə arasında təhlükəsizlik sahəsində və müdafiə nazirlikləri arasında əməkdaşlıq genişləndirilmiş, ABŞ-ın müdafiə naziri D.Ramsfeld 2001-2005-ci illərdə dəfələrlə ölkəmizdə səfərdə olmuş, hərbi təhlükəsizliyin müxtəlif sahələrinə dair razılaşmalar aparmışdır. Bu danışıqların nəticəsində aşağıdakılara nail olunmuşdur:

1. 2002-ci ildə Azərbaycan təhlükəsizlik və müdafiə sahəsində 11 proqramda iştirak etmişdir;
2. 2002-ci il noyabrın 15-də Azərbaycan Silahlı Qüvvələrinin dörd taqımının Turkiyə Cumhuriyyəti silahlı qüvvələrinin taburunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsi və müvafiq əməliyyatlarda iştirak etməsi haqqında qərar qəbul etmişdir;
3. Anti-Səddam koalisiyası yaradılarkən, 2003-cü ilin əvvəlində Azərbaycan ABŞ-a öz dəstəyini vermişdir.

ABŞ prezidenti Corc Buş Azərbaycan Respublikasının Prezidentinə verdiyi dəstəyə görə 2003-cü il martın 17-də təşəkkür məktubu göndərdi. Həmən il iyulun 2-də Azərbaycan Respublikasının və ABŞ-ın müdafiə nazirlikləri arasında

avadanlığın alınması və qarşılıqlı xidmət haqqında saziş imzalandı və Xəzər dənizində sərhədə nəzarət rejiminin qurulmasını nəzərdə tutan 100 milyon dollarlıq Xəzər Dənizi Mühafizə Proqramının həyata kecirilməsinə başlandı” [42, 382].

Bakıda 2 iyul 2003-cü ildə Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları müdafiə nazirlikləri arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında, oktyabrın 9-da isə Azərbaycan Respublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında Azərbaycan Respublikasında sülh korpusunun proqramı haqqında sazişlərin imzalanması müxtəlif sahələrin inkişafına təkan verdi.

Bu müddət ərzində Azərbaycan Şimali Atlantika blokuna girməmək şərtilə ABŞ-ın regional siyasətində sülhyaradıcı qüvvə kimi hərbi çağırışlarına dəstək vermiş, Əfqanstana və İraqa ABŞ və NATO təyyarələrinin sərbəst uçuşu üçün hərbi hava dəhlizi açmış və s. bu kimi tədbirlərdə fəal iştirak etmişdir. “Azərbaycan ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi hərbi əməliyyatlara öz Silahlı Quvvələri ilə dəstək verdi və bu olkəyə hərbi və mülki yüklərin daşınması üçün əsas tranzit marşrutlarından birinə çevrildi.

Ötən muddət ərzində NATO-nun Əfqanıstandakı Beynəlxalq Təhlukəsizliyə Yardım Qüvvələrinin (ISAF) qeyri-hərbi yüklərinin 40%-dən çoxu NATO-nun Şimal Paylayıcı Şəbəkəsinin (ŞPŞ) əsas tranzit hissəsi olan Azərbaycan ərazisindən keçmişdir. Bundan əlavə, Azərbaycan ABŞ ordusunun nəqliyyat və hərbi hava komandanlıqlarına Əfqanıstanda əməliyyatlar zamanı uçuşlara nəzarət, təcili tibbi uçuşlar, yanacaq və texniki xidmətlər sahəsində yardım etməklə ISAF-a dəstək oldu. Azərbaycan Əfqanıstanda sülhün və təhlükəsizliyin bərpa edilməsi üçün beynəlxalq koalisiya daxilində fəaliyyəti ilə yanaşı, bu ölkənin dövlət quruculuğu sahəsində təcrübəsini bölüşməklə, dövlət qulluqçuları və digər fəaliyyət sahələri üçün əsaslı təlimlərin kecirilməsi, ərazilərin minalardan təmizlənməsi, təhsil də daxil olmaqla, təhlükəsizlik və silahlı qüvvələrin qurulmasında yaxından iştirak etməkdədir. Əldə edilmiş razılığa əsasən, təkcə 2015-ci ildə Azərbaycan Əfqanıstan Milli Ordusu Etimad Fonduna 2 milyon avro həcmində maliyyə yardımı etmişdir” [42, 380].

Göründüyü kimi, Azərbaycan terrorla mübarizədə ABŞ-a bütün lazımi köməklik göstərmiş və göstərməkdədir. Azərbaycanla ABŞ arasında təhlükəsizlik,

silahlara nəzarət, müdafiə və s. sahələrdə əlaqələrin inkişafında ölkəmiz üzərinə düşən hər şeyi edir. 2001-ci ildən bəri on minlərlə hərbçi məhz Azərbaycanın hava məkanından istifadə edərək Əfqanıstana yollanıb. Hər il ABŞ-ın minlərlə həbçisi bu yolla cəbhəyə və geriyə daşınır. İndiyə qədər bütün ABŞ və NATO avadanlığının təxminən dörddə biri Əfqanstana məhz Azərbaycan vasitəsilə daşınmışdır. ABŞ Azərbaycandan təkcə hava nəqliyyatı vasitəsi ilə deyil, quru yolu vasitəsilə də yüklərin daşınmasını həyata keçirir. Azərbaycan ABŞ-ın antiterror və sülhyaratma proqramlarında iştirak edir. Azərbaycan əsgərləri beynəlxalq qüvvələrin tərkibində dünyanın müxtəlif bölgələrində öz vəzifələrini yerinə yetirirlər. Azərbaycanın beynəlxalq təhlukəsizliyin, o cümlədən ABŞ-ın milli təhlukəsizliyinin təmin edilməsində, həmcinin beynəlxalq terrorizmə qarşı mübarizədə oynadığı rol ABŞ-ın yuksək rütbəli şəxsləri və tanınmış ekspertləri tərəfindən dəfələrlə vurğulanmışdır. Məsələn, 2004-cü il martın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında ABŞ Dovlət Katibinin birinci müavini Riçard Armitacı və onunla gələn nümayəndə heyətini qəbul edən zaman ABŞ rəsmisi dövlət başçısına və Azərbaycan xalqına terrorizm əleyhinə mübarizədə Vaşinqtonla bir koalisiyada olmasına və birlikdə əməliyyatlarda iştirak etməsinə görə minnətdarlığını ifadə etmişdi [42, 381].

Azərbaycan və ABŞ hökumətləri arasında şəxslərin Beynəlxalq Cinayət Məhkəməsinə təslriminə dair Vaşinqtonda 2003-cü il fevralın 26-da bağlanmış Sazişdə hər iki ölkənin bir-birinə hüquqi yardım göstərməsi ifadə olunurdu. Hökumətlər arasında narkotiklərə nəzarət və hüquq- mühafizə orqanlarına yardım haqqında 3 yanvar 2003-cü il tarixli Saziş Məktubuna 8 dekabr 2003-cu ildə Bakıda əlavə edilən Düzəliş çərçivəsində iki milyon beş yüz əlli min dollar dəyərində olan ”Hüquq mühafizəsinin inkişafı”, “Narkotiklər əleyhinə təlim və avadanlıq“, “Məhkəmə ekspertizası labarotoriyasının inkişafı“ və “Maliyyə cinayətləri üzrə məsləhətçi“ layihələrinin maliyyələşdirilməsi nəzədrə tutulurdu [47, 2].

12 avqust 2004-cü ildə ABŞ-ın müdafiə naziri Donald Ramsfeld Bakıya səfər etdi. Dövlət başçısı İlham Əliyev onunla görüşərkən ABŞ-la Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə möhkəmlənməsi üçün şərait yarandığına diqqət çəkmiş

və Azərbaycan prezidenti xüsusi vurğulamışdır ki, ABŞ rəsmilərinin ölkəmizə səfərlərinin mütamadi xarakter alması ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyini ortaya qoyur. Dövlət başçısı bildirib ki, iki müstəqil ölkə olan Azərbaycanla ABŞ-ın dünya əhəmiyyətli məsələlərdə, o cümlədən qlobal enerji layihələrinin həyata keçirilməsində, beynəlxalq terrorizmlə mübarizədə və təhlükəsizlik sahəsində sıx əməkdaşlığı Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında mühüm əhəmiyyət daşıyır. Cənab İlham Əliyev hərbi sahədə əməkdaşlığın inkişafından da məmnun qaldığını söyləyib [103, 3]. ABŞ-ın müdafiə naziri D.Ramsfeld regional və beynəlxalq təhlükəsizliyə təhdidlərə qarşı mübarizədə NATO ilə Azərbaycan arasında əməkdaşlığın uğurlu perspektivindən öz hökumətinin məmun olduğunun bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il oktyabrın 20-də ABŞ dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini Daniel Fridin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Bu qəbul Azərbaycanın ABŞ-la münasibətlərə böyük əhəmiyyət verməsindən irəli gəlirdi. Daniel Frid Azərbaycan-ABŞ münasibətlərinin belə səciyyələndirdi: ”Təkcə regionda deyil, bütün dünyada gedən bir sıra proseslərlə bağlı bizi dəstəklədiyinə, hərbçilərimizin İraqda birgə fəaliyyətinə görə, ümumən terrorizmə qarşı mübarizəyə verdiyi dəstəyə, Xəzərin təhlükəsizliyinin təmin edilməsi sahəsindəki əməkdaşlığa, hərbi və iqtisadi sahələrdə işbirliyinə görə hökumətimiz adından Azərbaycana minnətdarlıq bildirirəm. Bütün bunların çox böyük əhəmiyyəti vardır” [50] .

2005-ci ildə Azərbaycanla ABŞ arasında əlaqələr bütün sahələr üzrə xeyli inkişaf etdi. İki dövlət arasında hərbi sahədə bağlanılan mühüm sazişlər bu əlaqələri daha da möhkəmləndirdi. Belə ki, bu dövrdə aşağıdakı hərbi sahələrə dair razılaşmalar imzalandı:

1. Bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş;
2. Kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş;

3. Nüvə və digər radioaktiv materialların qanunsuz dövriyyəsinin qarşısının alınmasında əməkdaşlığa dair İcra Razılaşması.

2008-ci ilin iyulunda Bakıda keçirilən təhlükəsizliyə dair ikitərəfli Azərbaycan-ABŞ məsləhətləşmələrində Azərbaycanın NATO-ya daxil olması imkanları nəzərdən keçrilmişdir. Lakin ekspertlər Azərbaycanın NATO-ya üzv olması üçün bir çox problemlərin həll edilməsi zərurətini göstərirlər. Doğrudur, Cənubi Qafqaz regionu, xüsusilə Azərbaycan ABŞ-ın geosiyasi maraqlarında geoiqtisadi mənafeyinin təmin olunmasında Avropa-Cənubi Qafqaz-Mərkəzi Asiya marşrutuna görə əsas yer tutur. Lakin Azərbaycan NATO-ya daxil olmağa özünü hazır bilmir. Bu güclü təşkilatla uğurlu əməkdaşlığı isə davam etdirməkdə maraqlıdır.

2009-cu il 3 aprel tarixində Bakıda Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" Hərbi Təlimi ilə bağlı Təlimə dəstək Sazişi imzalandı. "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində aprelin 18-də Bakıda start verilən beynəlxalq hərbi təlim Azərbaycan ilə NATO arasında əməkdaşlığı tənzimləyən Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində nəzərdə tutulan tədbirlərə töhfə vermək məqsədi ilə keçirilirdi. Təlimlər üç gün qərargah və beş gün səhra təlimi formatında çoxmillətli sülhməramlı əməliyyatlar ssenarisinə uyğun olaraq bölmə və taqım səviyyəsində aparılır və əsasən nəzarət-keçid məntəqələrinin yoxlanılması, yolların təhlükəsizliyi, məhdud sənədlərin, təchizat və materialların hazırlanması, əlaqələndirilmənin təşkili, binanın mühasirəsi və axtarılması, döyüşə cəlb olunma qaydaları, müntəzəm və müfəssəl məruzələrin hazırlanması məsələlərini əhatə edirdi.

2009-cu ildə ABŞ-da demokrat Barak Obamanın hakimiyyətə gəlişi Azərbaycan-ABŞ münasibətlərində bir müddət dinamikanın aşağı düşməsində özünü büruzə verdi. Yaranan soyuqluğun əsas təzahürü ABŞ-ın Azərbaycana təyin etdiyi səfiri diplomat Metyu Brayzenin geri çağırılması və səfir vəzifəsinin uzun müddət boş qalması oldu.

B.Obamanın prezidentliyi dövründə ABŞ-ın həm bütövlükdə Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin nizamlanması istiqamətində nümayiş etdirdiyi passiv fəaliyyt, həm də ikitərəfli əməkdaşlıq və strateji tərəfdaşlıq sahəsində atdığı addımlar Azərbaycanı qane etmirdi [306]. Narazılığın kuliminasiya nöqtəsi isə Azərbaycan-ABŞ birgə hərbi təlimlərinin ləğv olunması oldu. Ancaq ABŞ çox keçmədən ilk addımı ataraq münasibətləri bərpa etməyə başladı. ABŞ prezidenti Barak Obama Prezident İlham Əliyevə məktub göndərərək ABŞ-ın Azərbaycanla bütün sahələrdə strateji tərəfdaşlıq əlaqələrini davam etdirmək fikrində olduğunu bildirdi [305].

Yeni səfir təyini ilə yanaşı, həm Əfqanstanda ABŞ hərbi kontingentinin təchizatı, həm də digər regional təhlükəsizlik məsələlərini müzakirə etmək məqsədilə ABŞ müdafiə nazirinin ölkəmizə bir neçə səfəri münasibətlərin normalaşmasına təkan verdi. 1mart 2010-cu ildə Ramşteyndə Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə iş planı ölkəmizin müdafiə qabiliyyətinin möhkəmlənməsinə mühüm töhfə verdi. Xüsusən, müdafiə naziri Robert Qeytsin səfəri pozulmaqda olan tərəfdaşlıq münasıbətlərinin normalaşmasına ciddi təsir göstərdi. Belə ki, 2010-cu il iyunun 6-da ABŞ-ın müdafiə naziri Robert Qeyts ölkəmizə ikigünlük səfər etmiş, Azərbaycanın müdafiə naziri və Prezident İlham Əliyevlə görüşlər keçirmiş və görüşlərdə Əfqanıstandakı ABŞ qüvvələrinin təchizatının təmininin Azərbaycan üzərindən aparılması müzakirə olunmuşdur.

Ümumiyyətlə, müşahidə edilən bəzi ziddiyyətlərə baxmayaraq bütövlükdə, iki dövlət arasında əlaqələr getdikcə daha da genişlənmiş və dərinləşmişdir.

2010-cu il sentyabrın 24-25 də Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-a növbəti işgüzar səfər etmişdir [304.] Sentyabrın 24-də Nyu-Yorkda prezident İlham Əliyevlə ABŞ prezidenti Barak Obama arasında kecirilən görüşdə Azərbaycanla ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin muxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuş, ABŞ prezidenti Barak Obama Prezident İlham Əliyevin liderlik rolunu qeyd edərək, Azərbaycanın regionda ən çox uğurlar qazanan və ən nüfuzlu dövlət olduğunu

göstərmişdir [304].Prezident Obama birgə fəaliyyətə toxunaraq Azərbaycanın ABŞ-ın beynəlxalq antiterror əməliyyatlarında iştirakını yüksək qiymətləndirmiş, energetika sahəsində ölkələrimiz arasında uzun illər səmərəli əməkdaşlığın davam etdirildiyini bildirmiş, beynəlxalq enerji əməkdaşlığının genişləndirilməsinə Azərbaycanın verdiyi töhfəni xüsusi vurğulamışdır. Bu görüş Azərbaycanla ABŞ-ın münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qalxdığını bir daha sübut etdi. Belə ki:

- ABŞ Azərbaycanı ” Cənub dəhlizi “ nin inkişafında lider dövlət kimi qəbul etdi;
- ABŞ-ın yeni Qafqaz siyasətində Azərbaycan prioritet ölkə hesab olundu;
- Ermənistanın Azərbaycana hərbi təcavüzünün nizama salınması regionda sülhün və sabitliyin təmin olunmasında həlledici amil kimi dəyərləndirildi;
- Beynəlxalq terrora qarşı mübarizədə ABŞ və Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi qeyd olundu.

2013-cü ildə bağlanmış ABŞ və Azərbaycan arasındakı sazişin müddəti daha 5 il uzadıldı. Bu saziş Əfqanıstana tranzitin təmin olunmasında ABŞ-a çox kömək etdi və həmçinin iki ölkə arasında kömrük sahəsində də əməkdaşlığın uğurla davam etdirilməsinə şərait yaratdı. 2013-cü ildə ABŞ Azərbaycana 10 milyon dollarlıq silah və texnika, o cümlədən sürətli kater və Azərbaycanın hərbi dəniz və digər silahlı qüvvələr növü üçün avadanlıq göndərdi.

Sonrakı illərdə Obama administrasiyasının Ümumavrasiya məkanındakı strategiyasında baş verən dəyişikliklər Azərbaycanın strateji əhəmiyyətinin yenidən qiymətləndirilməsi ilə nəticələndi. “Azərbaycanın strateji əhəmiyyətinin Vaşinqton tərəfindən yenidən qiymətləndirilməsinə səbəb olan əsas amil 2013-cü ildən etibarən Ukrayna və Suriya ətrafında cərəyan edən hadisələr oldu. Digər tərəfdən, Azərbaycanın regionda güclü dövlət kimi özünün milli maraqlarını təmin etmək istiqamətində müstəqil siyasəti, eləcə də Avropa məkanının enerji təhlukəsizliyi üçün mənbələrin müxtəlifləşdirilməsi istiqamətində fəaliyyətinin mühüm rolu oldu.

Məhz bu məqamlar Obama administrasiyası tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il aprelin 1-də Vaşinqtonda

kecirilən Nüvə Sammitinə dəvət olunmasını zəruri etmişdi. Səfəri ABŞ-ın Azərbaycandakı səfiri iki dovlət arasında münasibətlərdə müsbətə doğru dönüş nöqtəsi adlandırmışdı" [42, 394].

2016-cı il martın 31-də ABŞ-a işgüzar səfər edən Azərbaycan Prezidenti bu ölkənin dövlət katibi Con Kerri, vitse-prezident Co Bayden, ictimai xadimlər və şirkət rəhbərləri ilə görüşüb. ABŞ dövlət katibi Con Kerri ilə gorüşdə mətbuat üçün verdiyi bəyanatında dövlət başçısı İlham Əliyev qeyd etmişdi ki, artıq 25 illik tarixi olan Azərbaycan-ABŞ münasibətləri həmişə sıx, səmimi olub, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatmışdır [295].

IV Nüvə Təhlükəsizliyi Sammitində çıxış edən Prezident İlham Əliyev diqqəti Ermənistanın Azərbaycana hərbi təcavüzünə, Ermənistanın beynəlxalq hüquqa əməl etmədiyinə və BMT-nin qərarlarına məhəl qoymadığına, qonşu ölkədəki köhnəlmiş atom elektrik stansiyasının region və dünya üçün təhlükə mənbəyi olduğuna cəlb etdi. Azərbaycan Prezidenti müasir dövrün nüvə təhlükəsizliyi ilə bağlı ən mühüm məsələlərin və bütün bəşəriyyətin gələcək taleyinin həll olunduğu bu sammitə dəvət olunmasını öz ölkəsi ilə dostluq və tərəfdaşlığın əlaməti və mühüm tarixi hadisə kimi yüksək qiymətləndirdi.

Bu səfər zamanı Azərbaycan-ABŞ münasibətləri əsasən üç məsələ ətrafında mərkəzləşdi: ABŞ terrorizmlə mübarizədə Azərbaycanı ciddi tərəfdaş hesab etdi, superdövlətdə prezident İlham Əliyevin liderliyi yüksək qiymətləndirildi Azərbaycan-ABŞ münasibətlərinin İlham Əliyevin prezidentliyi dövründə təməlləri daha da möhkəmləndi, siyasi, iqtisadi, hərbi mədəni sahələrdə sazişlər bağlandı. Beləliklə, hər iki dövlətin münasibətləri 2003-2016-cı illərdə yüksək inkişaf mərhələsi keçdi.

2016-cı il aprelin 6-da Azərbaycan və ABŞ hökumətləri arasında "Açıq Səma Sazişi" qüvvəyə mindi. ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta sazişi ölkələrimiz arasında əlaqələrin irəliləməsi üçün çox vacib sənəd adlandırdı: "Bu imzalanma prezident İlham Əliyevin ABŞ-a çox uğurlu və məhsuldar səfərindən sonra baş verir. Saziş ölkələrimiz arasında əlaqələrdə irəliyə doğru atılmış çox vacib sənəddir. O, ABŞ-la Azərbaycan arasında bir körpü yaradacaq" [296]. Həmin il

iyulun 2-də "Azərbaycan Pespublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında hava nəqliyyatı haqqında" saziş təsdiq edildi.

2016-cı il aprelin 15-də iqtisadi əməkdaşlıq üzrə Dövlət Mülki Aviasiya Adminstrasiyası və ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında qrant sazişi imzalandı. Azərbaycanla ABŞ arasında bağlanmış sazişlər marşrutlar və qiymətlərə dair aviaşirkətlərin komersiya qərarına dövlətin müdaxilə etməməsini nəzərdə tutur. Bu sazişə uyğun olaraq Azərbaycan aviaşirkəti AZAL holdinq ABŞ ərazisində hər hansı üçüncü bir ölkəyə uçan sərnişinləri və yükləri daşıya bilər, o həmçinin, hər hansı bir ərazidən gətirdiyi sərnişin və yükü ABŞ ərazisində düşürmək hüququna malikdir. Amerika aviaşirkətləri də bu cür hüquqlar əldə etdilər. Bu saziş Azərbaycan aviaşirkətlərinin ABŞ-a yalnız öz ölkəsindən deyil, digər ərazilərdən də uçuş təşkil etməyə, həmçinin yeni bazarlara daxil olmağa imkan verir.

2016-cı il sentyabrın 22-də ABŞ-ın müdafiə nazirinin köməkçisi Maykl Kartermer Azərbaycan xarici işlər naziri E.Məmmədyarova ölkəsinin Bakı ilə hərbi əməkdaşlığı inkişaf etdirməsini bəyan etdi.

Göründüyü kimi, iki ölkə arasında istər hərbi-strateji sahədə, istərsə də digər sahələrdə əlaqələr bu gün də uğurla davam etdirilir. Azərbaycanın beynəlxalq aləmdə malik olduğu geosiyasi mövqe və zəngin enerji ehtiyatları daim bu ölkəni ABŞ üçün maraqlı edir və onunla əlaqəni zəruri hala gətirir. Hamıya məlumdur ki, ABŞ özünün xarici siyasətində ilk növbədə öz milli maraqlarından və milli təhlükəsizlik doktrinasından çıxış edir, dünyada baş verən bütün proseslərə, dövlətlərə, qurumlara, siyasətçilərə təsir etmək, şəraitindən asılı olaraq Amerika standartlarını tətbiq etmək, mövcid siyasi situasiyanı öz xeyrinə dəyişdirmək gücünə malikdir. Belə böyük bir dövlətlə Azərbaycan arasında münasibətlər qarşılıqlı faydalı əməkdaşlıq əsasında qurulmuş və beləliklə də, 27 illik müstəqillik dövründə apardığı uğurlu siyasət və intensiv əlaqələr nəticəsində Azərbaycan Qafqaz bölgəsində ABŞ-ın mühüm əhəmiyyət kəsb edən iqtisadi əməkdaşına və strateji tərəfdaşına çevrilmişdir.

Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafında qlobal enerji layihələrinin həyata keçrilməsinin böyük əhəmiyyəti oldu.

Bütövlükdə baxdıqda, təhlükəsizlik məsələləri ilə bağlı ABŞ-la Azərbaycan arasında həmişə yaxın əməkdaşlıq olmusdur. N.Məmmədov yazırdı ki, keçən müddət ərzində Azərbaycan Qərbin Cənub Qafqazla bağlı beynəlxalq layihələrində fəal iştirak etmişdir. Qərbin enerji təhlükəsizliyinə ciddi təsir edə bilən qlobal əhəmiyyətli bütün layihələrini dəstəkləmişdir. "Nabukko", "Cənub dəhlizi", "Transxəzər"... Bu enerji layihələrini ABŞ Azərbaycansız təsəvvür etmir". N. Məmmədov fikrini davam etdirərək yazır: " ABŞ prezidentinin enerji məsələləri üzrə xüsusi nümayəndəsi olmuş Riçard Morninqstarın Cənub Qafqaza çoxsaylı səfəri zamanı aparılan danışıqların iştirakçısı kimi deyə bilərəm ki, Amerika tərəfi Azərbaycanı enerji təhlükəsizliyinin təmini prosesində postsovet məkanının ən vacib ölkəsi olaraq görür" [103, 140].

Azərbaycan Respublikasının Dövlət Neft Fondu və Amerika Birləşmiş Ştatları hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) arasında Qrant Müqaviləsi, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə "Microsoft" şirkəti arasında "Təhsildə əməkdaşlıq" Anlaşma Memorandumu (Bakı, 10 dekabr 2009–cu il) Azərbaycan-ABŞ arasında müdafiə, ticarət, təhsil sahələrində yeni inkişaf imkanları yarandı.

Son illər Azərbaycan Respublikası ilə ABŞ arasında müdafiə nazirlikləri arasında əməkdaşlıq da genişlənmişdir. 2018-ci ildə Müdafiə naziri Z. Həsənov ABŞ-ın Müdafiə nazirinin müavininin müşaviri Laura Kuper ilə görüşmüşdür. Həmin görüşdə Azərbaycan Respublikası-ABŞ arasında hərbi-strateji münasibətlərin indiki durumundan danışılmış, gələcək əməkdaşlığın mühüm istiqamətləri müzakirə edilmişdir.

Müdafiə naziri ölkələrimiz arasında hərbi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq, o cümlədən hərbçilərimizin NATO proqramları çərçivəsində fəaliyyəti, sülhməramlılarımızın Alyansın Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı haqqında ətraflı danışıb [293]. İkitərəfli danışıqlar zamanı bir daha vurğulanıb ki, Azərbaycan Respublikası və ABŞ hərbi-texniki və eləcə də hərbi təhsil istiqamətində əməkdaşlığı daha da genişləndirsinlər. Müdafiə naziri

Z.Həsənov görüşdə nəzərə çatdırıb ki, ABŞ hərb sənəti sahəsində geniş imkanlara və texnologiyalara malik olduğu üçün ABŞ-ın hərbi təhsil müəssisələrində hərbi qulluqçularımızın, yəni zabit heyətinin təkmilləşdirilməsi üçün onların sayının artırılması vacibdir. Və bu xüsusda müvafiq qərar qəbul olunub. Müdafiə naziri Z.Həsənov ikitərəfli görüşdə Cənubi Qafqaz regionundakı hərbi-siyasi vəziyyəti təhlil etmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, Ermənistanın destruktiv və işğalçı siyasətindən söhbət açmışdır. Qeyd etmək lazımdır ki, L.Kuper də öz çıxışında Cənubi Qafqaz regionunda Azərbaycanın əhəmiyyətindən danışmış, dövlətimizin sülhməramlı qüvvəllərini, Əfqanıstanda və digər münaqişə yerlərindəki əməliyyatlarını qeyd etmiş, Azərbaycanın həmin sahədəki fəaliyyətini xüsusi olaraq dəyərləndirmişdir.

Göründüyü kimi, bu illər ərzində, həmçinin 2018-ci ildə Azərbaycan Respublikası – ABŞ arasında hərbi sahədə də konstruktiv danışıqlar, görüşlər olmuş və gələcək inkişafın əsas hədəfləri müəyyən edilmişdir. Əlbəttə ki, sonrakı illər üçün də mühüm qərarlar qəbul edilmişdir.

### 3.3. Azərbaycan-ABŞ münasibətlərində humanitar yardım siyasəti və onun əsas xüsusiyyətləri

SSRİ -nin süqutundan sonra Azərbaycanın ABŞ-la tərəfdaşlığı az məlum idi. ABŞ Postsovet məkanının dövlətlərinə Rusiya ətrafında bufer zona kimi yanaşırdı. Vaşinqton bu regionu demokratik və eləcə də güclü dövlətin təsir dairəsindən kənar görmək istəyirdi. O, Rusiyanın yeni müstəqil dövlətlərə təsirini zəiflətməyə, Moskvadan asılılığına son qoymağa çalışırdı.

İlk əvvəllər, ABŞ-ın maraqları mücərrəd və qeyri-müəyyən idi. 1992-ci ilin martında ABŞ Azərbaycanla diplomatik əlaqə yaradaraq Bakıda öz səfirliyini açdı. 90-cı illərin əvvəllərində Birləşmiş Ştatlar “Azadlığa yardım haqqında qanun”a uyğun olaraq öz proqramını həyata keçirdi. ABŞ Avrasiya ölkələrinin təlabatlarını aşağıdakılarla təmin edirdi:

- humanitar sahə ilə;

- demokratiya məsələləri ilə;
- bazar iqtisadiyyatının yaradılması ilə;
- investisiya qoymaq ilə.

Bu dövrdə erməni lobbisinin fəallığı nəticəsində Azərbaycana qarşı 907-ci düzəliş tətbiq edildi. Bu düzəlişin təsir gücü 2002-ci ildə zəiflədildi.

"907-ci maddədən" sonra Azərbaycan ABŞ-dan yalnız QHT-lər vasitəsilə yardım ala bilərdi. Azərbaycanla ABŞ-ın münasibətlərinin formalaşmasına kömək edə biləcək humanitar QHT-lərin qısa siyahısını nəzərdən keçirək: Adventist İnkişaf və Yardım Agentliyi (AİYA) humanitar QHT-lərdən biri olmaqla, Yeddinci Gün Adventist Kilsəsi tərəfindən təsis edilir və ABŞ-ın müvafiq hökumət təşkilatları tərəfindən maliyyələşdirilir, ADRA da Azərbaycanda Qarabağ böhranına cavab verən ilk QHT-lərdəndir [229]. Hər yerdə yardım kooperativləri (CARE) qeyri-kommersiya təşkilatıdır, humanitar yardım və inkişaf fəaliyyətlərinə aiddir. Bu təşkilat da ABŞ hökuməti tərəfindən maliyyələşdirilir, qaçqınları əlavə yardımla təmin edir [229]. Beynəlxalq Xilasetmə Komitəsi (IRC) qaçqın və məcburi köçkünlərə fövqəladə kömək göstərən digər qeyri-kommersiya, qeyri-dini, xüsusi bir təşkilatdır və ABŞ-ın əsas fondlarından yardım alır. IRC Azərbaycan qaçqınlarını çadırlarla təmin etməklə də kömək edir [229]. "Azerbaijan International"ın məqaləsində Relyef İnternational (RI)-ı humanitar və təbii fəlakətlərdən zərər çəkmiş şəxslərə və münaqişə zonalarında yaşayanlara fövqəladə rahatlıq, bərpa və inkişaf xidmətləri göstərən təşkilat kimi təqdim edilir.Təşkilat Azərbaycanda tibbi məsləhətləşmələr aparan klinik proqramları da həyata keçirir [229]. Birləşmiş Millətlər Təşkilatının Mütəmadi Mütəşəkkil Komitəsi (UMCOR) Birləşmiş Millətlər Təşkilatının Metodist Kilsəsinin Qlobal Nazirliklərinin Baş İdarə Heyətinin humanitar yardım və inkişafı şöbəsidir. UMCOR Azərbaycanda qaçqınlara təcili tibbi xidmət və profilaktik əsaslarla sağlamlıq xidməti göstərmişdir [229]. 2002-ci ildə "MercyCorps" təşkilatı Amerika BQHT-dir Humanitar Yardım üzrə Dövlət Komissiyası ilə birlikdə "Azərbaycanda fəaliyyət göstərən bütün BQHT-lər üçün standart hüquqi çərçivənin yaradılması" adlı seminar təşkil etdi. Azərbaycan hökümәti (235) bu cür çərçivənin yaradılmasına ehtiyac duyulduğunu

və bu təşkilatların əhəmiyyətinin vacibliyini göstərdi. Bu humanitar QHT-lər yalnız Azərbaycan xalqının təhlükəsizliyini təmin etmir, eləcə də bu ölkələr arasında əməkdaşlığı gücləndirirlər.

ABŞ tərəfindən ilk sosial yardıma cəhd 1992- ci il fevralın 10-a təsadüf edir. "Ümid əməliyyatı" çərçivəsində ABŞ-dan Azərbaycana 25 tonluq dərman və tibbi avadanlıqlar göndərildi [297]. Həmçinin AMOCO şirkəti də 8 milyon dollarlıq tibbi yardım etdi [297]. 1993-cü il oktyabrın 10-da isə ABŞ tərəfindən BMT vasitəsilə Azərbaycana 2 milyon dollar vəsait ayrıldı. 1994-cü ildə isə 25 milyon dollar, 1995-ci ildə isə müxtəlif QHT-lər vasitəsilə 27,5 milyon dollar yardım edildi . 1996-cı ildə isə "Save the children" təşkilatı vasitəsilə 9 milyon dollar, "Adventist Development and Relief Agency" vasitəsilə 12 milyon, Dünya Qida Proqramı çərçivəsində 5 milyon dollar, ABŞ-la təhsil proqramı çərçivəsində 1,5 milyon dollar ayrılmışdır.

1992-ci ildə ABŞ ANAMA təşkilatına 30 milyon dollar ayırmışdır ki, bunun hesabına 500.000 mina zərərsizləşdirilmişdir [282].

Azərbaycana göndərilən yardımların çox hissəsi qaçqınlara yönəlmişdir. QHT-lər vasitəsilə həyata keçirilən bu yardımlarda əsasən tibbi ləvazimatlar, dərmanlar və qida əsas yeri tuturdu. ABŞ 1992-ci ildən etibarən azərbaycanlı qaçqınlara və məcburi köçkünlərə 115 milyon dollar yardım ayırmışdır. Bütövlükdə isə ABŞ 1992-ci ildən etibarən Azərbaycana dəstək və humanitar yardım qismində 1,3 milyard dollar maliyyə vəsaiti ayırmışdır [282]. Bundan əlavə Azərbaycanda fəaliyyət göstərn AMOCO, Penzoil, Exon kimi ABŞ şirkətləri demokratiyanın dərinləşməsi üçün 600 milyon dollar məbləğində yardım etmişdir.

Azərbaycana yardım edən təşkilatlardan biri də USAİD-dir (ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyidir). USAİD dünyanın 110 ölkəsində fəaliyyət göstərən bir təşkilatdır. Agentliyin fəaliyyətinə aşağıdakı istiqamətlər daxildir:

- Yoxsulluq və xəstəliklərin azadılması;
- Ətraf mühitin qorunması;
- Qlobal məsələlər sahəsində əməkdaşlığın yaradılması;
- Sosial-iqtisadi inkişaf;
- ABŞ-ın ikitərəfli maraqları çərçivəsində fəaliyyət.

Bu təşkilat Azərbaycanda 1992-ci ildən fəaliyyətə başlamışdır. "907-ci düzəliş"lə əlaqədar onun fəaliyyəti ilk illər yalnız humanitar yardımla məhdudlaşmışdır. Onun Azərbaycandakı fəaliyyəti 3 istiqaməti əhatə edir: [282]

- Rəqabət fəaliyyətli özəl müəssisələrin artımının və inkişafının sürətləndirilməsi;
- Daha çox nümayəndə, geniş iştirakçılıq və fəaliyyət göstərən demokratiya;
- Keyfiyyətli səhiyyə xidmətinin təmin edilməsi.

Azərbaycan Respublikası ilə ABŞ arasındakı münasibətlər 18 iyun 2000-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında yardım göstərilməsinin asanlaşdrılmasına dair əməkdaşlıq haqqında Saziş" və 7 aprel 2003-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında Azərbaycan Respublikasında seçilmiş Amerika hökuməti yardım proqramının birgə maliyyələşdirilməsi üzrə Anlaşma Memorandumu" vasitəsilə tənzimlənir. Anlaşma Memorandumuna əsasən birgə maliyyələşdiriləcək layihələrin ümumi dəyəri 45 milyon ABŞ dolları idi. Bunun 20,7 milyonu Azərbaycan hökumətinin, 24,3 milyonu isə USAİD-in payına düşmüşdür [282]. Hal-hazırda USAİD demokratiya, idarəetmə, səhiyyə, iqtisadi inkişafa dəstək sahəsində 15-dən çox proqrama qoşulmuşdur. Məsələn, onun USAİD/ART Qida Təhlükəsizliyi üzrə məsləhət yardımı proqramı müəssisələrdə qida təhlükəsizliyinin artırılmasına yardım edir. Bu təşkilat həmçinin gənclər və gənclər təşkilatları ilə işləyən ilk agentlərdən biri olmuşdur. Bu fəaliyyət 2010-cu ildə "Counterpart İnternational" təşkilatının icra etdiyi vətəndaş cəmiyyəti layihəsi ilə aparılırdı. Azərbaycanda demokratiyanın inkişafı istiqamətində USAİD seçki prosesi ilə məşğul olan rəsmilərə, seçicilərin motivasiyası və onların maariflənməsi də daxil olmaqla MSK-ya yardım etmiş, jurnalistika və müasir cəmiyyətin əsas xüsusiyyətlərinin keyfiyyətini artırmaq üçün çalışmışdır [277]. Məsələn, Azərbaycanın "İnternews" şirkəti USAİD-in yardımı ilə jurnalistlərin təcrübəsini artırmaq üçün qısamüddətli kurslar açmışdır. Burada həmçinin "Güzgü" jurnalının 104 sayının, "Perekrestok" proqramının 93 buraxılışının yayınlanmasına kömək etmişdir. Bu təşkilatın yardımı ilə "Sosial

Fəaliyyət üçün Təşəbbüs və Avrasiyanın Bərpası" ictimai təşkilatı, "Mərkəzi və Şərqi Avropa hüquq Təşəbbüsü" təşkilatı fəaliyyət göstərir. Azərbaycanla ABŞ arasında təhsil sahəsində əməkdaşlıq da böyük əhəmiyyət daşıyır. ABŞ-ın təhsil və mübadilə proqramları ACTR/ACCELS (Təhsil və Dillər Öyrənilməsi üzrə Amerika əməkdaşlıq Şurası/Beynəlxalq Təhsil üzrə Amerika Şuraları), İREX (Beynəlxalq Tədqiqatlar və Mübadilələr üzrə Şura), Projekt Harmony kimi qeyri-hökumət təşkilatları və Beynəlxalq sülh korpusu tərəfindən idarə olunmuşdur. 2001-ci ildə ACCELS-lə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığa dair saziş imzalanmışdır. Sazişə əsasən çox saylı mübadilə proqramları həyata keçirilmişdir. Təhsil sahəsində Fulbright proqramı xüsusilə diqqət çəkir. Həmin proqram özündə alim və tədqiqatçıların qarşılıqlı mübadilə proqramıdır. Proqram təqaüdçüləri olan Azərbaycan mütəxəssisləri Amerika Birləşmiş Ştatlarında, amerikalı mütəxəssislər isə Azərbaycanda 3 aydan 10 aya qədər müddət ərzində tədqiqat aparmaq üçün qarşı tərəfin ali məktəblərinə göndərilirlər [298].

İndiyədək ACCELS, İREX təşkilatlarının həyata keçirdiyi və ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən təhsil mübadilə proqramları çərçivəsində 2500-dən artıq Azərbaycan vətəndaşı ABŞ-da təhsil almiş, tədqiqatlar aparmış, yaxud ixtisasartırmadan keçmişdir [298].

Bundan başqa Azərbaycan universitetləri ilə ABŞ universitetləri arasında əlaqələr möhkəmləndirilir. Amerikanın Corciya Universiteti ilə Azərbaycan Dövlət Neft Akademiyası arasında, Qərb və Bakı Dövlət Universiteti ilə Alabama Universiteti arasında təhsil sahəsində əməkdaşlıq yaradılmışdır. 2015-ci ilin yanvar ayında ABŞ-ın Hyuston Universiteti ilə BANM (Bakı Ali Neft Məktəbi) arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır ki, burada birgə magistr hazırlığı nəzərdə tutulurdu. Bundan əlavə dörd dövlət liseyi ilə Florida ştatının məktəbləri arasında şagird mübadiləsi proqramı gerçəkləşdirilmişdir [299].

ABŞ Azərbaycana ticarət və kənd təsərrüfatının inkişaf etdirilməsi ilə əlaqədar da yardımlar göstərmişdir. Bu addımlar USAİD təşkilatı tərəfindən həyata keçirilmişdir. 2000-2001-ci illərdə yerli fermer təsərrüfatlarının inkişafı üçün müəyyən kreditlər ayrılmış, amerikalı fermerlər öz təcrübələrini öyrətmək üçün

Azərbaycana gəlmişdilər. Məsələn, Masallıda fermerlər üçün 50 dollardan - 1000 dollara qədər kreditlər ayrılmışdır [300]. Həmçinin Göyçayda bu təşkilatın maliyyə yardımı əsasında süd emalı zavodu beynəlxalq standartlara uyğun 18 adda məhsul istehsal etmiş, İmişli rayonunda quşçuluq və heyvandarlıq üçün qarışıq yem istehsal edən "Muğan 2004" MMC, fındıqçılığın inkişafı üçün Zaqatalada 2 assosiasiya, 42 min fermeri istehsal vasitələri ilə təmin edən Kənd Təsərrüfatı istehsal vasitələri assosiasiyası, 3 rayonda isə süd emalçıları assosiasiyası yaradılmış, 3 istixana istifadəyə verilimişdir [300].

Həmçinin ABŞ Ticarət İnkişaf Agentliyi tərəfindən Azərbaycanda xüsusi mülkiyyəti dəstəkləmək məqsədilə bir sıra layihələr həyata keçirilmişdir. 2006-cı ildə Dövlət Sosial Müdafiə Fondu ilə birgə layihə, 253 min dollar həcmində olan digər layihə isə ekoloji və seysmik vəziyyətə nəzarət üçün təhlükəsizlik sisteminin təşkilinə sərf olunmuşdur.

2007-cı il fevralın 7-də Bakıda keçirilən Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının birinci iclasında ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) arasında ARDNF-ə 855 075 ABŞ dolları məbləğində texniki yardım ayrılması barədə qrant sazişi imzalandı. "Dövlət Neft Fondunun İnstitusional İnkişafı Layihəsi üzrə 2-ci fazanın texniki yardımı üçün mallar və xidmətlərin dəyərinin maliyyələşdirilməsinə dair Qrant Sazişi"ni ARDNF-nin İcraçı Direktoru Şahmar Mövsümov və TİA-nin Avropa ölkələri üzrə direktoru Daniel Stayn imzalamışdı [267]. Bu layihənin birinci mərhələsi haqqında saziş 2004-cu ilin 19 may tarixində imzalanmış, 2006- cı ilin avqustunda isə 1-ci mərhələsi başa çatmışdır.

Hərbi sahədə əməkdaşlıq və yardımların bir qismi isə hərbi birliklərin müdafiəsinə şamil edilmişdir. Digər məsələlərə isə hərbi əməkdaşlıq bölməsində baxılmışdır. Azərbaycanın hərbi sahəsinin maliyyələşdirilməsinin əsas istiqamətlərindən biri kimi hərbi-dəniz qüvvələri və enerji infrastrukturlarının qorunması istiqamətində olmuşdur.

Azərbaycan öz milli təhlükəsizliyini, ərazi bütövlüyünü, sərhəd təhlükəsizliyini qorumaq üçün ABŞ-dan yardım alır [42,38].

Azərbaycanın təhlükəsizliyinə hərbi proqramlarla kömək edən ABŞ Silahlı Qüvvələrinin Avropa komanda heyətinin təmsilçiləri 2000-2001-ci illərdə bir neçə dəfə Bakıya səfər etmişdilər.

2003-cü ildə Azərbaycana ABŞ-dan 3 milyon dollar məbləğində hərbi yardım göstərilmişdi.

2006-cı ilin iyununda Azərbaycan müdafiə naziri ABŞ-ın silahlı qüvvələrinin nəqliyyat komandanı Normon Şvartsla görüşərək hərbi əməkdaşlığı genişləndirməyi müzakirə etmişlər:

1. NATO və ABŞ-la ikitərəfli hərbi əməkdaşlığın genişləndirilməsi;
2. Azərbaycanın Avropa Təhlükəsizlik strukturlarına inteqrasiyası;
3. İstifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təhlükəsizliyinin ABŞ-ın köməyi ilə təmin olunması;
4. Cənubi Qafqazda hərbi-siyasi şəraitin hazırkı vəziyyəti;
5. Azərbaycan-ABŞ hərbi əməkdaşlığının perspektivləri haqqında fikir mübadiləsi [201].

8 aprel 2015-ci il tarixində ABŞ və Azərbaycan müdafiə sahəsində ikitərəfli əməkdaşlıq məsələlərində razılığa gəlmişlər.

Azərbaycan Respublikası silahlı qüvvələrinin Təlim və Tədris Mərkəzində keçirilən konfransda 2016-cı ildə ABŞ-ın Avropa komandanlığı və Azərbaycanın silahlı qüvvələri arasında hərbi əməkdaşlığa dair işçi planının layihəsi müzakirə olunmuşdur.

Azərbaycan tərəfindən tədbirdə üç növ qoşun, müdafiə nazirliyi xidməti və idarəsinin nümayəndələri, Amerika tərəfindən ABŞ Avropa komandanlığının nümayəndələri, hərbi attaşe və hərbi əməkdaşlıq departamenti idarəsinin nümayəndəsi iştirak edirdi [200].

2016-cı ildə Azərbaycan-ABŞ arasında hərbi sahədə əməkdaşlıq yüksək sürətlə inkişaf etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona rəsmi səfəri zamanı qeyd edilib ki, münasibətlər əvvəlki strateji tərəfdaşlıq səviyyəsində davam edir.

2016-cı il mayın 4-də ABŞ-ın Avropa komandanlığının nümayəndəsi general

Ben Xoces Bakıya səfər etmişdir. Görüşdə aşağıdakı məsələlər müzakirə edilmişdir:

1. Azərbaycan hərbçilərinin illik Amerika-Gürcüstan hərbi təlimlərində iştirakı;
2. ABŞ hərbçilərinin Azərbaycana gəlməsi, təlimlərdə iştirakı.

ABŞ Azərbaycanda demokratik proseslərə 12,9 milyon dollar ayırmışdır. Halbuki eyni məqsəd üçün ABŞ hökuməti Ermənistana 26,4 milyon dollar sərf etmişdir [223].

Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı və təkmilləşdirilməsi yeni ideyalar, müddəalar və təcrübə sayəsində baş verən demokratik proseslər milli maraqlardan irəli gəlir. Azərbaycanın Avro-Atlantik məkanına inteqrasiyası, vətəndaş cəmiyyətinin inkişafı prosesi geniş vüsət almışdır. İqtisadiyyatın liberallaşdırılması ölkənin qlobal iqtisadi sistemə inteqrasiyası üçün əlverişli imkan yaradır.

ABŞ-ın dəstəyi ilə Azərbaycanda Şərq və Qərb dəyərləri vəhdət təşkil edir. Dövlət vətəndaş cəmiyyətinin demokratikləşməsi üçün əlverişli şərait yaradır.

Azərbaycan cəmiyyəti elə bir inkişaf mərhələsinə qədəm qoymuşdur ki, milli demokratik tranzit aşağıdakı kontekstdə nəzərdən keçirilməlidir:

“1. Azərbaycan cəmiyyətində təşəkkül tapan daxili potensialın və institusional ənənələrin tədrici tranziti;

2. Kütləvi şüurun bütövlükdə ictimai inkişafın tədricən demokratikləşməsinə təsiri və inkişafın intensivləşməsi, dövlətin maliyyə müstəqilliyinin təmin edilməsi vətəndaşların rifahının yüksəlməsi, davranış əhval-ruhiyyəsinin dəyişməsi üçün zəmin yaradılması;

3. Azərbaycanın “yeni industrializmə transformasiyası və postindustrial dəyərlər zəminində ictimai şüurun tranziti şəraitində siyasi və sosial arxetiplərin modifikasiyası;

4. Ölkənin vətəndaşlarının regional səviyyədə məqsədyönlü investisiyası, yaradıcı və mənəvi potensialı dövlətin gələcəkdə rəqabətə davamlılığını təmin edilməsi.

Bu tranzit konteksti Azərbaycanda mərhələli demokratikləşmə və vətəndaş cəmiyyətinin formalaşmasının əsasını təşkil edir” [207].

"2006-cı ildə ABŞ-ın insan hüquqları və demokratiyaya yardım etməsi" mövzusunda ABŞ-ın Dövlət Departamentinin məruzəsində (Avropa və Avrasiya bölməsi üzrə) ABŞ-ın insan hüquqlarının və demokratiyanın bütün dünyada qorunmasını təmin etməsinə cəhd etdiyini təzahür etdirdi. "2006-cı il ərzində biz dünyanın hər bir regionunda insan hüquqları və demokratik prinsiplərin beynəlxalq standartlarının müdafiə olunmasına və tətbiqinə cəhd edirik. Biz bütün demokratik ölkələrə hesabatlı dövlət idarəetməsi və qanun hakimiyyətinin yaradılmısına kömək edəcəyik. Biz azad və düzgün seçkilərin keçirilməsini, bütün vətəndaşları, qadınları, milli azlıqları öz ölkələrinin həyatında tam şəkildə iştirak etməyə çağırırıq. Biz vətəndaş cəmiyyətinin möhkəmlənməsinə cəhd edir, kütləvi informasiya vasitələrinin azadlığına yardım edirik... İnsan ləyaqətinin müdafiəsi və bütün dünyada səmərəli demokratiyanın təşəkkülünə kömək etmək digər hökumətlərlə, qeyri-hökumət təşkilatları ilə və özəl sektorla möhkəm tərəfdaşlıq tələb edən üzünmüddətli layihədir" [205].

Prezident Buş 10 dekabrı İnsan hüquqları Günü elan etdi və aşağıdakı tədbirləri müəyyənləşdirdi:

1. Hüquq müdafiəçiləri fondlarının yaradılması;

2. Qeyri-hökumət təşkilatlarına münasibətdə başlıca prinsiplərin müəyyənləşdirilməsi;

3. Azadlığın mükafatlandırılması.

ABŞ Azərbaycanın müstəqilliyini müdafiə edir. "Bunun əsasında iqtisadi tərəqqi, vətəndaş cəmiyyəti və açıq dövlət durur" [216]. ABŞ hökuməti demokratiyaya yardım çərçivəsində Azərbaycandakı sivil toplum və çoxpartiyalı sistemin inkişafına kömək edir, informasiya vasitələrinin modernləşdirilməsini, media quruluşlarının müstəqil çalışmaları və onların hüquqlarının müdafiə olunmasını təmin edir, siyasi proseslərin şəffaflığına yardımçı olur" [177].

Demokratik yardım proqramlarının hədəflərindən biri də İnternet yayımının genişləndirilməsidir. Azərbaycanda İnternet yayımlanması ABŞ-ın Bakıdakı Səfirliyinin təşəbbüsü ilə sivil toplum vasitəsi olan İREX tərəfindən həyata keçirilir [231].

1999-cu ilin iyulunda ABŞ-dakı Beynəlxalq Demokratiya İnstitutunun nümayəndələri Azərbaycan hökumətilə əlaqə yaratmaq üçün Bakıya gəldilər.

USAİD 2000-ci ildə Azərbaycanda parlament və bələdiyyə seçkilərilə əlaqədar MSK-yə yardım proqrqmlarını həyata keçirdi. Azərbaycan şirkəti "İnternews" İSAİD-in köməyi ilə jurnalistlər, fotoqraflar və operatorlar üçün qısa kurslar təşkil etmişdir. Bu təşkilat "Güzgü" jurnalının 104-cü sayının, "Perekrostok" proqramının 93 seriyasının və "Biznes nedelya" proqramının 26 filminin yayımlanmasına yardım etmişdir.

İSAİD-in yardımı ilə Bakıda, Sumqayıtda və digər beş bölgədə "Sosial fəailiyyət üçün Təşəbbüs və Avrasiyanın Bərpası" adı altında bir sivil toplum təşkilatı fəailiyyətini davam etdirməkdədir. Prezident İlham Əliyev Bakıda "Gələcəyə baxış" Azərbaycan-ABŞ Forumunun açılışında demişdir: "Azərbaycan-ABŞ münasibətlərinin böyük tarixi vardır. Ola bilər, o qədər də uzun olmasın, amma çox mühüm münasibətlər vardır. Müstəqilliyimizin ilk günlərindən biz xüsusi əməkdaşlıq qurmuşuq. O da nəticədə strateji tərəfdaşlığa çevrilmişdir. Siyasi təmaslarımız və dialoq çox yüksək səviyyədədir, çox fəaldır. Müxtəlif sahələrdə - iqtisadi, ticarət, sərmayələr, Amerika şirkətləri Azərbaycanda başlıca investorlardandır. Bu şirkətlər Azərbaycan iqtisadiyyatının planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidini təmin etmişlər. Biz enerji təhlükəsizliyi məsələsində yaxından əməkdaşlıq edirik, iqtisadi şaxələndirmə, siyasi islahatlar, regional əhəmiyyətli məsələləri də müzakirə edirik. Regional təhlükəsizlik və əməkdaşlıq mühüm məsələlərdir" [197].

ABŞ Hüquqşünaslar Birliyi və İSAİD tərəfindən dəstəklənən "Mərkəzi və Şərqi Avropa Qanunverici Təşəbbüs" təşkilatı Azərbaycana yardım etməyə başlamışdır. Bu təşkilat Bakıda Ədliyyə Nazirliyində hakimlərin öyrənilməsi proqramını həyata keçirmişdir. Bunun üçün "Hüquqi Qaynaqlar Mərkəzi" sivil toplum kurslarını təşkil etmişdir. 2000-ci ilin iyulunda bu təşkilat Bakı Dövlət Unversitetində qadın hüquqlarını öyrənmək üçün Hüquq İnstitutu yaratmışdır[236].

USAİD 2000-2001-ci illərdə Avrasiya Fondunun Cənubi Qafqazda iş birliyi layihəsi çərçivəsində Azərbaycan, Gürcüstan və Ermənistanın sivil toplum

nümayəndələri görüşmüşlər.

Akademik Ramiz Mehdiyev "Demokratiya yolunda: irs haqqında düşünərkən" əsərində göstərir ki, "ölkənin demokratikləşdirilməsi təkcə iqtidarın deyil, bütün cəmiyyətin vəzifəsidir. Deməli, bu problemin həllində müxalifətin də çiyninə müəyyən yük düşür. Lakin məsələnin mahiyyəti ondan ibarətdir ki, milli müxalifətin əl-qolu daxili avtoritarizmlə bağlanmışdır. Müxalifət bu sosial "azardan" yaxa qurtarmayınca, demokratik prosesdə özünün iştirakının rolunu, yerini və əhəmiyyətini müəyyən edə bilməyəcəkdir" [97, 760]. Məsələ burasındadır ki, iqtidar öz çiyninə düşənləri edir. Çünki, demokratik cəmiyyətin hüquqi əsasları formalaşdırılmış, antiinhisar fəaliyyəti stimullaşdırılmış, azad bazar və sahibkarlıq üçün şərait yaradılmış, söz, mətbuat azadlığı formalaşdırılmış, senzura aradan qaldırılmış, qanunun aliliyi təmin edilmişdir. Bütün deyilənlər sübüt edir ki, Azərbaycanda demokratik və azad bir cəmiyyət qurulmaqdadır.

Donald Trampın 2017-ci il 28 May - Respublika Günü münasibətilə və Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransı ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı məktublar ABŞ-la Azərbaycan arasında münasibətlərin yeni kontekstə qalxması kimi izah oluna bilər.

Prezidenti İlham Əliyevə göndərilən məktublarda dövlətlərimiz arasında yaranan tərəfdaşlıq qiymətləndirilir. Həmçinin Prezident Tramp bu tərəfdaşlığın daim inkişaf etməsini vurğulayıb və bildirib ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində, iqtisadi islahatların həyata keçirilməsində uğurlu fəaliyyət göstərən Prezident İlham Əliyevin məqsədyönlü siyasətini dəstəkləyir. Barak Obama administrasiyasından fərqli olaraq Donal Tramp Azərbaycanda aparılan islahatlara mühüm əhəmiyyət verir. Eləcə də o, iqtisadiyyat, idarəçilik və məhkəmə sahələrində aparılan islahatları dəstəklədiyini bildirib. ABŞ prezidenti Azərbaycanı Amerika Birləşmiş Ştatlarının dəyərli tərəfdaşı adlandırmaqla birgə səylərlə iki dövlətin terrorizmə qarşı mübarizəsinin zəruriliyini, təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində atdıqları vacib addımları yüksək dəyərləndirdiyini vurğulamışdır. Donald Tramp həm də ABŞ-ın regional təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək Minsk qrupu prosesi vasitəsilə

Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə sadiqliyini vurğulayıb [196].

Beləliklə, Azərbaycan-ABŞ münasibətlərində Qərbin ən qüdrətli dövlətinin ölkəmizdə maraqları və respublikamızın dünya siyasətində oynadığı rol əsas yer tutur. Həmin maraqlar aşağıdakılardan ibarətdir:

- Ölkəmizin geostrateji mövqeyi;
- Tarixi, iqtisadi, mədəni, milli xüsusiyyətləri - dünyəvi, demokratik, türk, müsəlman ölkəsi olması, enerji ehtiyatları ilə zənglinliyi;
- Qafqazda mühüm geosiyasi çəkisi olan qərbyönümlü postsovet dövləti olması;
- Beynəlxalq və regional təhlükəsizliyə töhfələr verməsi;
- Şərqlə Qərbin sintezini özündə əks etdirməsi;
- Mərkəzi Asiya regionunu Qafqazla, Avrasiyanı Avropa ilə əlaqələndirməsi;
- NATO ilə bərabər tərəfdaşlıq statusu qazanması və s.

### 3.4. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin tənzimlənməsində ABŞ amili

Ermənistanın əsassız ərazi iddiaları və hərbi təcavüzü nəticəsində yaranan Dağlıq Qarabağ problemi postsovet məkanında "uzunömürlü", respublikalararası problemdən beynəlxalq səviyyəyə çatan, ikili standartlarla yanaşılan və erməni tərəfinin qeyri-konstruktiv mövqeyi sayəsində həlli çətin münaqişəyə çevrilən, on minlərlə insan tələfatına səbəb olan və maddi dağıntılara gətirib çıxaran bir problemdir. Bu səbəbdən də, Dağlıq Qarabağ probleminin həlli dünyanın bir çox aparıcı dünya dövlətlərinin, eləcə də ABŞ-ın xüsusi diqqət yetirdiyi məsələlərdəndir.

İllərdir uzanan Dağlıq Qarabağ probleminin həlli dünyanın aparıcı beynəlxalq təşkilatlarında müzakirəyə çıxarılmış və müxtəlif qətnamələr qəbul edilmişdir. Bunlardan BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, Təhlükəsizlik Şurası sədrinin 7 bəyanatı, Azərbaycan Prezidentinin BMT Baş məclisinin xüsusi təntənəli iclasında, Baş məclisin 49-cu sesiyasında çıxışları, ATƏT-in Parlament Assambleyasının qətnamələri, ATƏT-in Budapeşt,

Lissabon, İstanbul, Astana sammitləri, ATƏT-in Nazirlər Şurasının bəyanatları, ATƏT-in Minsk qrupunun fəailiyyəti, Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatları, Avropa Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini faktiki olaraq tanıması, AŞPA-nın qətnamələri, bəyannamələri, AŞPA NK-nın qərarları, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) münaqişəyə dair qətnamələri, Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) və başqa beynəlxalq təşkilatları göstərmək olar.

ABŞ-ın da daimi üzvü olduğu BMT-nin Təhlükəsizlik Şurası 30 aprel 1993-cü ildə 822 saylı qətnamə qəbul etdi. Qətnamədə "yerli erməni qüvvələrinin Kəlbəcər rayonuna soxulmasından" narahatlıq ifadə olunur və "işğalçı qüvvələrin Kəlbəcərdən və Azərbaycanın zəbt olunmuş rayonlarından çıxarılması tələb edilirdi. 3 ay sonra, 29 iyul 1993-cü ildə BMT TŞ 853 saylı qətnamə qəbul etdi. Bu qətnamədə "Ağdam rayonu və Azərbaycanın işğal olunmuş torpaqlarının zəbti" pislənilirdi. 1993-cü ilin 14 oktyabrında BMT TŞ-nın qəbul etdiyi 874 saylı yeni qətnamədə "Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin pozulmazlığını və qüvvə tətbiq edərək torpaqların alınmasının mümkünsüzlüyünü bir daha təsdiq etdi. 11 noyabr 1993-cü ildə qəbul edilmiş 884 saylı daha bir qətnamədə yenə də ərazinin zəbt edilməsi pislənildi. Lakin zəbt edən işğalçı dövlət müəyyən edilmir, Azərbaycan "Ermənistan hökumətini Dağlıq Qarabağ regionunun ermənilərinə öz təsirindən istifadə edərək adı çəkilən qətnamələrə riayət etməsinə və hərbi kampaniyaların davam etməməsi üçün vəsaitlərin verilməməsini təmin etməyə çağırdı. Əlbəttə, ABŞ-a və bütün dünya ölkələrinə məlumur ki, Dağlıq Qarabağ ərazisində yerli ermənilərə məxsus hərbi qüvvələr deyil, məhz işğalçı Ermənistanın nizami ordusu vuruşur. Ermənistanın birbaşa işğalçılıqda ittiham edilməməsi, işğalçı olmasına baxmayaraq beynəlxalq birliyin sanksiyalarından yan keçməsinə, təcavüzkar dövlətin Dağlıq Qarabağdan əlavə 7 ətraf rayonu da zəbt etməsinə səbəb oldu" [198].

ATƏT-in Minsk qrupu (Minsk konfransı) həmsədrləri institutu 1994-cü il dekabrın 6-da keçirilən Budapeşt sammitində əvvəlcə Rusiya və Finlandiya, 1997-ci il Lissabon sammitindən sonra isə ABŞ, Fransa və Rusiyadan ibarət həmsədrlər

qrupu yaradıldı. “ABŞ-ın da fəal iştirakı və Azərbaycan diplomatiyasının uğurlu fəailiyyəti nəticəsində 2-4 dekabr 1996-cı ildə Portuqaliyanın Lissabon şəhərində ATƏT-in sammiti keçirildi. Samitdə ATƏT-in fəailiyyətdə olan sədrinin bəyanatında münaqişə barədə Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ probleminin nizamlanmasının tərkib hissəsi kimi formalaşdırılan və Minsk qrupunun üzv-dövlətlərinin dəstəklədiyi üç prinsip tövsiyə edildi. Bu prinsiplər:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək səviyyəli özünüidarə hüququ verən, öz müqəddaratını təyin etməyə əsaslanan sazişdə müəyyən edilmiş Dağlıq Qarabağın hüquqi statusu;
- Bütün tərəflərin nizamlanma müddəalarına riayət olunmasının təmin edilməsinə dair qarşılıqlı öhdəliklər də daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təmin edilmiş təhlükəsizliyidir [198].

ATƏT-in Lissabon sammitində Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş, ATƏT-in üzvü olan 54 ölkədən 53-ü bu qərarın lehinə, yalnız Ermənistan əleyhinə səs vermişdir. ABŞ-ın ATƏT-in Minsk qrupundakı həmsədri Rudolf Perina Minsk qrupu çərçivəsində məsləhətləşmələrdə fəal iştirak etmiş, Azərbaycan Prezidenti Heydər Əliyevlə söhbətin məzmunu və nəticələri barədə öz hökumətinə məlumat vermişdir. Ulu Öndər Heydər Əliyevlə Minsk qrupu həmsədrlərinin 2001-ci il noyabrın 4-də keçirilən görüşündə R.Perina demişdir: “Güman edirik ki, bu münaqişənin həllini gələcəyə saxlasaq, onda bu daha mürəkkəb və çətin olacaqdır. Biz həmçinin belə hesab edirik ki, bu münaqişənin hərbi yolla həlli yoxdur. Münaqişənin hərbi yolla həll ediləcəyi tədqirdə, onsuz da çox ciddi və güclü şəkildə zərər çəkmiş insanlar daha çox böyük və üzunmüddətli müsibətlərə məruz qalacaqlar ”[ 198].

Dağlıq Qarabağ probleminin başlandığı ilk dövrdə ABŞ-ın strateji marağı bölgədə sabitlik yaratmaq idi. Ermənistan əsassız ərazi iddialarını və Dağlıq Qarabağdakı separatizmi öz müqəddəratını təyinetmə və insan hüquqlarının müdafiəsi pərdəsi altında Qərbi, o cümlədən ABŞ-ı çaşdırmağa cəhd edirdi.

Konfliktoloq F.İsmayılov yazır ki, həmin dövrdə rəsmi mətbuatda ABŞ-ın

gələcəkdə "Qarabağ problemini" dondurmağa çalışacağı, Azərbaycanı "erməni muxtariyyatı" ilə razılaşmağa məcbur etmək üçün təzyiqlərə əl atacağı barədə fikirlər də irəli sürülmüşdü.

SSRİ-nin süqutundan sonra keçmiş Sovet respublikalarını tanımaq üçün ABŞ beş prinsip irəli sürmüşdü. Həmin prinsiplərdən biri odur ki, digər respublikalara ərazi iddiasında olan dövlətləri ABŞ tanımayacaqdır. Lakin ABŞ tərəfindən Ermənistana göstərilən yardım erməni təcavüzkarlarında öz əməlləri üçün cəzadan qorxmamaq psixologiyasını gücləndirmiş və Azərbaycana qarşı haqsız hücumlara rəvac vermişdir. 1992-ci ildə ABŞ Konqresi "Ermənistana qarşı təcavüz etdiyi və blokada yaratdığı üçün" keçmiş SSRİ respublikalarına yardım haqqında qanuna etdiyi əlavəyə görə Azərbaycana dövlət yardımına qadağa qoyuldu. Əlbəttə, söhbət sırf yardım edilməsində deyil, əksinə regionda mövcud vəziyyət barədə ABŞ hökumətinin kifayət qədər informasiyaya malik olmamasında idi. "Doğrudur, dünya ictimaiyyəti, o cümlədən Amerika cəmiyyəti 1992-1994-cü illərdə ermənilərin işğal ediyi torpaqlardan yerli azərbaycanlı əhalinin qovulması faktını heç də rəğbətlə qarşılamamışdır. Lakin sivilizasiyalı dünyanın gözləri qarşısında belə bir danılmaz hadisənin baş verməsi, erməni təcavüzünün mövcudlğu de-fakto kimi aşkarlandısa da BMT, yəni ABŞ-ın aparıcı bir dövlət olduğu təşkilat Ermənistanı de-yure təcavüzkar tərəf kimi tanımadı" [86, 51-52].

1997-ci ildə Minsk qrupuna həmsədrlərdən biri kimi təyin olunan ABŞ digər həmsədrlərlə birlikdə iki hissədən ibarət üç təklif irəli sürdü [303]:

1. Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyən edilməsi. Onların 1997-ci ilin iyununda ilk təklif olaraq təqdim etdikləri Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsini nəzərdə tutan münaqişənin "paket" həlli idi.
2. 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif, münaqişənin mərhələli həllini nəzərdə tuturdu.
3. 1998-ci il noyabrın 9-da isə ABŞ və Minsk qrupunun digər həmsədrləri "ümumi dövlət" ideyasına əsaslanan üçüncü təklif irəli sürdü.

Azərbaycanın maraqlarına zidd olan bu təklif Azərbaycan prezidenti Heydər Əliyev tərəfindən rədd edildi.

Lissabon sammitində ATƏT-in FOS-nin (fəaliyyətdə olan sədrinin) bəyanatına münasibətini bildirərkən Ermənistan "Dağlıq Qarabağın statusunun əvvəlcədən müəyyən edilməsini, münaqişənin "beynəlxalq hüquq" əsasında - hər şeydən əvvəl millətlərin öz müqəddaratını təyinetmə hüququ əsasnda həll edilməsi prinsipinin mümkünlüyü haqqında bəyanatı ilə öz məkrli məqsədini müxtəlif diplomatik üsullarla ört-basdır edərək, əslində vaxtı uzatmağa və beynəlxalq ictimaiyyəti aldatmağa çalışırdı.

Dağlıq Qarabağ problemi çoxtərəfli görüşlərlə yanaşı, ikitərəfli görüşlərdə - Azərbaycan prezidentləri Heydər Əliyev və Ter-Petrosyan, Heydər Əliyev və Robert Köçəryan, İlham Əliyev və Serj Sarkisyan arasındakı görüşlərdə də müzakirə obyekti idi.

ABŞ Konqresinin qəbul etdiyi Qarabağ münaqişəsinin həllində mühüm əngəllərdən olan 907-ci düzəlişə əlavə də Azərbaycan xalqına qarşı çevrilmişdı.

Ulu Öndər Heydər Əliyevin məharətli diplomatik fəailiyyəti sayəsində ABŞ hökumətinə əsil həqiqət çatdırıldı. Heydər Əliyev ABŞ prezidenti B. Klintona, vitse-prezident Feliyə göndərdiyi məktublarda aşağıdakı məsələləri diqqətə çatdırırdı:

1) 907-ci düzəliş qeyri-obyektiv idi;

2) Azərbaycana münasibətdə ayrı-seçkiliyin ləğv edilməsi ilə bağlı tədbirlər görülməsi xahiş olunurdu.

ABŞ Prezidenti B. Klinton cavab məktbunda "Azərbaycan torpaqlarının bir qisminin işğalını pisləyir və münaqişəni aradan qaldırmaq üçün Dağlıq Qarabağ ermənilərinə və Yerevan hökumətinə ciddi təzyiqlər göstərildiyini, 907-ci düzəlişin qüvvədə qalmasına baxmayaraq ABŞ tərəfindən qeyri-hökumət təşkilatları vasitəsilə Azərbaycana yardım ediləcəyini bildirirdi" [69,125-126].

1994-cü ildən ABŞ-ın Dağlıq Qarabağ probleminin həlli istiqamətində iştirakında yeni mərhələ başladı:

- Azərbaycan NATO ilə əməkdaşlığı genişləndirmək üçün "Sülh Naminə Tərəfdaşlıq" layihəsinə qoşuldu;

- 1994-cü il mayın 11-də ABŞ Konqresi Bilbreyn layihəsini nəzərdən keçirərək 247-ci qətnaməni qəbul etdi, "Kerri düzəlişi" qüvvədə qalsa da ABŞ hökumətinin Azərbaycana yardım göstərməsinə səs verildi. Ermənistan ilk dəfə olaraq "münaqişə iştirakçısı" kimi təsdiqləndi. Qarabağ münaqişəsinin həllində ABŞ-ın rolu fəallaşdı;
- 1996-cı ildə ABŞ-ın ermənipərəst qanunvericiləri Konqresin nümayəndələr palatasında "Porter düzəlişi" deyilən sənəd qəbul etdilər. Bu sənədə əsasən Azərbaycana göstəriləcək yardım Dağlıq Qarabağa edilən yardımla əlaqələndirilirdi.

ABŞ-ın münaqişə ilə bağlı mövqeyində baş verən dəyişikliyi prezident B. Klintonun Azərbaycan Prezidenti Heydər Əliyevə ünvanladığı 1996-cı il 8 noyabr tarixli məktubunda ifadəsini tapdı. Məktubda Amerika prezidenti Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə dəstəkləyərək göstərir ki, hərbi münaqişənin həlli beynəlxalq hüquq prinsipləri əsasında həll edilməlidir. ABŞ prezidenti xüsusi olaraq vurğulayırdı ki, Birləşmiş Ştatlar Azərbaycanın tərəfdaşıdır, öz müttəfiqləri ilə birlikdə onun təhlükəsizliyini təmin etmək fikrinə sadiqdir [118, 133].

Minsk qrupunun paket həlli variantında 1) Münaqişənin sona çatması; 2) Qoşunların geri çəkilməsi; 3) Sülhməramlı qüvvələrin münaqişə zonasına yerləşdirilməsi; 4) Məcburu köçkün əhalinin geri qaytarılması; 5) Təhlükəsizlik zəmanətinin təmin edilməsi; 6) Eyni zamanda Dağlıq Qarabağın yekun statusu nəzərdə tutulurdu. Azərbaycan və Ermənistan tərəfləri bu təklifi qəbul etsə də Dağlıq Qarabağ erməniləri onu rədd etdilər.

1997-ci ilin sentyabrında mərhələli həll variantında aşağıdakılar nəzərdə tutulurdu:

- Ermənistan ilk mərhələdə 6 rayonu işğaldan azad etməli (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan);
- ATƏT-in sülhməramlı qüvvələri münaqişə zonasında yerləşdirilməli;
- Məcburi köçkünlər azad olunmuş ərazilərə qaytarılmalı;
- Münaqişə zonasında əsas kommunikasiya vasitələri bərpa edilməli.

"İkinci mərhələdə isə Laçın və Şuşa ilə bağlı məsələlər həll olunmalı,

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsipləri qəbul edilməli və ATƏT-in Minsk konfransı çağrılmalı idi” [89, 242].

1997-2001-ci illər dövründə münaqişənin həlli istiqamətində Minsk qrupunun sədrləri, xüsusilə ABŞ-ın nümayəndəsi münaqişə tərəflərinə bir neçə təklif təqdim etdilər.

ABŞ hökumətinin təşəbbüsü ilə Ki-Uest görüşü münaqişənin həlli strategiyasında yeni mərhələ oldu. Ki-Uest görüşləri ərəfəsində ümidverici proseslər baş verdi.

ATƏT-in Minsk qrupunun həmsədri ABŞ nümayəndəsi Keri Kavana ABŞ prezidenti C. Buşun Qarabağ problemini birinci dərəcəli əhəmiyyət kəsb edən məsələ saydığını bildirdi. “Qeyd edək ki, Florida ştatının Ki-Uest şəhərində iki ölkə prezidenti yeni formatda görüşmüşlər. Nəzərdə tutulduğu kimi prezidentlər H. Əliyev və R. Köçəryan təkbətək danışıqlar aparmaqla kifayətlənməyərək həmçinin ATƏT-in həmsədrləri ilə ayrıca görüşlər keçirmişlər. Görüşlər ərəfəsində hətta mətbuata sızan məlumata görə ABŞ-ın dövlət katibi Kolin Pauell tərəflərə özünün hələlik açıqlamaq istəmədiyi “praqmatik təkliflərini” irəli sürmək fikrində idi. Ölkə prezidentinin jurnalistlərə bəyan etdiyi kimi prezidentlər arasında razılığın əldə edilməsi yalnız birinci mərhələdir. Bundan sonra ekspertlərin görüşləri, müqavilələrin hazırlanması mərhələsidir. Həmin müqavilələri münaqişə iştirakçılarından əlavə Minsk qrupuna, BMT-yə, Avropa Şurasına daxil olan ölkələrin nümayəndələri də imzalamalıdırlar. Bu zaman ABŞ Dövlət Departamenti verdiyi bəyanatında ictimaiyyəti inandırmağa çalışırdı ki, hazırda razılığa gəlmək üçün real imkanlar mövcuddur. Buna görə də münaqişə tərəfləri həmin məsələyə maksimum cəhd etməlidirlər. “Azadlıq” radiosunun (rus redaksiyası) verdiyi məlumata görə “ABŞ-da hesab edirlər ki, əks halda hərbi əməliyyatlar bərpa oluna bilər”. Maraqlıdır ki, bu günə kimi Qarabağ münaqişəsi ilə bağlı sənədlərdə çoxdan idi ki, bu cür ifadələr işlədilmirdi və bu bir daha göstərir ki, okeanın o tayında Cənubi Qafqaz regionunda müharibənin bərpa olunması ehtimalına ciddi yanaşırlar” [86, 99].

Ki-Uest görüşlərinə ciddi yanaşan ABŞ Dövlət Departamenti:

- Minsk qrupunun fəailiyyətinə münaqişənin tarixinə və Qarabağ sülh prosesinə

həsr olunmuş məlumat kitabları nəşr etdirdi;

- Heç bir yerdə "Dağlıq Qarabağ Respublikası" termini işlədilmədi.

Siyasətşünas F. İsmayılov Ki-Uest danışıqlarının mühüm xarakterini belə xarakterizə edir: "…görüşlər əvvəlkindən fərqli olaraq yeni formatda keçirildi. Belə ki, prezidentlərin hər biri ayrılıqda həmsədrlərlə görüşdülər. Bu, diplomatiyada "yaxınlaşma", "tərəfləri yaxından öyrənmə" adlanır. Bu baxımdan danışıqlarda gözlənilməz məqamlar da ortaya çıxırdı. Mətbuata sızmalardan belə qənaət yaranırdı ki, danışıqların gedişində hansı informasiya mənbəyindən gəldiyindən asılı olmayaraq, erməni tərəfini narahat edən bir məsələ - Ki-Uestdə dövriyyəyə Qarabağ münaqişəsinin tənzimlənməsinin yeni variantının daxil olması idi. …Analitiklər son vaxtlar bu təklifin üzərində xüsusi dayanırlar ki, sülhə daha tez nail olmaq üçün ilkin olaraq, işğal olunmuş 6 rayon azad edilsin, qaçqınlar öz yerlərinə qayıtsınlar"[86,107].

Lakin 2001-ci ilin aprelində ABŞ-ın Florida ştatında yerləşən Ki-Uest şəhərində aparılmış dördgünlük danışıqlar da bir nəticə vermədi [138, 272].

Ermənistan və Azərbaycanın dövlət başçıları 2003-cü ildə Cenevrədə, 2004-cü ildə Varşavada görüşdülər. Dağlıq Qarabağ probleminin nizamlanmasına dair "Praqa prosesi" və "Madrid prosesləri" də nəticəsiz qaldı.

Tədqiqatçılar 2012-2016-cı illəri "nəticəsiz danışıqlar və hərbiləşmə prosesi" adlandırırlar [112,74].

Bu gün Dağlıq Qarabağ problemi ABŞ-ın Mərkəzi Asiyaya pəncərəsi hesab olunur. ABŞ Qarabağ məsələsini İran ətrafındakı şəraitdən, Avrasiya İttifaqı layihəsindən, Türkiyə-Ermənistan münasibətlərindəki ziddiyyətlərdən, həmçinin ABŞ-ın və Rusiyanın Cənubi Qafqazdakı maraqlarından ayırmır. Buraya Azərbaycan və Ermənistandakı ictimai-siyasi şüur transformasiyaları da öz təsirini göstərir.

Siyasətşünas E.Nəsibov Dağlıq Qarabağ probleminin həllinə təsir edən aşağıdakı mənfi amilləri qeyd edir:

1. Dini siyasət amili;
2. Türk dünyası siyasəti amili;
3. "Güc mərkəzləri" nin siyasi rəqabət amili;

4. Azərbaycanın coğrafi mövqe amili;

5. İqtisadiyyat amili.

ABŞ-ın dövlət maraqlarının Dağlıq Qarabağ probleminə təsir edən mənfi tərəfləri də var. Siyasətşünas E.Nəsibov ABŞ-ın Azərbaycandakı strateji maraqlarının təmin olunmasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə mənfi təsirini aşağıdakı şəkildə qeyd edir:

1. Nəzərə almaq lazımdır ki, hal-hazırda ABŞ-ın Azərbaycandakı strateji maraqları Dağlıq Qarabağsız da təmin olunur;
2. ABŞ hesab edir ki, Dağlıq Qarabağsız da Azərbaycan iqtisadi cəhətdən güclənir və regionun lider dövlətinə çevrilir;
3. Dünyanın, eləcə də Avropanın enerji tələbatında mühüm rol oynayan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa kimi enerji kəmərləri mövcuddur. Həmin kəmərlər reallaşıbdır və coğrafi baxımından Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən keçmir və münaqişənin mövcudluğu həmin layihələrin fəaliyyətinə təhlükə törətmir;
4. Mərkəzi Asiyanın enerjisini alternativ yollarla, Rusiyadan yan keçməklə, Xəzər dənizinin dibi ilə Azərbaycan və Gürcüstan üzərindən dünya bazarlarına çatdırmağı nəzərdə tutan “Transxəzər” və Avropanın enerji ehtiyaclarının ödənilməsində mühüm rol oynayacaq “Nabukko” layihəsi coğrafi baxımından Azərbaycanın Dağlıq Qarabağ ərazisindən keçmir;
5. Dağlıq Qarabağsız da Azərbaycanı NATO-ya inteqrasiya etdirə bilir[105, 307-308].

Beləliklə, ABŞ da bütün Qərb ölkələri kimi Dağlıq Qarabağ probleminin həllinə ikili standartlardan yanaşır. Hətta bəzi hallarda ABŞ Azərbaycanın ərazi bütövlüyünün əleyhinə də səs vermişdir. Bütövlükdə:

- ABŞ-ın Dağlıq Qarabağ probleminin tənzimlənməsində mövqeyi Azərbaycana qarşıdır;
- ABŞ beynəlxalq hüququ inkar edir, Azərbaycanın öz ərazisi bütövlüyünü bərpa etməyə mane olur;
- ABŞ-ın ermənipərəst mövqeyi tarixi və siyasi məsələdir, ermənilər daim ABŞ-

ın maraqlarına xidmət etmişdir;

- ABŞ-ın erməniپərəst mövqeyi geosiyasi məqsəd güdür;
- Dağlıq Qarabağ probleminin tənzimlənməməsi Rusiyanın imicini aşağı salır.

2015-ci ildən ABŞ Dağlıq Qarabağ siyasətində ermənipərəst mövqeyindən uzaqlaşmağa başladı. Artıq Ağ ev rəsmləri Azərbaycan və erməni icmaları arasında dialoq keçirilməsinin tərəfdarı kimi çıxış edirdilər. ABŞ-ın Azərbaycan Respublikasında fövqaladə və səlahiyyətli səfiri Robert Sekudanın dediyi kimi: "Azərbaycan ATƏT-in Minsk qrupuna üç həmsədrindən biri kimi ABŞ-a olan etimadını gücləndirmişdir…ABŞ kömək etmək, yaraları sağaltmaq və gələcək barədə düşünmək üçün həmişə Azərbaycanın yanında olmuşdur" [115, 24].

ABŞ-ın Dövlət Departamenti bəyan edir ki:

- Dağlıq Qarabağ və Azərbaycanın 7 rayonu Ermənistanın yardım etdiyi erməni separatçılarının nəzarəti altındadır;
- ABŞ Dağlıq Qarabağ adlı "dövlət" tanımır;
- Dağlıq Qarabağ separatçı rejiminin başçısı Bako Saakyana Amerika vizası verilmir.

# NƏTİCƏ

ABŞ-ın regional siyasəti onun xarici siyasət proqramını özündə təsbit edən doktrinal əsaslardan qaynaqlanır. SSRI- nin süqutu ilə dünyada bipolyar sistemin qərarlaşması ABŞ-ın xarici siyasətinin doktrinal əsaslarında əksini tapdı. Belə bir

şəraitdə ABŞ keçmiş SSRİ məkanında möhkəmlənməyə cəhd etdi. Onun bu regionda möhkəmlənmə səyləri "demokratiyanın yayılması strategiyası" adı ilə həyata keçirilməyə başlandı. Sübhəsiz ki, Cənubi Qafqaz respublikaları da belə siyasətdən kənarda qala bilməzdi. Regionun strateji mövqeyi, enerji resursları ABŞ-ın bu regiona maraqlarını artırırdı. Respublikaçılar dövründə antiterror əməliyyatlarının genişlənməsi yeni Milli Təhlükəsizlik strategiyasında Amerika kontingentlərini təhlükə mənbəyinə daha yaxın ərazilərdə yerləşdirməyi nəzərdə tuturdu. Digər tərəfdən isə rejimlərin dəyişdirilməsi, demokratiyanın dərinləşdirilməsi doktrinası ABŞ-ın istənilən regionun daxili siyasi həyatına müdaxiləsinə, öz maraqlarına və mənafeyinə uyğun gələn sistemlərin təşkili üçün şərait yaradırdı. Demokratlar partiyasının hakimiyyəti zamanı ABŞ-ın xarici siyasəti daha mülayim xarakter alaraq, "qoşulma siyasəti" adı altında daha çox diplomatik vasitələrlə müvafiq regionda möhkəmlənməyi, gücdən ən müstəsna hallarda istifadə etməyi, müttəfiqlərin hərbi potensialının möhkəmləndirilməsini nəzərdə tuturdu. Bu isə ABŞ-ın xarici siyasətində Cənubi Qafqaz regionunda, eləcə də Azərbaycanda daha çox iqtisadi layihələrin tətbiqinin reallaşdırdırmasını şərtləndirdi.

Cənubi Qafqaz ABŞ üçün bir neçə baxımdan əhəmiyyət kəsb edir. Birincisi, starteji baxımdan. Çünki, bu region Şimali Qafqaza və Mərkəzi Asiyaya çıxış nöqteyi nəzərindən önəmlidir. İkincisi, Rusiya və İran kimi rəqib dövlətlərin maraqlarına zərbə vuraraq onların regional imicinin aşağı salınması və bütövlükdə Yaxın Şərq regionuna təsir göstərmək cəhətdən, üçüncüsü, enerji resurslarının bolluğu ilə bağlı olaraq, dördüncüsü, yeni bazarlar əldə etmək üçün əlverişli olması ilə.

ABŞ Cənubi Qafqaz respublikaları, o cümlədən Azərbaycanla çoxtərəfli əməkdaşlıq formatında əlaqələr qurmaqla regiondakı proseslərdə fəal iştirak edir. Belə siyasətin əsas mexanizmləri siyasi-iqtisadi və hərbi-siyasi vasitələrdən istifadə edilməsidir. ABŞ-ın regiona iqtisadi-siyasi təsir vasitələri kimi dövlət və qeyri-dövlət fondları tərəfindən böyük iqtisadi yardımlar, QHT-lərin və gənclər təşkilatlarının maliyyələşdirilməsi və s. cıxış edir. Diqqət etmək lazımdır ki, sonunculardan daha çox yerli hökumətlərə təzyiq vasitəsi kimi də istifadə edilir.

Hərbi-siyasi təsir vasitəsi kimi regional münaqişələrin beynəlxalq səviyyədə həllinə nail olmaq, NATO çərçivəsində əməkdaşlığın güclənməsi, birbaşa hərbi yardımların edilməsi nəzərdə tutulur.

Bütövlükdə, ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə başlıca maraqlarına aiddir:

1. Azərbaycanın enerji resurslarından Avropanın enerji təhlükəsizliyi üçün maksimum istifadə;
2. Rusiya və İranın ölkəyə təsirini zəiflətmək;
3. Azərbaycan-Rusiya və Azərbaycan-İran münasibətlərində ABŞ-ın maraqlarının qorunmasına nail olmaq;
4. Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, hərbi və s. sahələrdə əməkdaşlığın dərinləşdirilməsi.

Azərbaycan Respublikası ilə ABŞ arasında siyasi əlaqələrin tarixi hələ AXC dövründən başlayır. 1991-ci il müstəqilliyin bərpa edilməsindən sonra iki dövlət arasında münasibətlər daha geniş vüsət almışdır.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra Mütəllibov hakimiyyəti dövrünə düşən ilk əlaqələr dərinləşə bilməmişdi. Bu əlaqələrin inkişaf etməməsinə Mütəllibov administrasiyasının daha çox Rusiyapərəst siyasəti imkan vermirdi. Sonradan Elçibəy dönəmində də ABŞ-Azərbaycan münasibətlərində dərinləşmə özünü göstərə bilməmişdir. Ölkə daxilində vəziyyətin gərgin olaraq qalması, Qarabağ müharibəsində olan döyüşlər, həmçinin hakimiyyət uğrunda daxili çəkişmələr xarici siyasətdə də uğursuzluqlara gətirib çıxarırdı. Məhz, qeyd olunan amillərin nəticəsində ABŞ-ın 24 oktyabr 1992-ci ildə “907-ci maddə”ni qəbul etməsi mahiyyət etibarı ilə Azərbaycanın ABŞ-ın hər cür yardımından məhrum edilməsi demək idi. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtdan etibarən Azərbaycan-ABŞ münasibətlərində ciddi dəyişikliklər yarandı. Bu, hər şeydən əvvəl Ümummilli liderin balanslaşdırılmış və məqsədyönlü siyasətinin nəticəsi idi. 1993-cü ildə Azərbaycanda daxili xaos və hakimiyyət uğrunda müxtəlif qruplar arasında mübarizənin davam etdiyi, erməni təcavüzünün genişləndiyi zaman Azərbaycan Respublikasının xarici siyasətində əsas məsələ müstəqilliyimizi, ərazi

bütövlüyümüzü qorunmaq olmuşdur. Məhz bu dövrdən etibarən iki dövlət arasında münasibətlər qaydaya düşmüş, yaxınlaşma mərhələsi başlamışdır. Fikrimizcə, bu dövrü mahiyyətcə Azərbaycanın öz məqsədyönlü xarici siyasət xəttini müəyyənləşdirməsi, xarici dövlətlərlə konkret maraqlar çərçivəsində münasibətlərinin yaradılması kimi dəyərləndirmək olar. 1993-1994-cü illərdə aparılmış məqsədyönlü və balanslaşan xarici siyasət nəticəsində Azərbaycan-ABŞ münasibətlərində praktiki olaraq aşağıdakılar əldə edildi:

- Azərbaycan Respublikası ABŞ tərəfindən əsas siyasi, iqtisadi müttəfiq kimi qəbul edildi;
- Qarabağ münaqişəsində Azərbaycanın mövqeyi tam və aydın şəkildə ABŞ-a çatdırıldı;
- Erməni lobbisinin anti-Azərbaycan təbliğatının qarşısı alınmağa başladı;
- ABŞ hakim dairələrində azərbaycanpərəst qüvvələrin formalaşdırılması prosesi başlandı;
- Qafqaz regionunda Azərbaycan ABŞ-ın əsas diqqət yetirdiyi dövlətlərdən birinə çevrildi;
- Qafqazda ABŞ-Rusiya, ABŞ-İran rəqabətindən Azərbaycanın maraqlarına istifadə etmək üçün perspektivli siyasətin əsası qoyuldu;
- Azərbaycan Respublikası öz iqtisadi əhəmiyyətini bir daha təsdiqlədi.

Məhz bu illərdə həyata keçirilmiş xarici siyasət xətti gələcək xarici siyasi uğurlar üçün zəmin yaratdı. Azərbaycanla ABŞ arasındakı əlaqələrdə və əməkdaşlıqda yeni dövrün başlanması Ümummilli liderin 1997-ci ildə ABŞ-a rəsmi səfəri ilə başlandı. Bu görüş təsdiqlədi ki, hər iki dövlət arasında ümumi qarşılıqlı maraqlara aid münasibətlərin dərinləşməsi və regionda sülhün bərqərar olması dinc iqtisadi inkişafa da real və əlverişli şərait yaratdı.

Ümumilikdə, 1995-2000-ci illər ərzində aparılan diplomatik fəaliyyət və Azərbaycan xalqının böyük siyasətçisi Heydər Əliyevin həyata keçirilən dolğun, çevik və məqsədyönlü addımlar nəticəsində Azərbaycan-ABŞ münasibətləri yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Bu uğurlu siyasi xəttin yekunu ilə bağlı belə qənaətə gəlmək olar:

- Azərbaycanın ərazi bütövlüyü bir daha təsdiqləndi;
- Qondarma “Qarabağ Respublikası” nın Ermənistan tərəfindən dünyada tanıdılması cəhdinin qarşısı alındı;
- Azərbaycan Respublikası barədə yaradılan təhrif olunmuş və uydurma rəy aradan qaldırıldı;
- Azərbaycan dünyanın enerji təhlükəsizliyi siyasətinin təşkilində öz layiqli yerini təsdiqlədi;
- Ölkənin demokratik, iqtisadi, hərbi sahələrinin inkişafında ABŞ-ın dəstəyinə nail olundu;
- Azərbaycan ABŞ üçün etibarlı tərəfdaşa və əməkdaşa çevrildi;
- Neft strategiyasının formalaşdırılması və bu istiqamətdə xarici siyasətdə neft amilindən əlverişli və məqsədyönlü istifadə yolları müəyyənləşdirildi;
- Azərbaycanın dünyaya tanıdılması istiqamətində informasiya müharibə-sində perspektivli mövqelər əldə edildi.

2001-ci ildən sonrakı mərhələ isə iki dövlət arasındakı münasibətlər yeni, daha sıx münasibətlərin yaranması dövrü kimi səciyyələndirilə bilər. 2001-ci il Azərbaycan-ABŞ münasibətlərində yeni keyfiyyət dəyişiklikləri təzahür etdirdi. Bu, əsasən hərbi-siyasi yaxınlaşma və iqtisadi əlaqələrin möhkəmlənməsi xüsusiyyətləri ilə bağlıdır. Azərbaycan-ABŞ münasibətlərində yeni keyfiyyət mərhələsinin formalaşması 2001-ci il sentyabrın 11- də Nyu-Yorkda Dünya Ticarət Mərkəzinin terrorçular tərəfindən dağıdılması və Vaşinqtonda Pentaqon binasının zərbəyə məruz qalması ilə başlandı. Bu zaman Azərbaycan tərəfi ABŞ-ın çağırışına dərha reaksiya verərək, terrorçuları və onların əməllərini pislədi. Azərbaycan sülhməramlı qüvvələri vasitəsilə terrorçulara qarşı mübarizədə aktiv fəaliyyətə başladı.

20 yanvar 2009-cu ildə hakimiyyətə gələn Barak Obama administratiyası dövründə Azərbaycan-ABŞ münasibətlərində soyuqlaşma nəzərə çarpdı. İkitərəfli münasibətlərin belə səviyyəsi bir neçə amillə izah edilə bilər:

- ABŞ-ın siyasətində Bakı ilə münasibətlərin rəsmi şəkildə "üçsütunlu münasibətlər" ("three basket" üç zənbil və ya bəzi müəlliflər "sütun" adlandırırlar) formulu zəminində təşkili, başqa sözlə iki tərəfli

münasibətlərdə təhlükəsizlik, enerji resusrsları və insan haqları amillərinin əsas götürülməsi;

- Yəhudi lobbisi ilə münasibətlərin pisləşməsi;
- Rusiya ilə yaxınlaşma;
- Səriştəsiz siyasətçilərin bu administrasiyada təmsil olunması;
- Regionda Azərbaycanla bilavasitə bağlı olan bir sıra məsələlərin həllində Azərbaycanın mövqeyi və maraqlarının nəzərə alınmaması.

Rusiyanın Ukraynaya münasibəti, Suriya hadisələri, digər tərəfdən Avropanın enerji təhlükəsizliyində Azərbaycanın artan rolu ABŞ-ın Azərbaycana olan münasibətlərində yenidən irəliləyişə səbəb oldu. Məhz bu səbəblərdən 2016-cı il martın 31-də Vaşinqtonda keçirilən Nüvə Sammitinə Prezident İlham Əliyev dəvət olundu. Onun səfəri sayəsində Azərbaycan-ABŞ münasibətlərində dönüş başlandı. ABŞ-da Donald Trampın hakimiyyətə gəlişi iki dövlət arasındakı münasibətlərdə yaxınlaşma üçün geniş perspektivlər açdı. Bu perspektivlər aşağıdakılardır:

1) Avropanın enerji təhlükəsizliyində Azərbaycanın mühüm rol oynamsı faktı ABŞ tərəfindən yüksək qiymətləndirilir;
2) ABŞ-İsrail münasibətlərinin yaxınlaşması bilavasitə Azərbaycanla əlaqələrin möhkəmləndirilməsinə yol açır;
3) Regional münaqişələrin həllində Trampın daha konstruktiv mövqe tutması Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həllini mümkün edir;
4) Azərbaycanın tolerant dövlət kimi ABŞ tərəfindən qiymətləndirilməsi Trampın ksenofobik bəyanatlarının ölkəyə aid edilməməsini şərtləndirir;
5) Trampın məktubları təsdiqlədi ki, Ağ ev Azərbaycanı müstəqil milli dövlət kimi qəbul edir və onun xarici siyasət maraqlarını nəzərə alır;
6) Tramp Azərbaycanı təhlükəsiz, dinamik inkişaf edən ölkə kimi dəyərləndirir;
7) Azərbaycan Tramp administrasiyası tərəfindən ABŞ üçün investisiya yatırımlarının qoyulması baxımından əlverişli bir məkan, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı bir əməkdaş kimi qiymətləndirilir;
8) D. Trampın erməni lobbisi ilə əlaqələrinin olmaması bu diasporanın təsirini azaldacağı və ABŞ-da anti-Azərbaycan qüvvələrin fəaliyyətinin

zəifləyəcəyini göstərir;

9) ABŞ-ın anti-Rusiya və anti-İran siyasəti Cənubi Qafqazda ABŞ mövqelərinin möhkəmlənməsi uğrunda mübarizəsinin güclənəcəyi ehtimalını artırır.

Deməli, Azərbaycan-ABŞ münasibətlərinin gələcək perspektivləri iki ölkə arasında münasibətlərin daha da genişlənməsinə yönəlməklə Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasına, onun gələcək inkişafına xidmət edəcəyini təsdiqləyir.

Azərbaycanla ABŞ arasındakı siyasi, diplomatik əlaqələrlə yanaşı, iqtisadi münasibətlər də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-ABŞ iqtisadi əlaqələrində başlıca yeri isə məhz neft sektoru tutur. Neft şirkətlərinin Azərbaycana ilk gəlişi 1989-cu il "Ramco" (İngiltərə) şirkətinin rəhbəri S. Rimpinin gəlişi ilə başlanmışdır. Azərbaycana gələn ilk Amerika şirkəti isə 1991-ci ilin yanvarında "Azəri" yatağının istismarı üçün keçirilən tenderin qalibi olmuş "Amoco" şirkətidir. İqtisadi əməkdaşlıq sahəsində ən əhəmiyyətli müqavilə "Əsrin müqaviləsi" hesab edilir. 1994-cü il sentyabr ayının 20-də 7 ölkənin 11 neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundan 30 il müddətinə dəyəri 50 milyard dollara bərabər olan 511 milyon ton neft çıxarmağı nəzərdə tutan müqavilə bağlandı. "Əsrin müqaviləsi" adlanan neft kontraktlarına ABŞ-ın "Amoko", "Pennzoyl", "Yunokal", "Eksson" kimi iri neft şirkətləri də cəlb edilmişdir. "Azəri", "Çıraq" və "Günəşlı" yataqlarının birgə istismarını nəzərdə tutan "Əsrin müqaviləsi"ndə investisiya payının 47%-i ABŞ şirkətlərinə məxsus idi. Qərbin aparıcı neft şirkətləri ilə Azərbaycan hökuməti arasında bağlanan transmilli neft-qaz sazişinin imzalanması göstərrdi ki, Qərb və xüsusilə də ABŞ regionda öz geoiqtisadi planlarını reallaşdırmaq məqsədilə ciddi addımlar atmağa hazırdır. 1997-ci il Ümummilli liderin ABŞ-a ilk rəsmi səfəri dövründə ABŞ-ın Chevron, Exxon və mobil neyk şirkətləri ilə ARDNŞ arasında neftin çıxarılması və işlədilməsi ilə bağlı 10 milyard dollarlıq müqavilələr imzalanmışdı.

1997-ci ildə ABŞ Konqresi Xəzər və Qara dəniz regionunu Amerikanın milli maraq dairəsi kimi tanımış, Prezident yanında Xəzər regionu məsələləri üzrə xüsusi müşavir vəzifəsi təsis olunmuş, regiona aid strategiyanın hazırlanması ilə bir çox

elmi-tədqiqat mərkəzləri məşğul olmağa başlamışdır.

ABŞ iqtisadi sahədə əlaqələrə böyük önəm vermişdir. Bunu qeyd etmək kifayətdir ki, 1998-ci ilə qədər Azərbaycanın neft sənayesinə qoyulan 1,7 mlrd dollar vəsaitdən 700 mln. dolları ancaq ABŞ şirkətinə aid olmuşdur.

“Cənub dəhlizi” kəmərlərinin tikintisi Qərb üçün strateji əhəmiyyət daşımaqla bərabər, Xəzər regionunda stabillik və təhlükəsizliyin təmini üçün böyük önəm kəsb edir. Təsadüfi deyil ki, Amerikanın məsul şəxsləri “Cənub dəhlizi” nin inkişafında Azərbaycan qazını həlledici sayırlar. Elə bunun əhəmiyyətini nəzərə alaraq Cənub dəhlizinin tikintisinə ABŞ hökuməti 1,7 mln. dollar vəsait ayırmışdır. Eləcə də Azərbaycanın vasitəçiliyi ilə Şərq-Qərb nəqliyyat kommunikasiyası tranzit dəhlizinin (TRASEKA layihəsi) yaradılması və fəaliyyətində ABŞ əhəmiyyətli rola malikdir. Bu layihənin reallaşması ilə bağlı olan vacib sənəd 2007-ci ilin martında ABŞ-la Azərbaycan arasında imzalanmışdır.

ABŞ-ın yeni prezidenti Donald Trampın hakimiyyəti dövründə iki ölkə arasındakı iqtisadi münasibətlərin yeni, daha sıx olacağı ehtimal edilir. ABŞ prezidenti Donald Trampın göndərdiyi iki məktub Azərbaycanla çoxtərəfli əməkdaşlıqda ABŞ-ın maraqlarının çox olduğunun sübütudur. Bu məktublarda D.Tramp prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının gücləndirilməsi və islahatların keçirilməsi istiqamətində gördüyü işləri dəstəklədiyini bildirir, həmçinin iki ölkə arasında hərtərəfli əlaqələrin təşkilinin zəruriliyini nəzərə çatdırır, qlobal enerji layihələrinə diqqət yetirərək Cənub Qaz Dəhlizini qəti surətdə dəstəklədiyini, qlobal enerji təhlükəsizliyinin gücləndirilməsində, Xəzərin enerji resurslarının işlənməsi və ixracında Azərbaycanın oynadığı rolu çox qiymətləndirir. Bütün bunlar bir daha təsdiqləyər ki, Azərbaycan ABŞ-ın strateji tərəfdaşı kimi iqtisadi sahədə də öz önəmli mövqeyini qoruyub saxlayır və bu istiqamətdə ikitərəfli münasibətlər daha da dərinləşir. Çünki hər iki dövlət üçün bu münasibətlər böyük əhəmiyyətə malikdir.

Azərbaycan-ABŞ əlaqələrinin digər vacib istiqaməti kimi hərbi əməkdaşlıq çıxış edir. Azərbaycan NATO-ya birbaşa daxil olmasa da, bu təşkilatın sülhyaratma əməliyyatlarında aktiv iştirak etmiş, ABŞ və NATO təyyarələrinin

sərbəst uçuşu üçün hərbi hava dəhlizi açmış, terrorizmə qarşı mübarizə koalisiyasına qoşularaq antiterror faliyyətini gücləndirmişdir.

Beləliklə, Azərbaycan Respublikası ABŞ-la münasibətlərdə aşağıdakılara nail olmuşdur:

- ABŞ Azərbaycanı ”Cənub dəhlizi“nin inkişafında lider dövlət kimi qəbul edir;
- ABŞ-ın yeni Qafqaz siyasətində Azərbaycan prioritet ölkə hesab olunur;
- Ermənistanın Azərbaycana hərbi təcavüzünün nizama salınması regionda sülhün və sabitliyin təmin olunmasında həlledici amil kimi dəyərləndirilir;
- Beynəlxalq terrora qarşı mübarizədə ABŞ və Azərbaycan arasında əməkdaşlıq daim güclənir.

İki ölkə arasında siyasi, iqtisadi, mədəni, hərbi-strateji sahədə və digər sahələrdə əlaqələr daim uğurla davam etdirilir. Belə bir fövqəldövlətlə Azərbaycan arasında münasibətlər qarşılıqlı faydalı əməkdaşlıq əsasında qurulmuş və beləliklə də, Azərbaycan 27 illik qaşılıqlı əlaqələr dövründə aparılan siyasət nəticəsində Qafqaz bölgəsində ABŞ-ın əhəmiyyət kəsb edən iqtisadi əməkdaşına və strateji tərəfdaşına çevrilmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

### *Azərbaycan dilində*

1. Abbasbəyli A. Dünya siyasəti (XX əsrin ikinci yarısı-XXI əsrin əvvəlləri). Bakı: Nurlar NPM, 2011, 584 s.
2. ABŞ-Azərbaycan: Yan Kalitskinin gəlişi əməkdaşlığın yeni para-metrlərini müəyyənləşdirdi // “Xalq qəzeti”, № 210 (22352) Bakı, 30 oktyabr 1996-cı il, s.2
3. ABŞ Azərbaycana 70 milyon dollar yardım ayırıb.// “Azərbaycan” qəzeti,№ 118 (3733), Bakı, 21 may 2004-cü il, s. 5

4. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin hazırladığı dövlət sərmayə siyasəti və səmərəliliyi layihəsi təqdim edildi. //"Azərbaycan" qəzeti, № 198 (4110), Bakı, 27 avqust 2005-ci il, s. 2
5. ABŞ Dövlət Departamentinin bəyanatı, //"Azərbaycan" qəzeti, №141 (413) Bakı, 27 iyul 1993-cü il, s. 1
6. ABŞ Dövlət Departamenti Dağlıq Qarabağa dair bəyanat vermişdir. //"Azərbaycan" qəzeti, №152(444) Bakı, 08 noyabr 1993-cü il, s.2
7. ABŞ Dövləti: Ümumi cizgilər. ABŞ Dövlət Departamenti Beynəlxalq İnformasiya İdarəsi. Bakı, 2005, 120 s.
8. ABŞ ölkəmizə diqqəti artırır. // "Azərbaycan" qəzeti, № 198 (4117) Bakı, 27 avqust 2005-ci il, s. 2
9. ABŞ Prezidenti İlham Əliyevin siyasətini tam dəstəklədiyini rəsmən bəyan etdi //"Azərbaycan" qəzeti, № 68 (7212), Bakı, 2 aprel 2016-cı il, s.1
10. ABŞ Senatı "Porter düzəlişi"ni qəbul etmədi. // "Azərbaycan" qəzeti, № 144 (1118) Bakı, 30 iyul 1996-cı il, s.2
11. ABŞ-ın Azərbaycana humanitar yardımı: //"Azərbaycan" qəzeti, №182 (904), Bakı, 21 sentyabr 1993-cü il, s.2
12. ABŞ-ın hökumət nümayəndə heyəti Bakıya gəlmişdir. //"Azərbaycan" qəzeti, № 172(338) Bakı,18 iyul1993 cü il, s. 3
13. ABŞ-ın Prezidenti Zati-aliləri cənab Barak Obamaya Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin məktubu. 25 iyul 2011-ci il. //Əliyev İ.H. İnkişaf məqsədimizdir. Çıxışlar, nitqlər, byanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər və fərmanlar. 47-ci kitab. İyul 2011-sentyabr 2011. Bakı: Azərnəşr, 2017, s. 50 [ 400 s].
14. ABŞ-ın Prezidenti Barak Obamanın Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İ.Əliyevə məktubu.1iyun 2016-cı il. // "Azərbaycan" qəzeti, №225 (635) Bakı, 1 iyun, 2016-cı il, s.1
